AZƏRBAYCAN BAROMETRİ №2 (6)

Fevral / 2020

# STM

# AZƏRBAYCANDA DAXİLİ MİQRASİYA VƏ URBANİZASİYANIN SOSİAL ASPEKTLƏRİ

## ANALİTİK HESABAT



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

AZƏRBAYCAN BAROMETRİ
Altıncı buraxılış

Fevral 2020

# AZƏRBAYCANDA DAXİLİ MİQRASİYA VƏ URBANİZASİYANIN SOSİAL ASPEKTLƏRİ

**A N A L İ T İ K  H E S A B A T**

*(sosioloji sorğu və elmi tədqiqatın nəticələri əsasında)*

**Tədqiqatın müəllifləri:**

Elnarə QƏRİBOVA
Vüsalə RÜSTƏMOVA

**Tədqiqat qrupu:**

*Daxili siyasətin təhlili departamenti*
*Sosial-iqtisadi təhlil departamenti*
*İctimai rəyin öyrənilməsi departamenti*

Bakı - 2020

**Elmi redaktor:**
Zahid ORUC,
*Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri*

**Analitik hesabatın tədqiqat qrupunun üzvləri:**

Tahirə Allahyarova,
*Daxili siyasətin təhlili departamentinin müdiri, professor*
Elnarə Qəribova,
*Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi*
Vüsalə Rüstəmova,
*Sosial-iqtisadi təhlil departamentinin baş məsləhətçisi*
İnqilab Şahbazov,
*İctimai rəyin öyrənilməsi departamentinin baş məsləhətçisi*

**Redaktor:**
Aqşin Məmmədov,
*filologiya üzrə fəlsəfə doktoru*

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

"Azərbaycan barometri" jurnalı 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Nəşriyyat: "Şərq-Qərb"
Çapa imzalanıb:
Nəşrin ölçüsü:
Fiziki çap vərəqi:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

# TƏŞƏKKÜRLƏR

**Tədqiqat qrupu hesabatın ərsəyə gəlməsində aşağıdakı dövlət orqanlarına (qurumlarına), ekspertlərə və respondentlərə xüsusi təşəkkür edir:**

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə

3. Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyəti orqanlarına

4. Dövlət Statistika Komitəsinə

5. Dövlət İmtahan Mərkəzinə

6. İctimai rəy sorğusunda iştirak edən ekspertlərə

7. Azərbaycanın 7 iqtisadi rayonu üzrə keçirilən keyfiyyət sorğusunda iştirak edən hər bir respondentə və bu prosesdə əməyi keçən hər bir şəxsə.

# MÜNDƏRİCAT


## TƏDQİQATIN ÜMUMİ MƏSƏLƏLƏRİ

Tədqiqatın əhəmiyyəti və aktuallığı....5
Tədqiqatın məqsədi və vəzifələri....6
Tədqiqatın nəzəri və metodoloji əsasları....6
Verilənlər bazasının toplanılması və müqayisəsi....7
Sorğu və müşahidə metodu....8

## I HİSSƏ

## DAXİLİ MİQRASİYA VƏ URBANİZASİYA

I.1. Daxili miqrasiya prosesləri: xarakteri və motivləri....9
I.2. Miqrasiya əsaslı urbanizasiya və aqlomerasiya....9
I.3. Azərbaycan əhalisinin miqrasiyası və onun demoqrafik mənzərəsi....10
I.4. Məcburi xarici miqrasiyanın daxili miqrasiya ilə kəsişməsi....11
I.5. Azərbaycanda urbanizasiya....12
I.6. Keyfiyyət sorğusu əsasında aparılan müsahibələrin nəticələrinin təhlili....15

## II HİSSƏ

## AZƏRBAYCANIN İQTİSADİ RAYONLARI ÜZRƏ MİQRASİYA VƏ URBANİZASİYANIN VƏZİYYƏTİ

II.1. ABŞERON İQTİSADİ RAYONU....19
II.2. GƏNCƏ-QAZAX İQTİSADİ RAYONU....23
II.3. ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONU....27
II.4. LƏNKƏRAN İQTİSADİ RAYONU....31
II.5. QUBA-XAÇMAZ İQTİSADİ RAYONU....34
II.6. ARAN İQTİSADİ RAYONU....38
II.7. DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONU....42
II.8. PAYTAXT BAKI ŞƏHƏRİ....45
II.8.1. Paytaxtda daxili miqrasiyanın artması və onun yaratdığı meqaproblemlər....51
II.8.2. Daxili miqrasiyanın tənzimlənməsi üçün görülən işlər və izlənilən müsbət tendensiya....54
II. 9. BEYNƏLXALQ TƏCRÜBƏ....54
II.9.1. Paytaxt köçürülə bilərmi: ekspertlər hansı alternativ yollar təklif edirlər?....55

**NƏTİCƏ**....57
**TÖVSİYƏLƏR**....58
**İXTİSARLARIN SİYAHISI**....62
**İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR**....62
**ƏLAVƏLƏR**....65

## Tədqiqatın əhəmiyyəti və aktuallığı

Miqrasiya bəşər tarixində baş verən olduqca vacib sosial nəticə və dəyişiklikləri şərtləndirən proseslərdəndir. İnsanlar müxtəlif səbəblərdən yaşadıqları yerlərdən köç etmək məcburiyyətində qalırlar. Xüsusilə də son iki əsrdə elmi-texniki inqilab və qloballaşma proseslərinin sürətli inkişafı miqrasiyanın tempinə və səviyyəsinə birbaşa və ya dolayı yolla böyük təsir göstərmişdir. Miqrasiya mürəkkəb mahiyyətli bir hadisədir. Böyük şəhərlərin formalaşması və urbanizasiya nəticəsində meqapolislərin yaranması bu prosesi daha da mürəkkəbləşdirir. Çoxşaxəli sosial-iqtisadi, ekoloji, geosiyasi və etnosiyasi aspektlərdə yeni problemlərin ortaya çıxmasını şərtləndirir. Bir çox hallarda şəhərlərə istiqamətlənən kütləvi axın şəklini alan köç/miqrasiya prosesləri şəhərin ətraf mühitini, təbii landşaftını kökündən dəyişdirir, ənənəvi ahəngi pozur.

Son dövrlər Yaxın Şərqdə baş verən geosiyasi münaqişələr nəticəsində yaranan, humanitar fəlakət həddinə çatan qlobal miqrasiya axınları Avropada, bütövlükdə Qərbdə miqrasiya qanunvericiliyi ilə bağlı köklü dəyişikliklərə təkan verdi. Gəlmə miqrantlara qarşı dözümsüzlük, miqrantofobiya adlanan münasibətlərin sərgilənməsi qlobal miqyas aldı. Miqrantlara düşmənçilik təbliğ edən ifrat millətçi qüvvələr Qərb məkanında siyasi konfiqurasiyanın dəyişməsinə səbəb oldular, siyasi meydanda üstünlük qazanmağa başladılar. Onlara qarşı kənarlaşdırıcı davranış şəhər mühitində narazılıq, münaqişə və həmçinin cinayət hallarının artmasına gətirib çıxartdı. Gəlmə işçi qüvvəsinin təqdir edildiyi vaxtların sona çatması, multikulturalizm siyasətinin iflasa uğraması bəyan edildi və s.

Müasir qloballaşan dünyada Azərbaycanda miqrasiyanın yaranma meyillərinin tədqiqinə, respublikada iqtisadi və qeyri-bərabər miqrasiyanın qarşılıqlı əlaqələrinin müəyyən edilməsinə, onun ölkənin sosial-iqtisadi inkişafına və demoqrafik vəziyyətinə təsirinin qiymətləndirilməsinə çox ciddi tələbat yaranmışdır. Bu baxımdan Azərbaycanda ilk dəfə daxili miqrasiyanın sosial aspektlərini, səbəb və nəticələrini öyrənən Sosial Tədqiqatlar Mərkəzi tərəfindən həyata keçirilən bu tədqiqat dövlət, ictimai təşkilatlar və elmi araşdırmalar üçün əhəmiyyətli material hesab oluna bilər.

Ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində Azərbaycana qarşı Ermənistanın işğalçılıq siyasəti və etnik təmizləmə nəticəsində tarixi torpaqlarından qovulan bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün düşməsi ölkədaxili zorakı miqrasiya proseslərinin başlanğıcı oldu. Ümummilli lider Heydər Əliyevin müstəqilliyi yeni bərpa edilən Azərbaycanda o vaxta qədər heç bir struktura və təsisatlara malik olmayan miqrasiya xidmətinin yoxluğu vəziyyətində düşünülmüş miqrasiya siyasətini həyata keçirməsi nəticəsində qaçqın və köçkün axınlarının müvəqqəti yerləşdirilməsinə nail olundu. Qaçqın axınlarının miqyası və problemlərinə baxmayaraq, ölkə daxilində ciddi sosial münaqişələrin yaranması aradan qaldırıldı. Dövlətin sosial siyasətinin mühüm tərkib hissəsi kimi qaçqınların minimum sosial ehtiyaclarının və həyati tələbatlarının təmin edilməsinə şərait yarandı.

Miqrasiya prosesi əhalinin yalnız bir rayondan başqa rayona, şəhərə və ya ölkəyə hərəkəti kimi qiymətləndirilə bilməz. Sözügedən proses təsərrüfatın, ictimai həyatın, coğrafi şəraitin və bununla əlaqədar yaşayış məntəqələrinin funksional inkişafı, eləcə də əhalinin məskunlaşması kimi çoxşaxəli problemlərlə bağlıdır. Ölkə daxilində əhalinin doğulduğu yer ilə son yaşayış yeri arasındakı fərq əhalinin regional daxili miqrasiyasını göstərir. Daxili miqrasiyada əhali kəndlərdən daha iri yaşayış məntəqələrinə doğru köç edirlər.

Ümumi olaraq, sosial sistemlərdə təbii uyğunlaşma prosesi kimi könüllü miqrasiyanın müsbət cəhətləri qeyd edilməlidir. Bu hallarda istehsalın məhsuldarlığı daha da artır və əmək qabiliyyətinin məkanlar üzrə paylanması yenidən təşkil edilir. Bununla da sosial struktur və qurumlar arasında nisbi balans təmin edilir. Ancaq bu proses bütün ölkələr və şəhərlər üçün mütləq olaraq eyni müsbət nəticəni vermir. Keyfiyyətli bir şəhər həyatının mövcud olması üçün urbanizasiya prosesi təbii/könüllü, obyektiv əsaslı olmalıdır, bu çərçivədə şəhərləşmə və şəhər inteqrasiyası nəzərə alınmalıdır.

İqtisadi inkişafla miqrasiya arasında sıx bağlılıq var. Dünyada sənayeləş-

[1]UNESCO "Migration, displacement and education: BUILDING BRIDGES, NOT WALL" (2009) https://unesdoc.unesco.org/ark:/ 48223/pf0000265866/PDF/265866eng.pdf.multi

mə geniş vüsət aldıqca daxili miqrasiya və şəhərləşmə (urbanizasiya) prosesini sürətləndirmişdir. UNESCO-nun 2019-cu ildə hazırladığı "Miqrasiya, yerdəyişmə və təhsil" ("Migration, displacement and education")[1] adlı tədqiqatında 61 ölkənin müqayisəli göstəricilərinə əsasən, dünya əhalisinin 20 faizinin 5 il yaşadığı əvvəlki yeri dəyişdiyi qeyd edilmişdir. Hesabata görə, kəndlərdən şəhərə doğru daxili miqrasiyanın ən yüksək tempi aşağı və ortagəlirli ölkələrdə baş verir. 53 ölkənin göstəricilərinin təhlilinə görə, insanlar arasında yaşadıqları yeri tərk edib başqa yerə köçərkən ən çox müşahidə edilən orta yaş həddi 23-dür.

Sosial Tədqiqatlar Mərkəzinin (STM) **"Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri"** adlı tədqiqatı çərçivəsində apardığı sorğu zamanı respublika üzrə vətəndaşların doğulduğu yerdən ilk köçdükləri **orta yaş dövrünün 23 yaş olduğu müəyyən edilib**. Ümumiyyətlə, STM tərəfindən aparılan bu tədqiqatda Azərbaycanda ilk dəfə olaraq, daxili miqrasiyanın səviyyəsi, əhalinin daha çox köç etdiyi yaş dövrü, onun səbəbləri, sosial, siyasi və iqtisadi aspektləri araşdırılaraq təqdim edilir. Müstəqillik dövrünün ilk illərində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində yaranan məcburi köçkünlük ölkə üzrə miqrasiya prosesini mürəkkəbləşdirib. Bu səbəbdən sözügedən elmi-analitik tədqiqat xronoloji əhatə baxımından müstəqilliyin bərpasından sonrakı iki dövrü əhatə edir:

*1. 1988-1994-cü illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə yaranan məcburi (zorakı) miqrasiya;*

*2. Neft gəlirlərinin artdığı dövrdən etibarən yaranan təbii miqrasiya (1994-2018).*

Azərbaycanda miqrasiya prosesinin sosial aspektlərini, miqrasiyaya təkan verən amilləri aşağıdakı bir neçə istiqamətdə qruplaşdırmaq olar:

❍ **Rayon və kənd yerlərində sosial-siyasi amillər.** Buraya məşğulluq və sahibkarlıq imkanlarının differensial olmaması, cəmiyyətin təzyiqi və təsiri, davamlı təhsil və ixtisaslaşma imkanlarının zəif olması, siyasi müzakirələrin zəif inkişafı, əkin sahələrinin çatışmazlığı və ya məhsuldarlığın aşağı olması, hərbi əməliyyatlar, təbii fəlakətlər və s. amillər daxildir.

❍ **Şəhərin cəlbedici amilləri.** Buraya əvvəl köçmüş qohumlara qovuşma və ya zəncirvari miqrasiya, kənd və şəhərin gəlirləri, təhsil və səhiyyə xidmətləri arasındakı fərq, böyük şəhərin/meqapolisin cəlbediciliyi, nəqliyyat və kommunikasiya vasitələrinin rahatlığı, məşğulluq imkanları, evlilik, daha yüksək həyat səviyyəsi, şəhərlərdəki sosial və mədəni imkanlar və s. məsələlər daxildir.

Hazırda əhalinin daxili miqrasiyası ölkənin inkişafında əhəmiyyətli rol oynamaqla, bütövlükdə demoqrafik proseslərə ciddi təsir göstərir. İnsan resurslarının dövlətin sosial-iqtisadi inkişafında həlledici mənbə olması miqrasiya proseslərinin öyrənilməsi zəruriliyini artırır.

Tədqiqat Azərbaycan Respublikasında miqrasiyanın sosial-iqtisadi təsirinin öyrənilməsi baxımından əhəmiyyətlidir və bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsində istifadə oluna bilər.

## Tədqiqatın məqsədi və vəzifələri

Azərbaycanda miqrasiya proseslərinin sosial-iqtisadi, demoqrafik aspektlərinin tədqiqi və bunun əsasında dövlətin bu sahədə siyasətinin təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflər və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir. Tədqiqatda qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

❍ Azərbaycanda baş verən əhali köçünü təhlil etmək və onun demoqrafik nəticələrini aşkara çıxararaq qiymətləndirmək;

❍ Bazar iqtisadiyyatının hazırkı inkişaf mərhələsində miqrasiyanın əsas cəhətlərini ölkənin iqtisadi perspektivləri baxımından təhlil etmək və dəyərləndirmək;

❍ Əhalinin daxili miqrasiyasına təsir edən amilləri aşkara çıxarmaq;

❍ Sözügedən prosesin mahiyyətini və məzmununu, onun iqtisadi-demoqrafik aspektlərini tədqiq etmək;

❍ Daxili miqrasiya proseslərinin dövlət tərəfindən tənzimlənməsinə dair xarici təcrübəni öyrənmək, müasir şəraitə uyğun siyasətin reallaşdırılması istiqamətlərini əsaslandırmaq;

❍ Əhalinin yerdəyişməsinin Azərbaycanda məşğulluq səviyyəsinə təsirini qiymətləndirməklə, onun bu sahədə təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək.

## Tədqiqatın nəzəri və metodoloji əsasları

Tədqiqatın nəzəri əsasını urbanizasiya, miqrasiya və miqrasiya siyasəti, de-

moqrafiya üzrə yerli və xarici mütəxəssislərin araşdırmaları təşkil edir. Tədqiqat prosesində keyfiyyət sorğusundan, müşahidə xarakterli fərdi müsahibələrdən, regionlar üzrə reportajlardan, müxtəlif sahələr üzrə ekspertlərdən ibarət fokus qrupundan, ev təsərrüfatları və elektrik enerjisi istehlak edən abonentlər haqqında məlumatlardan, 1995-2018-ci illəri əhatə edən IX sinif şagirdlərinin illər üzrə dinamikasından, Dövlət Statistika Komitəsinin (DSK) demoqrafiyaya dair məcmuələrindən, Daxili İşlər Nazirliyinin (DİN) əhalinin ərazi üzrə qeydiyyatına dair məlumatından istifadə edilib. Ümumilikdə, STM tərəfindən göndərilən sorğular nəticəsində müxtəlif dövlət qurumları tərəfindən 2009[2], 2017[3] və 2018[4]-ci illəri əhatə edən 15 milyona yaxın ev təsərrüfatı, əhali qrupu üzrə elektrik enerjisi istehlak edən abonentlər, yaşayış yeri üzrə qeydiyyatda olan vətəndaşlar barədə məlumat bazası formalaşıb.

Qeyd etmək lazımdır ki, miqrasiya prosesinin, xüsusilə daxili miqrasiyanın tədqiq edilməsinə dair ümumi qəbul edilmiş vahid metodoloji üsul yoxdur. Burada müxtəlif metodlardan istifadə edilir. Beynəlxalq təcrübədə metodologiyanın hazırlanmasında insanların hərəkətliliyi, ev təsərrüfatları, kommunal xidmətlərə dair göstəricilər (qaz, su, elektrik enerjisi istehlak edən abonentlər və s.), nəqliyyat vasitələrində istifadə olunan talonlar və s.-dən istifadə olunur. Böyük Britaniyanın Milli Statistika İdarəsi daxili miqrasiyanın təhlilində Ali Təhsilə dair Statistika Agentliyinin (Higher Education Statistics Agency) və Milli Səhiyyə Xidmətinin Mərkəzi Qeydiyyatının (National Health Service Central Register) göstəricilərindən istifadə edir. İnsanlar tibbi sığortaya görə hər il yaşadıqları yerdə qeydiyyatdan keçdiklərinə görə bu mərkəzlərdə davamlı olaraq böyük məlumat bazası toplanır[5].

Ümumiyyətlə, miqrasiya prosesləri mürəkkəb olmaqla, növlərinə görə bir-birindən fərqlənir. Bu fərqlərə uyğun statistik bazanı toplamaq və təhlil etmək üçün vahid metodlardan istifadə olunması çətindir. Bu baxımdan hər bir ölkə və ya təşkilat - istər lokal olsun, istərsə də regional - miqrasiya motivlərini müəyyənləşdirdikdən sonra ona uyğun metodologiyanı hazırlayır. Azərbaycanda daxili miqrasiyanın dərin təhlili yönündə əhatəli tədqiqatlar olmadığı üçün istifadə edilə biləcək mənbələr, yaxud məlumat bazası ilə bağlı çətinliklər mövcuddur. Tədqiqat zamanı qarşıya çıxan əsas problemlər - insanların doğum yeri, yaşadığı yer, mülkiyyətçi kimi daşınmaz əmlakı, faktiki yaşadığı ünvanlar, köç etdiyi müddət barədə məlumatların tam və səhih olmaması və s. məsələlər təhlilin aparılmasında müəyyən çətinliklər yaradır. Bu səbəbdən miqrasiya səviyyəsinə dair bəzi göstəricilərdə xəta əmsalının olması mümkündür. Lakin xəta əmsalının 3%-i aşmaması üçün çoxşaxəli alətlərdən istifadə olunub, daha çox daimi və müvəqqəti miqrasiya üzərindən hesablama aparılıb. Bununla yanaşı, miqrasiyanın mövcud olan digər növlərinin xarakteristikası da hər bir bölgə üzrə müəyyənləşdirilib.

## Verilənlər bazasının toplanılması[6] və müqayisəsi

Tədqiqatın ilkin mərhələsində statistik bazanın toplanılması üçün Sosial Tədqiqatlar Mərkəzinin rəhbərliyi tərəfindən DSK-ya və 77 rayonun icra hakimiyyətinə mövcud ev təsərrüfatlarının sayı barədə sorğu göndərilib (Naxçıvan Muxtar Respublikası istisna olmaqla). Sorğuya cavab olaraq 2009-cu və 2018-ci illər üzrə 58 şəhər, 60 rayon, 144 qəsəbə və 2342 kənd yaşayış məntəqəsi üzrə 1,8 milyondan çox ev təsərrüfatına dair məlumat əldə olunub. Daha sonra əldə olunan verilənlərlə (data) "Azərişıq" ASC-nin 1,9 milyondan çox elektrik enerjisi istehlak edən abonentləri üzrə hər bir kənd, qəsəbə və şəhərin müqayisəsi aparılıb.

Müqayisə zamanı M=p-(a*h)[7] düsturundan istifadə edilərək alternativ miqrasiya saldosuna dair ilkin məlumat əldə edilib.

**M - miqrasiya saldosu**
**p - əhalinin statistik sayı**
**a - əhali qrupu üzrə işıq abonentləri**
**h - hər bir rayon/şəhər üzrə təsərrüfat ölçüsü.**

**Verilənlər bazasının müqayisəsi.** Əldə olunan ilkin statistik məlumat hər bir şəhər, qəsəbə və kəndin ərazisində yerləşən məktəblərin 1995-2018-ci illər üzrə məzunlarının, həmçinin 2012-2018-ci illərdəki şagirdlərinin sayının dinamikası və DİN-in əhalinin yaşayış yeri üzrə qeydiyyat məlumatları ilə müqayisə olunub.

❍ Qeyd edək ki, Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan əhali barəsində statistik məlumatların təqdim edilməsi üçün Sosial Tədqiqatlar Mərkəzinin DİN-ə 09.08.2019-cu il tarixdə ünvanladığı məktub əsasında 86 rayon

*[2]Sosial Tədqiqatlar Mərkəzinin müraciəti əsasında Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilən 2009-cu il üzrə ev təsərrüfatlarının sayı 2009-cu ildə həyata keçirilən Ümumazərbaycan əhalisinin siyahıyaalınması zamanı əldə edilən məlumatdır.*

*[3]"Azərişıq"ASC-nin əhali qrupu üzrə elektrik enerjisi istehlak edən abonentlərinin sayı istehlak gücləri haqqında data bazadan əldə olunub. www.azerishiq.az*

*[4]2018-ci il üzrə ev təsərrüfatları barəsində məlumat Sosial Tədqiqatlar Mərkəzinin rəhbərliyi tərəfindən 77 rayonun icra hakimiyyətinə göndərilən sorğu nəticəsində toplanılıb.*

*[5]Office for Notional Statistics file:///C:/Users/ASUS/Downloads/internalmigrationmethodology2016.pdf*

*[6]**Qeyd:** Verilənlər bazası - fayl, video, foto və s. formada toplanılan informasiya yığımıdır. Buna data baza da deyilir.*

*[7]**Qeyd:** M=p-(a*h) düsturu tədqiqat qrupu tərəfindən alternativ miqrasiya saldosunu hesablamaq üçün müəyyən edilib.*

[8]Bryman A. Social Research Methods. Oxford, Oxford University Press, 2012; Silverman D. Doing Qualitative Research: A Practical Handbook. UK, SAGE, 2013

və şəhərdə yaşayış yeri üzrə qeydiyyatda olan ölkə vətəndaşları barədə inzibati ərazi vahidləri üzrə statistik məlumat Nazirlik tərəfindən göndərilib.

❍ Şagirdlər haqqında məlumatlar isə www.mekteb.edu.az portalından və DSK-nın ümumtəhsil orta məktəblərinə dair məcmuələrindən, rayonlar üzrə 1-4-cü sinif şagirdlərinin qeydiyyat əmsalından, eyni zamanda DİM-in qəbul və buraxılış imtahanlarının 2006-2018-ci illər üzrə elmi-statistik təhlilinə dair nəşrlərindən əldə edilib.

❍ 2000-2018-ci illər üzrə ölkənin iqtisadi və inzibati rayonları, eləcə də şəhər yaşayış məntəqələri üzrə əhalinin sayı ilə bağlı rəsmi statistik məlumatlar DSK-nın “Azərbaycanın demoqrafik göstəriciləri” adlı statistik məcmuəsindən əldə edilib.

Bununla hər bir region üzrə miqrasiyanın motivləri dəqiqləşdirilib. Məsələn, əgər hansısa kənd və qəsəbədə ev təsərrüfatlarının sayı ilə elektrik enerjisi istehlak edən abonentlərin sayı arasında kəskin fərq müşahidə edilibsə, o zaman həmin ərazinin ümumtəhsil müəssisələrində IX sinif şagirdlərinin 2006-2018-ci illər üzrə sayının dinamikasına baxılıb, illik artım və azalma faizi hesablanıb. Müvəqqəti miqrasiyanın müəyyənləşməsində isə ev təsərrüfatları və işıq abonentlərinin fərqi ilə yanaşı, müsahibə, müşahidə və sorğu metodundan istifadə edilib.

## Sorğu və müşahidə metodu

Tədqiqatın birinci mərhələsində verilənlər bazasından əldə olunan göstəricilərin dərinləşdirilmiş təhlilini həyata keçirmək üçün ikinci mərhələdə **keyfiyyət sorğusu** aparılıb. Keyfiyyət sorğusunda istifadə edilən anketdə qapalı və açıq olmaqla 9 demoqrafik, 25 əsas sualdan istifadə edilib. *(Sorğu anketinin forması Əlavə 1-də verilib).* Tədqiqat çərçivəsində vətəndaşlardan açıq suallardan ibarət dərinləşdirilmiş müsahibələr vasitəsilə məlumat toplama metodundan istifadə edilib. Bu məlumat toplama metodu respondentlərə öz fikir, hiss və düşüncələrini sərbəst şəkildə ifadə etmək imkanı verib. Hər bir müsahibənin müddəti təxminən 20 dəqiqə çəkib, danışıq diktofon vasitəsilə qeydə alınıb (bu barədə hər bir respondentə öncədən məlumat verilib, onların razılığı alınıb). Respondentlərin anonimliyi gözlənilib və onların adından verilən sitatlarda yalnız bəzi demoqrafik göstəriciləri - **doğulduğu yer, cinsi, ailə vəziyyəti, yaşı və təhsili** qeyd edilib. *(Bax: Demoqrafik məlumatlar haqqında diaqram 8).*

Sorğuların keçiriləcəyi ərazilər seçilərkən onların iqtisadi inkişaf səviyyəsi əsas meyar kimi qəbul edilib. Seçilən hər bir şəhər/rayon aid olduğu iqtisadi rayonun əhalinin sıx məskunlaşdığı əraziləri olub. Respondentlərin seçilməsində təsadüfi olmayan “seçmə qartopu” metodundan istifadə edilib. Bakı, Abşeron, Qəbələ, Gəncə, Quba, Mingəçevir və Lənkəranda yaşayan daxili miqrantlar ilə əlaqə saxlanılıb. Həmin miqrantların vasitəsilə adıçəkilən ərazilərə köç edən digər regionların insanları sorğuya cəlb edilib. Yekunda 66 respondent sorğuda iştirak edib. Nəzərə çatdıraq ki, keyfiyyət tədqiqatlarında, adətən, minimum 30 nəfərin sorğuda iştirakı normal qəbul edilir[8]. Respondentlər arasında gender, təhsil və məşğuliyyət balansı qorunub.

Müsahibələr bitdikdən sonra diktofonla yazılan səsyazmaların transkriptləri təhlil edilib. Hər bir sual üçün ən geniş yayılan fikirlər və cavablar kodlaşdırılıb və qruplaşdırılıb.

**Müşahidə metodundan** seçilmiş rayon üzrə keyfiyyət müsahibələrində və fərdi müşahidələrdə istifadə olunub. Reportajlar Zaqatala, Cəlilabad, Gəncə və Göygöldə aparılıb. Həmin rayon və şəhərlərdən köçmüş və ya ailə başçısı işləmək üçün başqa şəhərə, yaxud ölkəyə getmiş ailələr barədə məlumatlar toplanılıb, onlarla söhbətlər aparılıb.

**Ekspertlərlə müsahibələr** təşkil edilib. Bu mərhələdə sosioloq, iqtisadçı, psixoloq, demoqraf, memar, həmçinin dövlət qurumlarının və AMEA-nın Coğrafiya İnstitutunun sözügedən sahə üzrə 11 mütəxəssis-ekspertindən ibarət fokus qrupu ilə ictimai rəy sorğusunun dərinləşdirilmiş təhlili aparılıb, onların qiymətləndirilməsi metodlarından istifadə olunub. Eyni zamanda, daxili miqrasiyanın səbəbləri, yaratdığı sosial, siyasi, ictimai, nəqliyyat, ekoloji problemlərə dair **Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi (AR İN) və Daxili İşlər Nazirliyinin** ekspertlərinin rəyi alınıb. Ekspertlərin fikirləri əsasında miqrasiyanın yaratdığı təsirlər təhlil edilib, bu istiqamətdə verilən təkliflər qeydə alınıb.

Tədqiqat zaman **qarşıya çıxan əsas çətinliklər** statistik bazanın toplanılması ilə bağlı olub. Naxçıvan Muxtar Respublikasına dair məlumatlar az olduğuna, xüsusilə ev təsərrüfatları və abonentlərə

dair məlumatlar yetərli olmadığına görə tədqiqata daxıl edilməyib. Həmçinin, 10 iqtisadi rayonun ikisinin işğal altında olması ilə əlaqədar ümumilikdə 7 iqtisadi rayon üzrə əhalinin miqrasiyasına dair təhlillər aparılıb, sorğular təşkil edilib. "Azərişıq" ASC-nin istehlak güclərinə dair data bazasının 2017-ci ilə aid olması və yenilənməməsi, əhalinin hərəkət etdiyi (bura ictimai və minik nəqliyyat talonları aid edilə bilər), köçdüyü ərazi üzrə operativ qeydiyyat aparan hər hansı verilənlər bazasının olmaması miqrasiya səviyyəsini müəyyənləşdirməkdə çətinliklər yaradıb. Eyni zamanda, icra hakimiyyətləri və elektrik enerjisi istehlak edən abonentlər tərəfindən göstərilən bir sıra kənd yaşayış məntəqələrinin, qəsəbələrin ərazi sərhədləri bir-birinə uyğun gəlmir. Belə uyğunsuzluqlar daha çox Abşeron iqtisadi rayonu və Bakı şəhərinin yaşayış məntəqələrində özünü göstərir.

# I HİSSƏ

## DAXİLİ MİQRASİYA VƏ URBANİZASİYA

### I.1. DAXİLİ MİQRASİYA PROSESLƏRİ: XARAKTERİ VƏ MOTİVLƏRİ

**Daxili miqrasiya** prosesi dedikdə, insanların eyni ölkənin hüdudları daxilində bir ərazidən digər əraziyə köçməsi başa düşülür. Bu miqrasiyanın kənd (kənd-şəhər), şəhər (şəhər-kənd), şəhərlərarası (şəhər-şəhər) və kəndlərarası (kənd-kənd) istiqamətlərini fərqləndirirlər. Miqrasiya prosesi sosial-iqtisadi həyatın əsas xüsusiyyətlərini özündə əks etdirir. Dünyada elmi-texniki tərəqqi, təsərrüfat sisteminin inkişafı miqrasiya prosesinin xarakterinin dəyişməsinə təsir edən amillərin artmasına gətirib çıxarır. Məhz bu baxımdan müasir qloballaşan dünyada sosial-iqtisadi proseslərin əsas dinamikasını müəyyən edən amillər kimi əhalinin **"miqrasiyası və mobilliyi"** hər zaman aktual məsələ olmuşdur. K.Marks işçilərin hərəkətliliyini, yerdəyişmə kimi prosesləri əhali mobilliyi kimi qeyd edir. Ümumiyyətlə, əhalinin mobilliyi çox geniş və əhatəli xüsusiyyətlərə malik olub, əhalinin hərəkətliliyi, köçürülməsi və yerləşdirilməsi kimi prosesləri əhatə edir.

Ötən əsrin 70-ci illərində "əhali mobilliyi" termini "yerdəyişmə" sözünün sinonimi kimi qəbul olunurdu. Əhalinin miqrasiyası kadrların yerdəyişməsinin obyektiv prosesidir. O, istehsal qüvvələrinin və münasibətlərinin inkişafı ilə ayrılmaz surətdə bağlıdır. Əhalinin miqrasiyası ölkə ərazisində əmək ehtiyatlarının optimal şəkildə yerbəyer edilməsinə, regionların iqtisadi inkişaf səviyyələrinin bərabərləşməsinə, şəhər və kənd arasındakı sosial-iqtisadi və mədəni-məişət fərqlərinin aradan qaldırılmasına və s. gətirib çıxarır. Onu da qeyd etmək lazımdır ki, yüksək ixtisaslı, uğurlu karyera qurmaq istəyən miqrantlar mədəni mərkəzlərin yaxınlığına, öz maddi rifahını artırmağı arzulayanlar isə işçi qüvvəsini daha çox qiymətləndirən və pul qazanmaq imkanı olan regionlara gedirlər.

**Daxili miqrasiyanı dövrilik parametrlərinə görə təsnifləşdirdikdə aşağıdakı kimi qruplaşdırmaq olar:**

- Daimi miqrasiya (geri dönməyi nəzərdə tutulmayan);
- Müvəqqəti miqrasiya (qayıdışı nəzərdə tutan, mövsümi, köçərilik və ziyarət məqsədli);
- Uzunmüddətli miqrasiya (6 aydan çox müddətdə davam edən);
- Mütərəddid (daimi gediş-qayıdış olan) miqrasiya. Buna "rəqqasvari" miqrasiya da deyilir.

Daxili miqrasiya başvermə səbəblərinə görə də fərqlidir. Beynəlxalq tendensiyada miqrasiyanın səbəbləri sosial-iqtisadi, siyasi və hərbi olmaqla qruplaşdırılır. **Sosial-iqtisadi** səbəblərin əsasında iş, təhsil, səhiyyə və məişət məsələləri durur. **Siyasi** səbəblərdən baş verən miqrasiya prosesinə ideoloji rejimdən qaçma və uzaqlaşma, irqi, dini və s. aiddir. **Hərbi** səbəblərdən baş verən miqrasiya proseslərinə evakuasiya, deportasiya və s. aid edilir. Bundan əlavə, daxili miqrasiyada özünü göstərən digər bir səbəb təbii şərait, coğrafiya və təbii landşaft amilidir. Yəni aran yerlərində kommunikasiyaya əlçatanlıq dağlıq ərazilərlə müqayisədə daha çevik və rahatdır. Ona görə də sərt iqlim və çətin coğrafi relyefdə yaşayan insanlar infrastrukturu əlçatan olan ərazilərə köç edir.

### I.2. MİQRASİYA ƏSASLI URBANİZASİYA VƏ AQLOMERASİYA

Miqrasiya axınlarının tipoloji təsnifatında "urbanizasiya" anlayışı da iştirak edir. Urbanizasiya fransiz dilində "urbanisation", latın dilində isə "urbs" (şəhər) sözlərindən olub, cəmiyyət həyatında şəhərlərin rolunun artmasını, əhalinin həyat tərzi, mədə-

[9]UN, Transforming our world: the 2030 Agenda for Sustainable Development https://sustainabledevelopment.un.org/post2015/transformingourworld

[10]UN, New Urban Agenda 2017 http://habitat3.org/wp-content/uploads/NUA-English.pdf

niyyəti və demoqrafik tərkib hissəsinə çox böyük təsir göstərməsini bildirən prosesdir. Başqa sözlə, urbanizasiya cəmiyyətin inkişafında şəhərlərin rolunun artması, məskunlaşma şəbəkəsində funksiyaların mürəkkəbləşməsi, fəaliyyət növlərinin inteqrasiyası, əhalinin şəhərlərdə cəmləşməsi və məhsuldar qüvvələrin sənaye əsasında təmərküzləşməsi prosesidir.

Urbanizasiya prosesi kənd yerlərinin silinməsi mənasına gəlməməlidir. Əksinə, proqramlı şəkildə həyata keçərsə, kənd təsərrüfatı sektorunun modernləşməsi və məhsuldarlığın artırılması sürətlənər, rəqabət qabiliyyətinin yüksəlməsinə gətirib çıxara bilər. Kənd təsərrüfatı sahəsində qənaət edilən əmək resursları isə urbanizasiya prosesi çərçivəsində şəhərə transfer edir. Bu gün dünyada sürətlə genişlənən "rəqəmsal nəsil" Azərbaycanda da formalaşır və əmək bazarında keyfiyyət və kəmiyyət etibarilə yeni tendensiya yaranır.

Urbanizasiyalaşmış region mühüm yaşayış arealı olub, sosial məkan bütövlüyü yaradaraq, nüvə şəhər kimi aqlomerasiya əhalisinin sosial və mədəni xidmətlərə olan ehtiyacın böyük hissəsini ödəyir. Bir çox insan üçün şəhərlər yeni imkanlar dünyasını təmsil edir, iş yerləri, texnologiyalar şəhərlərdə cəmləşib, fəal iqtisadi inkişaf orada müşahidə olunur. Ona dörə də urbanizasiya səviyyəsi sürətlə artır.

Dünya Bankının məlumatına görə, 1900-cü ildə şəhər əhalisi dünya əhalisinin 5%-ni təşkil edirdisə, 2018-ci ildə bu rəqəm 55%-ə çatmışdır. Bu gün bəşəriyyətin yarısı – 4,2 milyard insan şəhərlərdə yaşayır. BMT-nin Əhali Fondunun proqnozuna görə, 2030-cu ilə qədər şəhərlərdə yaşayan dünya əhalisinin sayı təxminən 60%-ə çatacaq[9]. Qarşıdakı onilliklərdə qlobal urbanizasiyanın 95%-i inkişaf etməkdə olan ölkələrin payına düşəcək. Şəhər sakinlərinin sayının sürətlə artması ilə əlaqədar xüsusən sənayeləşmə sahəsində yeni imkanlar yaranır, lakin bununla bərabər, şəhərlərdə əhalinin həddən artıq sıxlaşması, qeyri-bərabərliyin artması və ətraf mühitin deqradasiyaya məruz qalması labüd olur.

Şəhərlərin ümumi sahəsi Yer kürəsinin quru ərazisinin yalnız 3%-ni təşkil etsə də, enerji istehlakının 60-80%-i və karbon emissiyasının 75%-i onların payına düşür. Sürətli urbanizasiya şirin su ehtiyatlarını, kanalizasiya sistemini, nəqliyyat infrastrukturunu, yaşayış mühitini, sosal həyatı, mənzillərə əlçatanlığı, kriminogen vəziyyəti və ictimai səhiyyəni təzyiq altında saxlayır. Başqa sözlə desək, miqrasiyanın sürətlə kəndlərdən, kiçik yaşayış məntəqələrindən iri şəhərlərə doğru axını şəhərləri böhran mərkəzinə çevirir. Ona görə də BMT Baş Assambleyasının sədri Mariya Fernanda Espinosa 2019-cu ildə bu qurumun Nyu-Yorkdakı qərargahında keçirilmiş iclasında müxtəlif qitələrdə yerləşən bir sıra şəhərlərin merlərinə müraciət edərək bildirib ki, sürətli urbanizasiya şəhərlərin idarə olunmasına yeni yanaşma tələb edir.

BMT Baş Assambleyasının 2016-cı ilin oktyabr ayında Kito şəhərində qəbul edilmiş "Şəhərlərin İnkişafı Proqramı"[10] da məhz yaranan böhranın aradan qaldırılmasına hesablanmış bir sənəddir. Sənəddə şəhərlərin ekoloji tarazlığı və inkişafı strategiyası öz əksini tapıb.

## I.3. AZƏRBAYCAN ƏHALİSİNİN MİQRASİYASI VƏ ONUN DEMOQRAFİK MƏNZƏRƏSİ

DSK-nın məlumatına əsasən, Azərbaycan Respublikası əhalisinin sayı son 100 ildə (1919-2019) 5,2 dəfə artaraq 1 milyon 952 miyon nəfərdən 2019-ci ildə 10 milyon 67 min nəfər olub. Ölkə əhalisinin artım tempi sovet dövrünə nisbətən aşağı düşüb. Əgər müstəqllik illərinin ilk dövründə əhalinin illik orta artım tempi 1,5 faiz təşkil edirdisə, 2018-ci ildə bu rəqəm 0,8 faizə düşüb. Kənd yerlərində əhalinin artım səviyyəsi şəhər yerinə nisbətən daha yüksəkdir. Hazırkı dövrdə bütün sahələrdə olduğu kimi, əhalinin demoqrafik davranışlarında da qloballaşma prosesi getməkdədir. Bu, dünyanın demək olar ki, bütün bölgələrində davam edir.

Buna baxmayaraq qeyd etmək lazımdır ki, əhalinin sayının artım tempinə görə Azərbaycan dünya ölkələri arasında hələ də irəlidə gedən dövlətlərdən biridir. Xüsusilə qeyd edək ki, son 120 il ərzində ayrı-ayrı dövrlərdə Azərbaycanın başına gələn fəlakətlər nəticəsində verdiyi böyük əhali itkilərinə baxmayaraq, burada əhalinin sayı yetərincə yüksək templə artaraq 1897-ci ildəki 1 milyon 807 min nəfərdən 2019-cu ildə 10 milyon nəfərə çatmışdır. Başqa sözlə, bu dövrdə Azərbaycan əhalisinin sayı 5,5 dəfə artmışdır. Müqayisə üçün qeyd edək ki, eyni dövr ərzində Rusiyanın əhalisi 2,1 dəfə, Ukraynanın əhalisi 1,6 dəfə, Gürcüstanın əhalisi 2,6 dəfə, Ermənistanın əhalisi 3,8 dəfə, bütövlükdə

keçmiş SSRİ ərazisində yaşayan əhali 2,3 dəfə, dünya əhalisi isə 4 dəfə artmışdır[11]. Lakin Azərbaycanda demoqrafik artıma təkan verən əsas amillərdən biri başqa ölkələrdən gələn miqrantlar olub. Yalnız XX əsrin 60-cı illərindən etibarən əhalinin artımı təbii artım hesabına baş verib.

1897-ci ildən sonrakı 120 ili əhatə edən dövrdə Azərbaycan Respublikasının əhalisinin sayı bu dövrdə gedən tarixi, sosial-iqtisadi və siyasi proseslərin gedişatından və xarakterindən asılı olaraq bəzi hallarda kəskin şəkildə azalıb, bəzi dövrlərdə sürətlə artıb, bir müddət də stabil artım dinamikasına malik olub. **Təkcə XX əsrdə Azərbaycan beş dəfə kəskin demoqrafik çətinliklərlə qarşılaşıb:**

*1) 1905-1907-ci illərdə çar Rusiyasının hakim dairələrindən hərtərəfli yardım alan erməni quldur dəstələri İrəvanda, Zəngəzurda, Göyçədə, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda və başqa ərazilərdə dinc əhaliyə amansızcasına divan tutub, şəhər və kəndlər yandırılıb, insanlar qəddarlıqla öldürülüb.*

*2) 1914-1920-ci illərdə I Dünya müharibəsi, xarici müdaxilə, vətəndaş müharibəsi, ermənilər tərəfindən azərbaycanlıların soyqırımı və s. hadisələr nəticəsində Azərbaycan əhalisinin sayı 387 min nəfər və ya 16,6% azalaraq 2 milyon 339 min nəfərdən 1 milyon 952 min nəfərə düşüb.*

*3) 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi zamanı Azərbaycan əhalisinin sayı 597,3 min nəfər və ya 17,9% azalıb. Bununla əlaqədar Azərbaycan əhalisinin sayı özünün müharibədən əvvəlki səviyyəsinə yalnız 10 il sonra, yəni 1955-ci ildə çatıb.*

*4) 1948-1953-cü illərdə Ermənistan ərazisində 150 min nəfərdən çox azərbaycanlı öz əzəli torpaqlarından deportasiya olunub.*

*5) 1988-ci ildən başlayaraq erməni təcavüzü nəticəsində torpaqlarımızın 20%-i işğal edilib, bir milyon nəfərədək soydaşımız qaçqın və məcburi köçkün düşüb, o cümlədən 250 min nəfərdən artıq azərbaycanlı Ermənistandan qovulub.*

Beləliklə, son iki əsr ərzində 1,5 milyon nəfərdən çox azərbaycanlı öz tarixi torpaqlarından məcburi surətdə deportasiya edilib. Zorakı deportasiyalar, müharibələr nəticəsində baş verən yerdəyişmələr ölkənin demoqrafik vəziyyəti ilə yanaşı, immiqrasiya, emirqasiya və daxili miqrasiya proseslərinə ciddi təsir göstərib.

Keçən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq respublikamızda sosial-iqtisadi və demoqrafik baxımdan əhalinin miqrasiya prosesinin müxtəlif istiqamətləri nəzərə çarpmağa başlayıb. Bu istiqamətlərdən iki hal daha səciyyəvi xarakter daşıyıb:

- ❑ Müstəqilliyimizin ilk illərində baş verən müharibə nəticəsində yerli əhalinin mərkəzi və regional şəhərlərə yerləşdirilməsi;
- ❑ Regionlarda ağır sosial-iqtisadi vəziyyətlə, infrastrukturun bərbad vəziyyətə düşməsi ilə əlaqədar olaraq vətəndaşların kənd yerlərindən mərkəzi şəhərlərə, o cümlədən qonşu ölkələrə getməsi; şəhər əhalisinin artması nəticəsində yeni-yeni yaşayış məskənlərinin formalaşması və s.

Yuxarıda qeyd edilən xronoloji bölgü üzrə Azərbaycandakı miqrasiya prosesi iki mərhələdə - 1991-1994 və 1995-2018-ci illər üzrə tədqiq edilib. Birinci dövr məcburi/zorakı miqrasiya olduğundan keyfiyyət sorğusu ikinci dövrü (1995-2018) əhatə edir. Birinci dövr üçün miqrasiyanın sosial, siyasi və ictimai səbəblərini aydınlaşdırmaq üçün resurslar/mənbələr məhdud olduğundan sorğumuzda məcburi köçkünlər və qaçqınlar iştirak etməyib.

## I.4. MƏCBURİ XARİCİ MİQRASİYANIN DAXİLİ MİQRASİYA İLƏ KƏSİŞMƏSİ

Azərbaycanda regional xarici miqrasiyanın bir çox səbəbləri vardır. 1988-ci ildə Ermənistanın etnik təmizləmə siyasətinin növbəti və sonuncu qurbanları olan 350 min azərbaycanlı tarixi torpaqlarımızdan çıxarıldı. Ərazimizin işğalı nəticəsində doğma yurd-yuvalarından didərgin düşən insanların əksəriyyəti müvəqqəti yaşayış yeri kimi Abşeron yarımadasına, Bakıya, Sumqayıta və digər böyük şəhərlərə üz tutdu. Bu insanların təxminən 92 mini Bakıda, 18 mini Sumqayıtda, 4 mini isə Abşeronda olmaqla ümumilikdə 115 mini bu bölgədə yerləşdi.

Beləliklə, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) işğalı nəticəsində formalaşan məcburi köçkünlərlə birlikdə təqribən bir milyona yaxın insan öz vətənində köçkün vəziyyətinə düşdü.

Hal-hazırda Azərbaycanda zorakı daxili və xarici miqrasiyanın əsasını təşkil edən 1 milyon 200 minə yaxın qaçqın və məcburi köçkün vardır.

Bununla yanaşı, ötən əsrin 90-cı illə-

*[11]Muradov Ş., Baxış Ç. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013*

**Mənbə:**
*Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (2012-ci il yanvar)*

**Qrafik 1.**




rinin əvvəllərində Gürcüstanda azərbaycanlılara qarşı yönələn etnik münaqişə nəticəsində də ölkəmizə pənah gətirən xeyli sayda soydaşımız oldu. Ümumiyyətlə, 90-cı illərin əvvəllərində 70 minə yaxın gürcüstanlı Azərbaycana köç etdi. Onların müəyyən bir qismi vətəndaşlıq alsa da, bir qismi bu gün də Gürcüstan vətəndaşı olaraq ölkəmizdə yaşayır, böyük əksəriyyəti Azərbaycan vətəndaşları ilə ailə həyatı qurublar.

Digər bir miqrasiya dalğası işğal olunmuş torpaqlarda baş verir. Ermənistan Dağlıq Qarabağ və işğal olunmuş 7 rayonda məskunlaşmanı artırmaq üçün hər il dünyanın digər münaqişə ocaqlarında yaşayan erməni əsilli miqrantları (əsasən Suriyadan) həmin torpaqlarda yerləşdirir. Bu, beynəlxalq hüququn kobud şəkildə pozulması ilə yanaşı, Azərbaycan Respublikasının demoqrafik durumuna, etnik tərkibinin formalaşmasına süni şəkildə edilən müdaxilədir.

Qeyd edək ki, regiondakı münaqişələrlə əlaqədar yaranan sosial, iqtisadi və siyasi problemlər ölkənin bütün vətəndaşlarına təsir göstərib. Bu problemlərin kütləvi təzahürü isə özünü əhalinin bölgələrdən Bakıya və ətraf rayonlara axınında göstərdi. Hökumət regionlarla paytaxt arasındakı sosial-iqtisadi inkişaf balansını tənzimləmək, urbanizasiya prosesinin bir istiqamətdə getməsinin qarşısını almaq üçün bir sıra stimullaşdırıcı tədbirlər, regionların inkişafı ilə bağlı milli proqramlar həyata keçirdi.

Həmin stimullaşdırıcı tədbirlər sırasında 2004-cü ildən icra olunan "Regionların sosial-iqtisadi inkişafı proqramı"nı, təhsil qurumlarında (əsasən məktəblərdə) çalışan işçilərin regionlarda işləmələrini stimullaşdırmaq üçün daşınmaz əmlakla, yüksək maaşla və digər sosial təminatlarla təmin olunmasını, insan resurslarının qorunmasını və idarə olunmasını qeyd etmək olar.

## I.5. AZƏRBAYCANDA URBANİZASİYA

Azərbaycanda urbanizasiya prosesi 1860-cı illərdə "neft bumu" dövrünə təsadüf edir. Məhz o dövrdən başlayaraq "şəhərləşmə" prosesi böyük vüsət almış, şəhərlərin sayı və əhalisi artmışdır. Bu prosesin nəticəsi olaraq Azərbaycanda yeni tipli şəhər məskənləri - qəsəbələr əmələ gəlməyə başlamışdır. Bu qəbildən olan yaşayış məntəqələri öz tarixi inkişaf mərhələlərində müxtəlif sənaye müəssisələri yaxınlığında, kurort və turizm mərkəzləri, dəmir yolu stansiyalarının ətrafında yaranmışdır. Nəhayət, inkişaf dövrlərini keçən bu yaşayış məntəqələri növbəti mərhələyə qədəm qoyublar. Belə ki, əhalisi sürətlə artan, təsərrüfat sahələrinin böyük potensialı olan qəsəbələr şəhər statusu alır, öz daşıdıqları funksiyaları genişləndirən yaşayış məntəqələri qəsəbəyə çevrilir, perspektivi olmayan yaşayış məntəqələri isə tənəzzülə məruz qalaraq ləğv olunurlar.

Ölkənin ərazi quruluşu inzibati ərazi dairəsinə görə rayon və şəhərə, inzibati ərazi vahidinə görə isə kənd, şəhər və qəsəbəyə bölünür. Qanuna görə, o ərazi dairəsi şəhər sayılır ki, əhalisi 15 min nəfərdən çox olsun[12]. Eyni zamanda, ayrı-ayrı hallarda əhalisinin sayı 15 min nəfərdən az, lakin 12 min nəfərdən çox olan, inkişaf etmiş istehsalat və sosial infrastruktura, ərazisində ümumdövlət əhəmiyyətli müəssisələr və ya xüsusi əhəmiyyətli tarixi və mədəni abidələr yerləşən, habelə gələcək inkişaf və əhalisinin sayının artması perspektivinə malik olan böyük inzibati, iqtisadi və mədəni mərkəz-

lər şəhərlər kateqoriyasına aid edilə bilər.

Azərbaycanda hazırda mövcud olan inzibati ərazi quruluşları Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 30 avqust 1930-cu il tarixli qərarı əsasında yaranıb. İlk bölgüdən sonra ərazilərində müəyyən dəyişikliklər edilib, Mingəçevir və Sumqayıt kimi iri sənaye şəhərləri salınıb. Bununla şəhər əhalisinin sayı kənd əhalisinə nisbətən dəyişməyə başlayıb. Çar Rusiyası dövründə və 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətində (AXC) Azərbaycan əhalisinin böyük hissəsi kənd yerlərində yaşayırdı. O zaman şəhər statusunda olan Bakı, Şamaxı və Yelizavetpol (Gəncə) quberniyaları var idi. Şəhər əhalisi müvafiq olaraq 16-20% arasında idi.

Şəhər əhalisinin sayına görə Bakı, Gəncə və Sumqayıt öndə gəlir. Qeyd edək ki, XIX əsrin 50-ci illərinə qədər Bakı əhalisinin sayına görə Şamaxı, Şəki, Gəncə və Şuşadan sonra 5-ci yerdə olub. 50-ci illərdə "neft bumu" başlayandan sonra qısa zamanda - 1859-cu ildə Bakı artıq əhalisinin sayına görə ikinci pilləyə yüksəlir. Bu artımın əsas özəyini miqrasiya təşkil edirdi. Belə ki, Bakıya kütləvi köçün kökündə bir tərəfdən Şamaxıda baş verən zəlzələ, digər tərəfdən İrandan azərbaycanlıların (o illərdə "həmşəri" adlanırdı), çar Rusiyasından qeyri-müsəlman xalqların neft buruqlarında işləmək üçün gəlmələri dururdu. Həmin dövrdə Bakının etnik tərkibi miqrantlar hesabına sürətlə dəyişmişdir.

1833-1843-cü illər ərzində intensiv olaraq Rusiyanın mərkəzi quberniyalarından və Ukraynadan "duxobor", "molokan" və s. adlanan rusların konfessional qrupları Azərbaycana köçürüldü.[13] Bu dövrdə Azərbaycanda 20-yə yaxın rus kəndi salındı. "Neft bumun"dan sonra qeyri-müsəlman xalqların köç prosesi bir qədər də sürətləndi. 1908-1910-cu illər ərzində Rusiyadan Azərbaycana 3 min kəndli ailəsi köçürüldü. Bunların nəticəsində Azərbaycanın miqrasiya saldosu 1,6 dəfədən çox artaraq 1886-1897-ci illərdəki 133,4 min nəfərdən 1897-1913-cü illərdə 219,8 min nəfərə çatdı. Köçənlərin əksər hissəsi Bakıya gəlirdi.

Qeyd edək ki, Bakıya miqrasiya edənlərin böyük əksəriyyətini kişilər təşkil edirdi. Belə ki, ailəsi ilə birlikdə iş axtarmaq çətin olduğundan miqrantların çoxu öz ailələrini evdə qoyub gəlirdilər. Tarixi mənbələrə əsasən, Bakının neft sənayesi müəssisələrində işləyən rus mütəxəssisləri, fəhlə və qulluqçuları əksər hallarda öz ailələri ilə birlikdə, ermənilərin çoxu subay və təklikdə, müsəlmanların isə hamısı öz ailələrini evdə qoyub gəlir və təklikdə yaşayırdılar. 1897-ci ilin əhalinin siyahıya alınmasına dair məlumatlarına görə, Bakı neftçıxarma müəssisələrində çalışan fəhlələrin 82,5%-i subay və yaxud öz ailələrindən kənarda yaşayanlardan ibarət idi. Miqrantların 75%-ni kişilər təşkil etməsi bütövlükdə əhalinin doğum əmsalının aşağı düşməsinə, ölüm əmsalının yüksəlməsinə və uyğun olaraq təbii artım tempinin xeyli aşağı düşməsinə təsir göstərmişdir. Orta illik artım 1,53% təşkil etmişdir ki, bu da həmin dövrdə Rusiya imperiyası üzrə analoji göstəricidən azca aşağı idi. Ancaq Rusiyada bu artım demək olar ki, yalnız təbii artımın payına düşürdüsə, Azərbaycanda əhali artımının 45%-ə yaxını miqrasiyanın hesabına baş verir[14]. Burada əhalinin miqrasiya hesabına belə yüksək templə artımı o dövrdə çar Rusiyasının yeritdiyi köçürmə siyasəti və Azərbaycanın neft mədənlərinin intensiv surətdə istismar edilməsi ilə bağlı idi.

Bakının sürətlə böyüyüb çar Rusiyasında və sovet dövrünün ilk illərində 5 ən böyük şəhərlər sırasına düşməsi şəhərin inkişafı ilə bərabər özü ilə sosial problemləri də gətirdi. Şəhərin içməli su təminatı, kanalizasiya təchizatı, səhiyyə sistemində çətinliklər yaranır, tez-tez epidemiyalar yayılırdı. Yeni sosial infrastrukturun qurulması böyük sərmayələr tələb edirdi.




**Qrafik 2.**
*Kənd və şəhər yerlərində yaşayan əhalinin 1897-2019-cu illər üzrə dinamikası*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi*

[12]*"Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu*

[13]*Muradov Ş., Baxış Ç. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013*

[14]*Yenə orada*

1918-1922-ci illərdə Azərbaycan ərazisində baş verən münaqişələr, kütləvi qırğınlar Şamaxı və Şuşanın əhalisinin sayını minimuma endirdi. Bu dövrdə Azərbaycan əhalisinin sayı 20,8%-dən çox azaldı. Başqa sözlə, Azərbaycan bu kiçik 4 illik dövr ərzində əhalinin beşdə biri qədər itkiyə məruz qaldı. Əsas itkilərin məhz şəhər statusunda olan inzibati ərazilərdə baş verməsi şəhər əhalisinin sayının dinamikasına təsir göstərdi. Əvəzində şəhərin azalan yerli əhalisinin yerini sovet dövrünün sonrakı illərində yəhudi, erməni və slavyan əsilli millətlər tutdu.

Azərbaycanda şəhər əhalisinin sayının miqrantlar deyil, təbii artım hesabına artması yalnız 50-ci illərdən etibarən başlamışdır. Bu dövrdə Azərbaycanda köklü sosial-iqtisadi dəyişikliklər baş verir, əhali kütləvi şəkildə təhsilə və səhiyyə sisteminə cəlb edilir, neft sənayesi və onunla bağlı sahələr sıçrayışla inkişaf edirdi. Sumqayıt və Mingəçevir kimi yeni sənaye şəhərlərinin yaradılması, ali və orta ixtisas məktəblərinin açılması kəndlərdə yaşayan gənc nəslin şəhərlərə doğru axınına təkan verirdi.

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycana postsovet ölkələrindən, xüsusilə Ermənistan, Gürcüstan, Rusiya və Ukraynadan xeyli sayda miqrant gəldi, ölkənin demoqrafik tablosu dəyişdi. Müstəqillik ərəfəsində Azərbaycan yeni miqrasiya dönəminə qədəm qoydu. Xüsusilə, son illər əhalinin şəhər mərkəzlərinə yaxın ərazilərə axın etməsi Azərbaycan hökumətini diqqəti ucqarlardan kiçik və orta şəhərlərə cəlb etməklə coğrafi genişlənmə həyata keçirilməsi haqqında qanun layihələri hazırlamağa vadar etdi. Qanun layihələrinə görə, Qəbələ, Gəncə, Daşkəsən, Goranboy, Göygöl, Samux, Masallı, Abşeron və digər şəhər və rayonların sərhədlərində qismən genişlənmə aparıldı. Bir sıra kəndlər genişlənərək qəsəbə statusu aldı.

Yeri gəlmişkən, urbanizasiya ilə iqtisadi böyümə arasında sıx əlaqə var. Dünya miqyasında şəhər və qəsəbələr ümumi daxili məhsulun 80%-dən çoxunu təşkil edir. Dünyada şəhər yoxsulluğu artsa da, bu, bir çox insanın, o cümlədən kasıbların şəhər ərazilərinə köçmələri ilə əlaqədardır.

Cəmiyyətin dayanıqlığını təmin edən orta təbəqənin formalaşmasında da şəhərlərin rolu mühümdür. Məsələn, Azərbaycanda orta təbəqənin əsas hissəsi şəhərlərdə yaşayır. Aparılan tədqiqatın nəticələri sübüt edir ki, şəhərlər əhalinin təhsil səviyyəsinin artmasına daha çox təsir göstərir. Belə ki, ali təhsilli orta təbəqənin böyük bir qismi yerli şəhərlərdə formalaşır. Urbanizasiya Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və əhalinin sosial rifahının yaxşılaşdırılması, habelə onun dünyagörüşünün və həyat tərzinin qlobal çağırışlarla uzlaşdırılması məqsədlərinə xidmət etməlidir. Təəssüf ki, Azərbaycanda iqtisadi inkişafın yükünü öz üzərinə daha çox paytaxt Bakı götürür.

Dünya Bankının ölkələrin urbanizasiyasına dair hesabatından məlum olur ki, Azərbaycanda şəhərləşmə SSRİ-nin 40-50-ci illərdəki siyasətini əhatə edən dövrdən sonra çox da sürətlə inkişaf etməyib. Bunun da başlıca səbəbi müstəqllik dövründə Bakıdan başqa digər şəhərlərdə iqtisadi böyümənin zəif getməsi olub.

**Qrafik 3.**
*MDB ölkələrində urbanizasiya (%)*

**Mənbə:**
*Dünya Bankı*




| | 1960 | 1970 | 1980 | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 52.7 | 50.0 | 52.8 | 53.7 | 52.2 | 51.4 | 52.4 | 53.4 | 54.7 | 55.7 |
| Belarus | 32.4 | 44.0 | 56.5 | 66.0 | 67.9 | 70.0 | 72.4 | 74.4 | 77.2 | 78.6 |
| Gürcüstan | 43.1 | 48.0 | 52.5 | 55.0 | 53.8 | 52.6 | 53.6 | 55.5 | 57.4 | 58.6 |
| Qazaxıstan | 44.2 | 50.2 | 54.1 | 56.3 | 55.9 | 56.1 | 56.5 | 56.8 | 57.2 | 57.4 |
| Qırğızıstan | 34.2 | 37.5 | 38.6 | 37.8 | 36.3 | 35.3 | 35.3 | 35.3 | 35.8 | 36.4 |
| Moldova | 23.4 | 32.1 | 40.4 | 46.8 | 46.3 | 44.6 | 42.8 | 42.6 | 42.5 | 42.6 |
| Rusiya | 53.7 | 62.5 | 69.8 | 73.4 | 73.4 | 73.4 | 73.5 | 73.7 | 74.1 | 74.4 |
| Türkmənistan | 46.4 | 47.8 | 47.1 | 45.1 | 44.8 | 45.9 | 47.1 | 48.5 | 50.3 | 51.6 |
| Özbəkistan | 34.0 | 36.7 | 40.8 | 41.4 | 43.7 | 46.1 | 48.5 | 51.0 | 50.8 | 50.5 |

Qrafik 3-də göründüyü kimi, 1960-cı illərdə Azərbaycanda şəhər əhalisinin sayı 52.7% olmaqla, Rusiya ilə eyni səviyyədə olub. 2018-ci ildə bu göstərici 55,7% olmaqla, postsovet ölkələri arasında ən aşağı artım tempinə malik olub. Azərbaycanda urbanizasiyanın belə zəif tempdə getməsinin əsas səbəblərindən biri sovet dövründə Bakıya güclü axının qarşısını almaq üçün inzibati qaydaların tətbiqi idi. *"Sovet dövründə Bakıya axının süni şəkildə məhdudlaşdırılması urbanizasiyanı bir qədər ləngitdi. Bundan əlavə, həmin vaxt kənd və şəhər arasında fərqlərin aradan qaldırılması əsas hədəflərdən biri idi. O vaxt pis-yaxşı o istiqamətdə iş gedirdi, dotasiya hesabına bölgələrdə iş yerləri yaradıldı. Mingəçevirdə, Gəncədə xeyli sayda sənaye müəssisələri açıldı. Bakı ilə müqayisədə o bölgələrdə resurslar paylaşılmışdı. Müstəqillikdən sonra bu şəhərlərdə sənaye müəssisələri azaldı, imkanlar məhdudlaşdı, Bakı isə, əskinə, neft sektorunun hesabına böyüməyə başladı. Hətta yüngül sənaye müəssisələri də paytaxtda və Abşeronda cəmləşməyə başladı. Şəhərlər arasında nisbət dəyişdi, urbanizasiya daha çox Bakının üzərindən getməyə başladı.*

*Bölgələrdə qeyri-aqrar sektorun sferası çox məhduddur. Xidmət, sənaye, sosial sefara ilə bağlı məşğulluq imkanları zəifdir. Aqrar ölkə olmağımıza baxmayaraq, bu sektor üzrə ixtisaslaşmaya gedənlərin sayı digər ixtisaslarla müqayisədə azdır. Yəni regionlarda qeyri-aqrar sektorda oxuyan insanlar iş tapa bilmirlər. Bu sahədə bilik və bacarıq əldə etmiş insanlar daha çox Bakıya üz tutmağa başladılar".* (Rövşən Ağayev, iqtisadçı)

## I.6. KEYFİYYƏT SORĞUSU ƏSASINDA APARILAN MÜSAHİBƏLƏRİN NƏTİCƏLƏRİNİN TƏHLİLİ

Daxili miqrasiyanın sosial aspektlərini təhlil etmək üçün STM tərəfindən aparılan dərinləşdirilmiş müsahibələrdə 66 respondent iştirak edib. **Keyfiyyət sorğusunun iştirakçıları arasında 1995-ci ildən sonra doğulduğu yeri tərk edən insanların respublika üzrə orta yaş həddi 23 olub: paytaxt Bakıda 26 yaş, Lənkəran iqtisadi rayonunda 22,5 yaş, Aran iqtisadi rayonunda 26 yaş, Gəncə-Qazax iqtisadi rayonunda 23 yaş, Quba-Xaçmaz iqtisadi rayonunda 22 yaş, Şəki-Zaqatala iqtisadi rayonunda 23 yaş təşkil edib.** Burada ailə, evlilik, təhsil və s. bu kimi sosial zəmində daimi köç edənlərin orta yaşı 22, iş üçün gələnlərin orta yaş həddi isə 26 olub.

Doğulduqları yeri tərk etməyin əsas səbəbi kimi respondentlərin **55,5%**-i işsizlik, **24%**-i təhsil, **14%**-i evlilik amilini göstəriblər.

**Diaqram 1.**
*Respondentlərin köç etmələrinin səbəbləri*

**Qeyd:**
*Bəzi respondentlər birdən çox səbəb göstərib.*




Əhatə edilən bütün coğrafi ərazilərdə əgər işsizlik və təhsil hər iki gender üzvləri üçün əsas amil idisə, evlilik əksər hallarda qadınların köç etməsinə səbəb olub. Ümumiyyətlə, sorğu zamanı məlum olub ki, qadınların birbaşa miqrasiyası kişilərə nisbətən daha az müşahidə edilir. Qadınlar ya ailə quraraq doğulduqları yeri tərk edir, ya da ailə başçısının işi ilə əlaqədar başqa yerə köç edirlər. Sosioloq və psixoloqlar da öz tədqiqatlarında miqrasiya prosesində gender və yaş amillərinin fərqli təsirə malik olduğunu qeyd edirlər.

**Yaş** - Gənclər yaşlılar və uşaqlarla müqayisədə yeni mühitə daha yaxşı adaptasiya olunurlar. Onlar digər yaş dövrləri ilə müqayisədə yeni iş və iqtisadi imkanlar axtarmağa daha çox meyillidirlər. Bu imkanları daha çevik dəyərləndirməyi bacarırlar.

**Cins** - Kişilər tez-tez köçdükləri üçün evləndikdən sonra həyat yoldaşlarının getdikləri məkanlara köçən çoxlu sayda qadın var. Bu, sosial mobillik adlanır. Bəzi qadınlar isə məcburi şəkildə başqa məkanlara köçürlər.

**Evlilik** – Evli olan qadınlar həyat yoldaşları ilə birlikdə köç etdikləri halda, subay qadınların köçmək səbəbi subay kişilər kimi yeni iş və iqtisadi imkanlar axtarmaqdır.

Psixoloq Günel Aslanovanın fikrincə *"subay gənc kişilər köç etməyə daha*

*meyillidirlər. Yəni subaylıq, gənclik, eləcə də kişi cinsinə məxsusluq köçən insanlar arasında əsas üstünlük təşkil edən sosial-demoqrafik göstəricilərdir. Onların digər sosial-demoqrafik göstəricili şəxslərlə müqayisədə köçmələrini şərtləndirən başlıca sosial-psixoloji amil daha yaxşı yaşamaq arzusunu reallaşdırmaqdır".*

Seçmədə iştirak edən respondentlərin köç etməsinin "digər" kateqoriyasına aid məsələlər isə bunlardır: məişət problemləri, təzyiqlər, siyasi amillər və s.

**Sitat:** *"Ərim narkoman olduğuna görə məhbus həyatı yaşadı. Həbsdən çıxandan sonra rayonda yaşaya bilmədik, bizim üçün çətin oldu. Mən də uşaqları götürüb onun arxasınca Bakıya gəldim"* (Cəlilabad, qadın, 44 yaş, evli).

Demək olar ki, əhatə edilən bütün coğrafi ərazilərdəki respondentlərin əhəmiyyətli hissəsi tərk etdikləri yerlərdə işsizlik səbəbindən həm onların, həm də çoxsaylı tanışlarının doğulduğu yerləri tərk etdiklərini qeyd edir.

Müsahibələr nəticəsində müəyyən olundu ki, respondentlər geri qayıtmamalarının əsas səbəbi kimi iş, təhsil və xidmətlərlə bağlı köçdükləri ərazidə imkanların zəif olmasını göstərirlər.

**"Gələcəkdə öz regionunuza (doğulub böyüdüyünüz kənd/şəhər/qəsəbəyə) geri qayıtmaq istərdinizmi?"** sualına respondentlərin **45,7%**-i müsbət cavab verib. Lakin geri qayıtmaq istəyən respondentlər bunu iş və yaşayış imkanlarının genişlənəcəyi təqdirdə mümkün olacağını bildiriblər. Yəni mövcud durumda geri qayıtmağa motiv demək olar ki, yoxdur.

Respondentlər istər doğulduqları, istərsə də hazırda yaşadıqları yerlərdə özlərini rahat və təhlükəsiz hiss etdiklərini bildiriblər.

**Diaqram 2.**
*Gələcəkdə öz regionunuza (doğulub böyüdüyüz kənd/şəhər/qəsəbəyə) geri qayıtmaq istərdinizmi"?*




Ümumilikdə, həm işləyən, həm də işləməyən respondentlərin əhəmiyyətli hissəsi gəldikləri yerin (region rayonlarında və şəhərlərində) iş və təhsil imkanlarının məhdud olması; dolanışıq, təsərrüfatla məşğul olmalarına gərəkli şəraitin olmaması; yol və infrastrukturun, kommunal xidmətlərin təşkilinin aşağı olması; səhiyyə müəssisələrinə əlçatanlığın zəifliyi, sosial mühitin məhdudluğu səbəbindən daha inkişaf etmiş bölgələrə köçdüklərini qeyd edirlər. Respondentlərə görə, iri şəhərlərdə iş imkanları rayon/kənd yerlərindən daha genişdir. Onlar hesab edirlər ki, şəhər mühitinin daha bir cəlbedici cəhəti kimi informasiya təminatının və internetə çıxışın daha münasib olması amili qarşıya çıxır. Bununla yanaşı, bir çox respondent bu fikirdədir ki, karyera pillələri üzrə addımlamaq imkanları cəhətdən Bakı şəhərindəki əmək bazarı şəhərlər arasında ən münasib olanıdır.

Müsahibələrdə diqqət çəkən problem qeyri-şəhər tipli yaşayış məntəqələrində məşğulluq imkanları ilə yanaşı, asudə vaxtın səmərəli keçirilməsi üçün lazım olan xidmətlərin ya az olması, ya da mövcud olmaması idi. Bu problemi respondentlərin dilindən oxuyaq:




**Diaqram 3.**
*Şəhəri kənd/rayonlardan cəlb edən amillər*

**Sitat:** *“İş imkanlarımı artırmaq istərdim. Məsələn, ixtisasımı artırmaq və ya təkmilləşdirmək üçün kurslarda və seminarlarda iştirak etmək istəyirəm. Təəssüf ki, Mingəçevirdə aldığım peşəni təkmilləşdirmək üçün əlavə tədris kursları yoxdur, seminarlar təşkil olunmur”* (Ağdaş, hüquqşünas, qadın 38 yaş, evli).

*“Lənkəran mənim üçün hər yerdən üstündür, burada hərtərəfli çox rahatam. Yaşayış şəraitini, təbiətini, insanlarını - hər şeyini bəyənirəm. Amma Cəlilabadda belə deyildi. Məni orada çox şey qane etmirdi. İnsanları çox köhnə fikirli idi. Yaşamaq imkanları çox əlverişsizdir. İş imkanları azdır, gəzməli, uşaqlar üçün əyləncə yerləri yoxdur. Ancaq Lənkəranda çoxlu kurslar var. Uşaqlarımın istədiyim kimi inkişafına imkanlar, əlavə özfəaliyyət kursları kifayət qədər çoxdur. Bağçaların şəraiti çox gözəldir. Amma Cəlilabadda bu imkanlar yoxdur.”* (Cəlilabad, 30 yaş, evdar xanım)

“Lənkəran nəqliyyat sahəsində Lerikdən üstündür. Lerik dağlıq ərazi olduğu üçün orada daha böyük maşınlara üstünlük verilir, amma Lənkəran ərazisində minik avtomobillərindən də rahat istifadə etmək olur. Eyni zamanda, Lerik ərzaq təminatı baxımından da geridə qalmış bir regiondur - nəsə tapmaq istədikdə biz Lənkərana getməyə məcbur oluruq. Bundan başqa, Lənkəran internet baxımından da üstündür. Ümumiyyətlə, həyatın bütün fəaliyyət sahələrinin inkişafı baxımından Lənkəran Leriklə müqayisədə daha əlçatandır.” (Lerik, müəllim, 38 yaş, kişi, evli)

**Bəzi respondentlər könüllü şəkildə bir yerdən digər yerə köç etsələr də, onların gözləntiləri özünü doğrultmayıb (24.4%), bəziləri üçün isə həyat şəraiti daha da pisləşib.** Həyat şəraitindəki geriləmənin başlıca səbəbləri kimi respondentin axtardığı işi tapa bilməməsi, yaxud aşağı məvacibli/ixtisasına uyğun olmayan işdə işləməsi, eləcə də şəhər mühitinin sıxıcılığı və stres amilləri önə çıxır. **38,7%** və **36,9%** respondentin gözləntiləri özünü müvafiq olaraq tam və qismən doğruldub.

Ümumiyyətlə, miqrantların bir qisminin köçdükləri yerdə yaşadığı ən böyük problem sosiallaşma ilə bağlıdır ki, bu, onların köçdükləri yerin istəklərini nə dərəcədə qarşılayacağını bilməmələrindən qaynaqlanır.




**Diaqram 4.** *Qeyri-şəhər tipli yaşayış məntəqələrində məşğulluq imkanları ilə yanaşı, asudə vaxtın səmərəli keçirilməsi üçün lazım olan xidmətlər və əlamətlər*

*“Köçməmişdən əvvəl həm öz şəxsi potensiallarını və imkanlarını, həm də köç etdikləri məkanı düzgün dəyərləndirməmək sosiallaşmaya mane olur. Yaşanılan məkandan uzaqlaşdırıcı amillər (müharibə, yoxsulluq, işsizlik, siyasi inflyasiya) və yaşanılacaq məkana cəzb edən amillər (yaxşı iş, yaxşı məvacib, yaxşı təhsil, dini azadlıq, ailəyə yaxın olmaq), hissi-emosional dəyərləndirilən hallar sosiallaşmaya mane olur. Daha yaxşı yaşamaq arzusunun real olmaması psixikada ümidsizlik, çarəsizlik kimi vəziyyətlərin yaranmasına səbəb olur. Bu isə özlüyündə sosiallaşmaya mane olan amillər sırasına daxildir”* (Günel Aslanova, psixoloq).

Sorğu zamanı istər işləməyən, istərsə də işləyən qadınların, eləcə də gənclərin köç etdikləri ərazidə qalma səbəblərindən biri kimi gəldikləri rayon-kənd mühitində tapa bilmədikləri əlamətləri (dinamik həyat, dil və əmək bacarıqlarının artırılması təlimləri, elmi-kütləvi mövzularda seminarlar və s.) şəhərlərdə tapa bildikləri aşkara çıxır. Şəhərlərə köç edən qadın respondentlərin **14,2%**-i üçün doğulduqları rayon/kənd mühitinə qayıtmağın qarşısını alan əsas amillərdən biri qayıdacaqları yerdə üzləşəcəkləri sosial-mənəvi təzyiqdir - o təzyiq ki, qadınların müstəqil və sərbəst fəaliyyətinə əngəl olur. Maraqlıdır ki, hətta evli qadınlar arasında da "şəhərdə ailəmlə sərbəst, rahat gəzə bilirik, rayonda/kənddə bu mümkün deyil" fikrini səsləndirənlər də oldu. Müsahibələrdən aydın olur ki, şəhər-

**Diaqram 5.** *Getdiyiniz yerdə gözləntiləriniz özünü doğrultdumu?*






**Diaqram 6.**
*Özünüzü hara aid hiss edirsiniz?*

**Qeyd:**
*Respondentlərə bir neçə cavab variantını seçmək imkanı verildiyinə görə göstəricilər 100%-i keçir.*

lər qadınların bərabər səlahiyyətləri üçün daha çox imkanlar açır. Qadın respondentlər şəhərlərə köçməyi ənənəvi patriarxiyadan qaçmaq və yeni azadlıqlar əldə etmək fürsəti hesab edirlər. Şəhər ərazilərində həmçinin nisbətən keyfiyyətli səhiyyə xidmətlərinə, o cümlədən cinsi və reproduktiv sağlamlığa daha geniş çıxış imkanı yaranır, eyni zamanda bu, qadınların reproduktiv hüquqlarının həyata keçirilməsinə kömək edir. Bu, əhalinin ümumi artımının trayektoriyasını dəyişdirərək şəhər yerlərində doğum nisbətinin əhəmiyyətli dərəcədə azalmasına dəlalət edir.

**"Özünüzü hara aid hiss edirsiniz?"** sualına verilən cavablar respondentlərin məşğuliyyət və maddi vəziyyətindən asılı olaraq dəyişir.

**Sorğuda iştirak edənlərin 40,9%-i özünü yaşadığı yerə, 50%-i doğulduğu yerə aid hiss edir. 9,8% respondent bildirib ki, onun üçün ailəsinin və ya işinin olduğu yer ona doğmadır.** Başqa sözlə, onun üçün doğmalıq məfhumu vəziyyətdən asılı olaraq, yerdən-yerə dəyişir. 8% sorğu iştirakçısı bu suala cavab verməkdə çətinlik çəkib. Nəzərə çatdıraq ki, bu suala bəzi respondentlər birdən çox cavab verib.

Azsaylı respondentlər (**6,5%**) özünü, ümumiyyətlə, Azərbaycana yox, hər hansı inkişaf etmiş cəmiyyətə aid hiss etdiklərini dilə gətiriblər.

Maraqlıdır ki, müəyyən səbəblərdən doğulduğu yerdən başqa şəhərə köçmüş respondentlərin böyük əksəriyyəti növbəti dəfə xarici ölkələrə emiqrasiya etməyi düşünür. **Sorğuda iştirak edən 66 respondentin 70%-nin (44 nəfərin) daimi (iş üçün) və ya müvəqqəti əsaslarla (təhsil üçün) ABŞ, Kanada, Türkiyə və Almaniyaya köçmək istədikləri müəyyən edilib.** Maraqlıdır ki, köçmək istəyən respondentlərin heç də hər biri getmək istədikləri ölkə barədə dolğun informasiyaya malik deyil. Onlar mövcud vəziyyətdən çıxış yolunu sadəcə olaraq ölkəni daimi və ya müvəqqəti əsaslarla tərk etməkdə görürlər. **11%** respondent xaricə köçmək barədə qərarsızdır, **19%** isə heç bir yerə getmək istəmədiyini bildirib.




**Diaqram 7.**
*Rəyi soruşulan respondentlərin ən çox emiqrasiya etmək istədikləri ölkələr*




**Diaqram 8.**
*Keyfiyyət sorğusunun demoqrafik göstəriciləri*

# II HİSSƏ

## AZƏRBAYCANIN İQTİSADİ RAYONLARI ÜZRƏ MİQRASİYA VƏ URBANİZASİYANIN VƏZİYYƏTİ

Azərbaycan hazırda inzibati ərazi vahidi olaraq 10 iqtisadi rayona və paytaxt Bakıya bölünür. 10 iqtisadi rayonun tərkibinə daxil olan inzibati ərazi vahidlərinin sayı isə aşağıdakı kimidir:

**Muxtar respublika - 1**
**Şəhər rayonları - 14**
**Rayonlar - 63**
**Qəsəbələr - 261**
**Şəhərlər - 78**
**Kənd yaşayış məntəqələri - 4248.**

Tarixə qısa nəzər saldıqda görürük ki, Azərbaycanda son 120 ildə inzibati ərazi quruluşlarında zamanın tələbinə, sosial-iqtisadi vəziyyətə görə tez-tez dəyişikliklər baş verib. Belə ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaranarkən inzibati ərazi vahidi olaraq 3 quberniya - Bakı, Gəncə və Zaqatala mövcud idi. Hər bir quberniyaya 10-a yaxın qəza, 6 sahə daxil idi.

1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurularkən, Bakı və Gəncə quberniyaları ləğv edilərək, əvəzində 17 qəza yaradıldı, Zaqatala quberniyası qəza oldu.

İndiki inzibati ərazi vahidlərinin ana sərhədləri Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 30 avqust 1930-cu il tarixli qərarı ilə qoyulub. O zaman respublika ərazisi 63 rayona bölünmüşdü. 1931-ci ilin fevralında bəzi rayonlar ləğv edilərək yeniləri yarandı, bununla əlaqədar onların sayı 47-yə endi. 22 noyabr 1949-cu ildə Sumqayıt, 4 fevral 1954-cü ildə Mingəçevir şəhərləri yaradıldı.

1956-cı ildə isə əhalinin, xüsusilə şəhər əhalisinin sayının sürətli artımı ilə əlaqədər yeni tipli qəsəbələr yarandı, şəhərlərin sayı artdı. Artıq o dövrdə respublika 10 iqtisadi rayona bölünmüşdü. Şəhərlərin sayı 40-a, qəsəbələrin sayı isə 91-ə çatmışdı, eyni zamanda Naxçıvan Muxtar Respublikası və Dağlıq Qarabağ Vilayəti yaradılmışdı[15]. Bakı paytaxt olaraq Abşeron iqtisadi rayonunun tərkibində idi.

Ötən yarım əsrlik dövr ərzində Azərbaycanın inzibati ərazi vahidlərinin bölgüsü cüzi dəyişsə də, sərhədlərində genişlənmə müşahidə edilir.

Tədqiqatın 2-ci hissəsində Azərbaycanın 7 iqtisadi rayonu və paytaxt Bakı şəhəri üzrə alternativ miqrasiya saldosu, şəhər əhalisinin tədqiqat qrupu tərəfindən əldə edilmiş göstəricisi, iqtisadiyyatda və məşğulluqdakı yeri təqdim edilir. Hər bir iqtisadi rayonunun miqrasiya motivləri təsnifatlaşdırılaraq, əhalinin köç istiqaməti müəyyənləşdirilib.

### II.1. ABŞERON İQTİSADİ RAYONU

Tarixən şimal-cənub istiqamətində gedən karvanların əsas yolu və istirahət yeri olan indiki Abşeron iqtisadi rayonu XIX əsrdə "neft bumu" nəticəsində, sovet dönəmində isə orada Sumqayıt kimi sənaye şəhərinin salınması ilə böyüməyə başladı. Müstəqillikdən sonra Bakıya olan axının müəyyən bir qismini artıq Abşeron qəbul etməyə başladı. Çünki Bakıda daşınmaz əmlakın baha olması, sıxlıq insanları Bakı ətrafında məskunlaşmağa vadar edirdi. Bu baxımdan kiçik bir qəsəbə olan Xırdalan müstəqillikdən sonra şəhər statusuna qədər böyüdü. İqtisadi rayonun ümumi sahəsi 3,73 min km² olmaqla, ölkə ərazisinin 4,3%-ni əhatə edir. Abşeron 10 iqtisadi rayon arasında ən kiçiyi olmasına baxmayaraq, əhali sıxlığına görə yalnız Bakıdan geri qalır. Abşeron iqtisadi rayonu üzrə hər kv/km-ə düşən əhali sayı 154 nəfərdir.

Abşeron iqtisadi rayonunu Abşeron, Xızı inzibati rayonları və Sumqayıt şəhəri əhatə edir. Bunlar da öz növbəsində inzibati ərazi vahidlərinə - şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinə bölünürlər. İqtisadi rayonda 3 şəhər, 2 rayon, 13 qəsəbə, 14 kənd inzibati ərazi dairəsi və 32 kənd yaşayış məntəqəsi vardır.

Regionun relyefi təpəli, dağətəyi düzənliklərdən və hündür olmayan dağlardan ibarətdir. Region üçün quru subtropik iqlim xarakterikdir. İqtisadi rayona daxil olan Xızı rayonunun ərazisi tamamilə dağlıqdır.

Rayonun ərazisindən keçən Sumqayıt çayı tarixən karvan yolunun üzərində yerləşib və insanların dayanıb istirahət etdiyi əsas məkanlardan olub. Eyni zamanda burada kiçik yaşayış məskənləri də mövcud olub. XVIII və XIX əsrlərdə regionda baş verən müharibələr nəticəsində karvansaraylar baxımsızlıqdan dağılmağa, yaşayış məskənləri isə boşalmağa başlayıb. Keçən əsrin 50-ci illərində sovet dövründə Sumqayıt ərazisində yenidənqurma işlərinin aparılması və böyük sənaye müəssisələrinin salınması ilə yarımadada böyük

*[15] «Азербайджанская ССР», Институт Географии Академии Наук Азербайджанская ССР, Москва, 1957*




**Diaqram 9.**
*Abşeron iqtisadi rayonunun ölkənin makroiqtisadi göstəricilərində payı (%)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi və AR Mərkəzi Bankı*

şəhərləşmə prosesi gedib.

Hazırda böyük sənayeləşmə nəticəsində Sumqayıt şəhərinin əhalisi sürətlə artır. Əhalinin sayına görə Sumqayıt 2013-cü ilə qədər respublika üzrə Bakı və Gəncədən sonra üçüncü yerdə gəlirdisə, 2013-cü ildən etibarən ikinci yerdə qərarlaşıb.

Abşeron iqtisadi rayonu digər iqtisadi rayonlarla (Bakı istisna olmaqla) müqayisədə daha diversifikasiyalıdır. İqtisadi rayonun tabeliyində olan Abşeron və Xızı rayonlarının relyefi, əsasən, kənd təsərrüfatı üçün yararlıdır. Kənd təsərrüfatının əsasını şəhərətrafı təsərrüfat kompleksinə daxil olan südlük, ətlik, maldarlıq, quşçuluq, qoyunçuluq, tərəvəzçilik, bostançılıq, üzümçülük, gülçülük və quru subtropik meyvəçilik təşkil edir. Əlverişli iqlim şəraiti zeytun, zəfəran, püstə, badam və digər bitkilərin yetişdirilməsinə imkan verir.

İqtisadi rayonun ən inkişaf etmiş şəhəri Sumqayıtdır. Ümumi məhsul buraxılışında Sumqayıtın payı 2,4% olmaqla Bakıdan sonrakı yeri tutur. Sumqayıtın məhsul buraxılışının 61,4%-ni sənaye təşkil edir. Doğrudur, SSRİ-nin süqutundan sonra Sumqayıtdakı sənaye müəssisələrinin bir qismi fəaliyyətini dayandırdı, bir qismi isə fəaliyyətini məhdudlaşdırdı. Buna baxmayaraq, ölkənin sənaye məhsullarının istehsalındakı payına görə Sumqayıt ön yerdə gedir. Əlbəttə, şəhərin sosial-iqtisadi inkişafında müsbət dinamikanın yaranmasının başlıca səbəblərindən biri sənaye parklarının yaradılması, özəl və dövlət sektorundan iri investisiyaların cəlb edilməsidir.

Abşeron iqtisadi rayonunun ölkənin ümumi məhsul buraxılışında payı 3,6%-dir. İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin hazırladığı “Regionların investisiya reytinqi”ndə (2017) Abşeron iqtisadi rayonunun hər üç rayon və şəhəri ilk 20-likdə yer alıb. Reytinqdə investisiya şəraitinə görə Sumqayıt 4-cü, Abşeron rayonu 7-ci, Xızı 20-ci yerdə qərarlaşıb. Onu deyə bilərik ki, Abşeron iqtisadi rayonunun böyüməsinə təsir göstərən başlıca amil paytaxt Bakıya yaxın olmasıdır.

Abşeron iqtisadi rayonu üzrə orta aylıq əmək haqqı 405 manat təşkil edir.

Abşeron iqtisadi rayonu üzrə orta aylıq əmək haqqı haqqında məlumat diaqram 10-da təqdim edilir.

İqtisadi rayonun genişlənməsi, sənaye potensialının və əhali sayının artması regionun iqliminə, ekologiyasına da təsir göstərir. Ərazidə şirin su hövzələrinin qıtlığı, şoran suların daha çox üstünlük təşkil etməsi meliorasiya təchizatında çətinliklər yaratmaqla yanaşı, sənaye və məişət tullantılarının bu göllərə axıdılması da əlavə problem kimi meydana çıxır. Belə ki, Abşeron ərazisində yerləşən göllər tarixən yerin səthi ilə axan sular hesabına qidalanıb və formalaşıb. Lakin göllərə axıdılan təsərrüfat və məişət sularının miqdarı artdıqca, su balansı insanların təsərrüfat fəaliyyətinin təsiri altında dəyişməyə başlayıb, torpaqların erroziyası yüksəlib.

**Diaqram 10.**
*Abşeron iqtisadi rayonu üzrə orta aylıq əmək haqqı (manatla)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi*






**Diaqram 11.**
*Abşeron iqtisadi rayonu üzrə miqrasiya səviyyəsi*

**Mənbə:**
*Sosial Tədqiqatlar Mərkəzinin tədqiqat qrupu*

[16]**Qeyd:**
*Tədqiqatda şəhər əhalisinin səviyyəsi şəhər, kənd və qəsəbələrdə elektrik enerjisi istehlak edən abonentlər və real ev təsərrüfatlarının sayı əsasında müəyyənləşib.*

## Demoqrafiya və miqrasiya

DSK-nın məlumatına görə, Abşeron iqtisadi rayonunun əhalisi 2019-cu il yanvarın 1-nə 572.6 min nəfər olub və ölkə əhalisinin 5,7%-ni təşkil edib. Əgər sovet dövründə Abşeron öz bağları ilə insanları cəlb edirdisə, müstəqillikdən sonra suburbanizasiya nəticəsində iqtisadi rayon genişlənib. Abşeronda daşınmaz əmlakın qiyməti Bakı ilə müqayisədə daha ucuzdur. Regionlardan iş üçün Bakıya gələn insanlar paytaxta yaxın olan ərazilərdən əmlak alırlar. Bu baxımdan müstəqillikdən sonra Bakıdan Sumqayıta doğru torpaqlarda ev təsərrüfatlarının sayı sürətlə artıb və kiçik qəsəbə olan Xırdalan şəhərə çevrilib. Saray və Corat da eyni vaxtda genişlənməyə başlayıb. 2018-ci il üçün hər kv/km-ə düşən əhali sıxlığı 154 nəfər olub. Sözügedən iqtisadi rayon əhali sıxlığına görə paytaxt Bakını geridə qoyur.

Tədqiqat qrupu tərəfindən hesablanan Abşeronun alternativ miqrasiya saldosu hal-hazırda 30,4%, şəhər yerində yaşayan əhalinin sayı isə 93,6%-dir (Bax: Diaqram 11).

Təbii olaraq, Abşeron iqtisadi rayonunda miqrasiyanın mənfi saldosu Xızıda müşahidə edilir. Çünki əhali dağlıq ərazilərdən əsasən aran bölgələrə köçür. Xızıda dağ rayonu olaraq iş imkanlarının zəifliyi rayon əhalisinin qonşu sənaye şəhərlərinə miqrasiya etməsinə təkan verir. **Abşeron rayonunda miqrasiya saldosu +37,7%, Sumqayıtda +26,4% təşkil edir.**

*"Azərbaycanda düzənlik rayonları dağlıq rayonlara nisbətən daha sürətlə böyüyür. Çünki insanlar dağdan arana enirlər. Bu proses bütün XX əsr boyu Azərbaycanın müxtəlif rayonlarında müşahidə edilib, indi də həmin tendensiya davam edir. Çünki düzən, aran rayonlarında infrastruktur sahələri daha yaxşı inkişaf edir. Dağlarda səhiyyə, təhsil, nəqliyyat, rabitə və digər sosial infrastruktur sahələri (qaza, işığa tələbat və onlarla təminat və s.) ilə bağlı çətinliklər daha çox olur ki, bu da əhəmiyyətli dərəcədə təbii şəraitdən doğur. Bu baxımdan düzən rayonlarımızda vəziyyət daha qənaətbəxş olduğu üçün miqrasiya da məhz dağdan düzənliyə istiqamətlənir. Təəssüf ki, tədricən belə miqrasiyalar dağ kəndlərinin əhalisinin azalmasına, onların bir qisminin yox olması təhlükəsi ilə qarşılaşmasına səbəb olur"* (Rövşən Kərimov, coğrafiya üzrə fəlsəfə dokturu, AMEA).

Aparılan təhlil əsasında onu demək olar ki, Abşeron rayonunun özündə də kənddən şəhərə böyük axın var. Hökməli, Qobu, Güzdək, Məhəmmədli qəsəbə və kəndlərindən Abşeron iqtisadi rayonunun Xırdalan, Mehdiabad, Ceyranbatan, Novxanı, Saray və nisbətən iri yaşayış məntəqələrinə doğru axın müşahidə edilməkdədir.

Beləliklə, bütün bu qeyd olunanlar əsasında Abşeron iqtisadi rayonunun miqrasiya motivlərini aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

**Diaqram 12.**
*Abşeron iqtisadi rayonunda yerləşdirilən qaçqın və məcburi köçkünlər (nəfər)*

**Mənbə:**
*Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi*




### ❖ Qaçqın və məcburi köçkünlərin Abşeron iqtisadi rayonunda yerləşdirilməsi

Ermənistanın Azərbaycana qarşı başladığı müharibə nəticəsində həm Ermənistandan, həm də işğal altında olan torpaqlarımızdan QMKİDK-nin 2012-ci il 1 yanvar tarixli məlumatına görə, 67 min qaçqın və məcburi köçkün Abşeron iqtisadi rayonunda yerləşdirilib.

Diaqram 12-yə əsasən, ən çox qaçqın və məcburi köçkünün Sumqayıt şəhərində məskunlaşması şəhərin miqrasiya prosesinə, sosial-iqtisadi vəziyyətinə həm birbaşa, həm də dolayı yolla təsir göstərib. Birbaşa təsir ondan ibarətdir ki, müstəqillikdən sonra şəhərə ilk kütləvi miqrasiya axını yaranıb. Dolayı yolla təsir nəticəsində məcburi köçkünlərin əksər hissəsinin ictimai müəssislərdə yerləşdirilməsi ilə şəhərin sosial infrastrukturunda yaranan problemləri qeyd etmək olar. Məsələn, məcburi köçkünlərin uşaq bağçalarında məskunlaşması ölkənin məktəbəqədər təhsilində geriləmələrə gətirib çıxarıb. Bir tərəfdən rayonların işğal olunması nəticəsində tədris ocaqlarının sayının azalması, digər tərəfdən yurdundan didərgin düşən insanların başqa şəhərlərdəki təhsil müəssisələrində yerləşdirilməsi ölkə üçün əlavə sosial gərginlik və acı nəticələr yaradıb, xeyli sayda uşaq bağça təhsilindən kənarda qalıb. Eyni zamanda, qaçqın və məcburi köçkünlərin bir qisminin sənaye müəssisələrində yerləşdirilməsi onların fəaliyyətini məhdudlaşdırıb. Nəzərə almaq lazımdır ki, şəhərə gələn məcburi köçkünlərin böyük əksəriyyətinin əsas məşğuliyyəti təsərrüfatçılıq olub. Onlar şəhərin sənayeləşməsində iştirakçılıqdan kənarda qalıblar. Ona görə də müstəqillik illərinin ilk dövründə məcburi miqrasiyanın şəhərlərin iş və sosial-mədəni imkanlarını ölçmədən baş verməsi müəyyən böhran yaradıb. Yaşam, təfəkkür, adət-ənənə fərqləri yerli əhali ilə məcburi köçkünlər arasında psixoloji diskomfort meydana çıxarıb.

### ❖ Respublikanın digər bölgələrindən Abşeron iqtisadi rayonuna gələn daimi və müvəqqəti miqrantlar

İkinci mərhələdə (1995-2018-ci illərdə) baş verən miqrasiya respublikanın digər rayonlarından Abşerona gələn insanları əhatə edir ki, buna da təbii miqrasiya demək olar. Aparılan sorğu nəticəsində insanların sözügedən iqtisadi rayona köçmələrinin səbəblərinin müxtəlif olduğunu müəyyən etmək olur. Bura iş, təhsil, evlilik və karyera arxasınca gələnləri qeyd etmək olar.

## Urbanizasiya

Tədqiqat qrupunun hesablamalarına görə, 2018-ci ildə iqtisadi rayonun

əhalisinin **93,6%**-ni şəhər əhalisi təşkil edib. DSK-nin statistikasına görə isə, bu göstərici **91,9%-**dir. Regionlardan gələn miqrantların bir hissəsini Abşeron iqtisadi rayonu qəbul etməklə, ölkənin urbanizasiya prosesində əsas rola malikdir. Paytaxt Bakının Abşeron iqtisadi rayonu ilə həmsərhəd olması, infrastrukturun əlçatanlığı iqtisadi rayonun şəhərləşməsinə təsir göstərən başlıca amildir. Bu gün Xırdalan və Sumqayıt sakinlərinin xeyli hissəsi hər gün Bakıya işləməyə gəlirlər. Ona görə başqa rayonlardan Abşeron yarımadasına doğru axın respublikada urbanizasiyanın bir istiqamətdə getməsinə təsir göstərir. Nəticədə, yuxarıda da sadaladığımız kimi, ekoloji problemlər artır, şəhərdə sıxlıq, tıxacla bağlı çətinliklər gündən-günə çoxalır. Təəssüf ki, Abşeron iqtisadi rayonundan Bakıya nəqliyyat daşımaları daha çox minik avtomobillərinin və avtobusların üzərinə düşür. Son illər Bakı-Sumqayıt dəmir yolunda sürət qatarlarının dövriyyəyə buraxılması sərnişin daşımalarındakı yükün paylaşılmasında əhəmiyyətli rol oynayıb. Bakı-Sumqayıt yolunda tıxacların aradan qalxması üçün dəmir yolunun Abşeronun digər qəsəbələrinə də çəkilməsinə ehtiyac yaranıb.

## II.2. GƏNCƏ-QAZAX İQTİSADİ RAYONU

Gəncə-Qazax iqtisadi rayonu respublikamızın qərbində yerləşməklə strateji iqtisadi-coğrafi mövqeyə malikdir. Azərbaycanı Gürcüstan və Türkiyə ilə əlaqələndirən, iqtisadi münasibətlərin formalaşmasında mühüm amillərdən sayılan yolun buradan keçməsi ölkənin beynəlxalq tranzitə çıxışını asanlaşdırır. Eyni zamada, neft-qaz tranzitinin üzərində olması regionun iqtisadi-siyasi əhəmiyyətini artırır.

İqtisadi rayonun ümumi sahəsi 12,30 min km² olmaqla ölkə ərazisinin 14,2 %-ni əhatə edir.

Gəncə-Qazax iqtisadi rayonu Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir və Tovuz rayonlarını, həmçinin Gəncə və Naftalan şəhərlərini əhatə edir. Həmin rayon və şəhərlər inzibati ərazi vahidlərinə, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinə bölünürlər. İqtisadi rayonda 13 şəhər, 9 rayon, 2 şəhərdaxili rayon, 46 qəsəbə, 283 kənd inzibati ərazi dairəsi və 521 kənd yaşayış məntəqəsi vardır.




**Diaqram 13.**
*Gəncə-Qazax iqtisadi rayonunun ölkənin makroiqtisadi göstəricilərində payı (%)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi və AR Mərkəzi Bankı*

Gəncə-Qazax iqtisadi rayonu Azərbaycanın faydalı qazıntılarla zəngin regionlarından biridir. Ölkənin qızıl yataqları bu bölgədə (Kəlbəcər istisna olmaqla) yerləşir. Bundan əlavə, dəmir filizi, alunit, əhəngdaşı, mərmər, gips, seolit, sement xammalı, qızıl, gümüş, mis iqtisadi rayonun əsas yeraltı ehtiyatlarıdır.

Kür çayının iqtisadi rayonun ərazisindən axması hidroenerji ehtiyatlarını zənginləşdirir. Şirin su ehtiyatlarının bol olması kənd təsərrüfatı sektorunun inkişafında mühüm əhəmiyyət kəsb edir. Respublika üzrə kənd təsərrüfatı məhsullarının buraxılışında ön yerdə gəlir, sənaye məhsullarının buraxılışına görə isə onu Bakı və Aran iqtisadi rayonları qabaqlayır.

Bu səbəbdən iqtisadi rayon qeyri-neft sektoru üzrə məhsul istehsalında və ixracında Bakıdan sonra mühüm iqtisadi və sosial potensiala malikdir. Ümumi məhsul buraxılışının həcmində Gəncə-Qazax iqtisadi rayonunun payı 4,3%-dir, Bakı və Aran iqtisadi rayonlarından sonra üçüncü yeri tutur.

"Rayonların investisiya reytinqi"nin ilk iyirmiliyində bu iqtisadi rayonun 3 bölgəsinin - Gəncə (6-cı), Naftalan (8-ci) və Qazaxın (18-ci) adı yer alıb. Ölkə üzrə ümumi investisiyalarda Gəncə-Qazax zonasının payı müxtəlif illər üzrə 4-6 faiz arası dəyişir.

Gəncə-Qazax iqtisadi rayonu üzrə 2018-ci ildə orta aylıq əmək haqqı **331** manat təşkil edib.

**Diaqram 14.**
*Gəncə-Qazax iqtisadi rayonu üzrə aylıq əmək haqqı (manat)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi*




## Demoqrafiya və miqrasiya

Gəncə-Qazax iqtisadi rayonunun beynəlxalq tranzit yolunun üzərində yerləşməsi, həmçinin relyefi məskunlaşma baxımından əlverişlidir. DSK-nın məlumatına görə, iqtisadi rayonun əhalisinin sayı 01.01.2019-cu il tarixində 1,28 milyon nəfər olub və ölkə əhalisinin 12,8%-ni təşkil edib. Hər kv/km-ə 104 nəfər düşür ki, bu da ölkənin orta göstəricisindən (1 kv/km-ə 115 nəfər) aşağıdır. Gəncə-Qazax iqtisadi rayonunun ən inkişaf etmiş və önəmli şəhəri Gəncə sayılır. Əhalisinin sayına görə respublika üzrə üçüncü böyük şəhərdir. Halbuki, müstəqillik dövrü ərzində 2013-cü ilə qədər Gəncə böyük şəhərlər sırasında ikinci yerdə qərarlaşmışdı.

Urbanizasiya prosesinin respublika üzrə qeyri-bərabər paylanılması və əhalinin Bakı və Abşeron rayonu ətrafında cəmləşməsi Gəncə şəhərinin demoqrafik göstəricilər baxımından Sumqayıtdan bir pillə geri düşməsinə gətirib çıxarıb. 2008-2018-ci illər ərzində Sumqayıtın əhalisinin 11,2%, Gəncənin əhalisinin isə 6,7% artması onu ikinci pillədən üçüncü pilləyə salıb.

Azalma tempinin əsas səbəblərindən biri iqtisadi rayon üzrə miqrasiyanın çox az hissəsinin Gəncənin payına düşməsi, onun tarixən sənayeləşmiş şəhər mərkəzi statusunun nisbətən zəifləməsi və miqrasiya prosesi zamanı urban ərazi olaraq kənddən şəhərə axını qarşılamaq imkanlarının məhdudlaşmasıdır. Maraqlıdır ki, aparılan təhlil zamanı Şəmkir rayonunun miqrant qəbulunda imkanlarının artdığı görünür. Bunun da əsas səbəbi Şəmkirə Rusiyadan daxil olan valyuta həcminin geniş olması, respublikanın kənd təsərrüfatı məhsullarının istehsalına görə əsas mərkəzi rayonlarından birinə çevrilməsi, habelə qeyri-neft məhsullarının, xüsusilə kənd təsərrüfatı məhsullarının ixracında mühüm mövqeyə malik olmasıdır. Bölgənin ixrac potensialının geniş olması, aqrar sektorun xeyli inkişaf etməsi iş imkanlarını genişləndirir, ətraf kənd və rayonlardan Şəmkirə axını tənzimləyir.

Aparılan təhlil zamanı iqtisadi rayon üzrə miqrasiya səviyyəsinin müsbət tendensiyada getdiyi görünür. Belə ki, tədqiqat qrupu tərəfindən Gəncə-Qazax iqtisadi rayonu üzrə alternativ miqrasiya saldosunun müsbət (+)7%, şəhər yerində yaşayan əhalinin sayının isə 46% təşkil etdiyi müəyyən edilib. Rayon və şəhərlər üzrə miqrasiya səviyyəsi diaqram 15-də verilib.




**Diaqram 15.** *Gəncə-Qazax iqtisadi rayonu üzrə miqrasiya səviyyəsi*

**Mənbə:** *Sosial Tədqiqatlar Mərkəzinin tədqiqat qrupu*

Yeri gəlmişkən, iqtisadi rayonun özündə də daxili miqrasiyanın səviyyəsi yüksəkdir. Bu da miqrasiya saldosunu müsbət göstərən amildir. Adıçəkilən iqtisadi rayon üzrə ölkənin üçüncü ən böyük şəhəri sayılan Gəncədən gedənlərin sayı gələnlərin sayından çoxdur. Bu səbəbdən sözügedən şəhərdə miqrasiya saldosu **-6,6%** təşkil edir. **Ağstafada -22,7%, Daşkəsəndə +10,3%, Goranboyda -19,8%, Göygöldə +27,4%, Qazaxda +13,5%, Samuxda +9,8%, Şəmkirdə +55,0%, Tovuzda -2,3%, Naftalanda +17,6% miqrasiya səviyyəsi müəyyən edilib.**

Aparılan təhlillər əsasında Gəncə-Qazax iqtisadi rayonu üzrə miqrasiyanın xarakteristikasını aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

## ❖ Qaçqın və məcburi köçkünlərin mühüm bir qisminin Gəncə-Qazax iqtisadi rayonunda yerləşdirilməsi

Gəncə-Qazax iqtisadi rayonu Ermənistan tərəfindən başladılan işğalçı müharibədən və cəbhə xətti boyunca davam edən hərbi gərginlikdən ən çox təsirlənən regiondur. Belə ki, hərbi gərginlik bölgəni məcburi köçkün axınına qarşı daim təhdiddə saxlayır. Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin (QMKİDK) 2012-ci ilə dair məlumatına görə, bu regionda 131,7 min qaçqın və məcburi köçkün yerləşdirilib.




**Diaqram 16.** *Gəncə-Qazax iqtisadi rayonunda yerləşdirilən qaçqın və məcburi köçkünlər (nəfər)*

**Mənbə:** *Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (2012-ci il yanvar)*

Gəncə-Qazax iqtisadi rayonu Bakı və Arandan sonra ən çox qaçqın və məcburi köçkün qəbul etmiş regiondur. Təbii olaraq, belə bir vəziyyət iqtisadi rayonun demoqrafik durumuna, ictimai mühitinə sosial-psixoloji təsir göstərir.

### ❖ Ermənistanla cəbhə xəttində yerləşən kəndlərin Gəncə-Qazax iqtisadi rayonunda yaratdığı daxili miqrasiya

Gəncə-Qazax zonasının Ermənistanla cəbhə xəttində yerləşməsi də iqtisadi rayonun özündə daxili miqrasiyanı daha hərəkətli hala gətirib. Qazaxın işğal altında olan 7 kəndinin əhalisi, eyni zamanda Goranboy, Tovuz, Gədəbəy və Ağstafanın cəhbə xəttinə yaxın yerləşən kəndlərinin daim atəş altında qalması burada yaşayan əhalini iqtisadi rayonun digər yaşayış mənətqələrinə məcburi köç etməyə vadar edib.

### ❖ İqtisadi rayon üzrə müvəqqəti miqrasiya

Gəncə, Daşkəsən, Gədəbəy, Göygöl, Naftalan və Şəmkir üçün müvəqqəti mirqasiya daha xarakterikdir.

Şəmkir rayonu üzrə yüksək artımın olması bu rayonda əhalinin daimi köç etdiyini demək üçün bir qədər tələsik nəticə olardı. Aparılan təhlil zamanı Şəmkirdə əhalinin miqrant və yerli sakinlərlə birlikdə 63 %-nin daimi yaşadığı məlum olub. Əhalinin digər qismi isə buraya yalnız mövsümi dövrlərdə ya işləməyə, ya da istirahət etməyə gəlirlər. Şəmkir rayonunda 2010-cu ildə əhalinin hər 1000 nəfərinə düşən təbii artım əmsalı 15-dən 2018-ci ildə 8,9-a qədər düşüb. Bunun səbəblərindən biri Gəncə-Qazax iqtisadi rayonunun, o cümlədən Şəmkirin əhalinin ölüm əmsalına görə respublika üzrə yüksək göstəriciyə malik olmasıdır. Digər bir səbəb isə rayon üzrə gənclərin əmək qabiliyyəti çatdıqdan sonra təhsil, iş və digər səbəblərə görə doğulduqları ərazini tərk etməsidir. Ailə təsərrüfatı başçılarının müəyyən bir hissəsi Rusiyadadır. Bu ölkədən göndərilən vəsaitlər daşınmaz əmlak bazarına sərmayə edilir və bu yatırım müvəqqəti miqrasiyanın göstəricisini artırır. Eyni zamanda, yuxarıda da qeyd etdiyimiz kimi, rayonun böyük aqrar mərkəzlərindən birinə çevrilməsi mövsümi vaxtlarda buraya müvəqqəti gələnlərin sayını artırır. Şəmkirin təqribən 9-a yaxın kəndində yaşayış minimum səviyyəyə düşüb. Kəndlərdə əhalinin sayı azalsa da, qəsəbələrdə artım müşahidə edilir. Hər bir halda daxili miqrasiyada Şəmkirin müsbət saldosu regionun cəlbedici olduğunu, gələcəkdə urban əraziyə çevriləcəyini deməyə əsas verir.

Naftalan, Göygöl və Daşkəsənin coğrafi relyefi, əlverişli təbiəti, turistlər üçün cəlbediciliyinin olması bu rayonlar üzrə də mövsümi miqrantların sayını artırır. Eyni zamanda, Daşkəsən və Gədəbəyin əlvan metallarla zəngin olması, qızıl yataqlarının burada yerləşməsi hər iki regionun müəyyən qədər sənayeləşməsinə və qeyri-aqrar sektorun inkişafına təkan verir. İqtisadi rayon üzrə orta aylıq əmək haqqının ən yüksək səviyyəsinin Gədəbəy və Daşkəsəndə olması da regionda mədənçıxarma sənayesinin inkişafı ilə bağlıdır. Naftalan da kurort zonası olduğundan bu amil bölgəyə marağı artırır və müvəqqəti miqrasiyanın inkişafına təkan verir.

2009-cu illə müqayisədə 2018-ci ildə Gədəbəydə ev təsərrüfatlarının sayı 9,3% azalıb. Buradan digər şəhərlərə köç daimi olub. Lakin rayonun gözəl təbii mənzərəsi, təbiəti kənd turizminin inkişafı üçün əlavə imkanlar yaradıb. İvanovka və Slavyankada yaradılan yaxşı infrastruktur yerli vətəndaşların və Rusiya vətəndaşlarının marağını cəlb edir. Bu baxımdam müvəqqəti miqrantların Gədəbəyə aktiv gediş-gəlişləri miqrasiyada mövcud olan kəsiri örtür.

### ❖ İqtisadi rayondan Abşeron yarımadasına miqrasiya və Rusiyaya emiqrasiya

Regiondan kənara əsas miqrasiya Rusiya və Abşeron yarımadasına doğru müşahidə edilir. Bu gün Gəncə əhalisi, xüsusilə gənclər daha yüksək siyasi, sosial-iqtisadi və mədəni ambisiyalarını reallaşdırmaq üçün Bakıya üz tuturlarsa, ətraf rayonlardan da bu şəhərə müəyyən axın var. Gəncənin tarixi şəhər statusu, həmçinin şəhərdə 3 ali məktəbin yerləşməsi bu axına təkan verən əsas amildir. DİM-in məlumatına əsasən demək olar ki, Aran, Yuxarı Qarabağ və Gəncə-Qazax iqtisadi rayonlarına daxil olan şəhər/rayonlardan gənclər buraya oxumağa gəlir və müvəqqəti yerləşirlər. Daha sonra yüksək karyera arxasınca düşmək istəyənlər

Bakıya və başqa ölkələrə köçürlər. Bu gün Gəncə kimi iri şəhərdə əhalinin artım tempinin aşağı düşməsinin başlıca səbəblərindən biri də şəhərin orta və gənc nəslinin yeni iş imkanları əldə etmək, daha dinamik həyata malik olmaq üçün paytaxta üz tutmalarıdır.

### Urbanizasiya

Tədqiqat qrupunun gəldiyi qənaətə əsasən, 2018-ci il üzrə Gəncə-Qazax iqtisadi rayonunun əhalisinin 45%-i şəhər yerində yaşayıb. Rəsmi statistikada həmin dövr üçün bu göstərici 45,8% olub. Maraqlıdır ki, 2008-ci ildə bu göstərici 46,4% təşkil edib. Göründüyü kimi, rəsmi statistikada da regionun şəhər əhalisinin sayının azaldığını görmək olur. Regionda kənd turizminin geniş inkişaf etməsi, əmlak əldə etmək istəyən vətəndaşların infrastrukuru mükəmməl olan kəndlərdə torpaqlara sərmayə qoyması kənd əhalisinin sayını artırır. Gəncə, Naftalan, Samux və Qazaxın şəhər əhalisinin sayının artması müqabilində Gədəbəy, Göygöl və Daşkəsənin kurort yerlərinə marağın artması bir sıra kəndlərdə müvəqqəti və daimi miqrasiya prosesinə təkan verib.

Gədəbəy kəndlərinin sayına görə ölkənin ən böyük rayonlarından biridir. Kiçik kəndlərin əhalisi azalsa da, digər kəndlərdə, əksinə, böyümə gedir. Qarşıdakı illər ərzində əhalisinin sayının artmasının davamlılığı gələcəkdə həmin kəndlər arasında qəsəbə statusu alma ehtimalını yüksəldir. Eyni ehtimalı Göygöl və Daşkəsən üçün də irəli sürmək olar. Belə olan halda regionun bir sıra rayonları üzrə urban əhalisinin göstəricisi arta bilər.

2018-ci ilin məlumatına görə, Daşkəsəndə 5, Göygöldə 7, Qazaxda 7 (işğal altındadır), Samuxda 2, Tovuzda 19, Gədəbəydə 8, Ağstafada 2, Goranboyda 6 kənd üzrə əhalinın sayı kəskin azalıb. Bu kəndlərdə yaşayış olan ev təsərrüfatlarının sayı 10-dan aşağıdır.

## II.3. ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONU

Şəki-Zaqatala iqtisadi rayonu Rusiya ilə həmsərhəd bir bölgədir. Ərazisinin ümumi sahəsi 8,84 min km² olmaqla ölkə ərazisinin 10,3%-ni təşkil edir. Şəki-Zaqatala iqtisadi rayonu Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala inzibati rayonlarının və Şəki şəhərini əhatə etməklə, Azərbaycanın şimal-qərbində - Böyük Qafqaz dağlarının cənub yamacında yerləşən, qədim tarixi məskənlərdən olan, gözəl təbiəti ilə seçilən mərkəzlərdən biridir. İqtisadi rayonun əlverişli təbii-coğrafi şəraiti, iqlimi və münbit torpaqları kənd təsərrüfatı sektorunun, xüsusilə heyvandarlığın inkişafı üçün mühüm təsirə malikdir. Eyni zamanda ərazinin zəngin təbii landşaftı, qədim tarixi abidələri turizmin inkişafı üçün əlverişli perspektivlər aça bilər. Bu baxımdan Qəbələ, Şəki və Zaqatalada turizmin inkişafı üçün böyük sərmayələr qoyulur. Bu iqtisadi zonada 5 rayon, 6 şəhər, 7 qəsəbə, 336 kənd yaşayış məntəqəsi vardır.

Bu iqtisadi rayonun ərazisi faydalı qazıntılarla zəngindir. Xüsusilə ölkə üzrə mis, kükürd, qurğuşun və sinkin 90%-dən çoxu bu regionun payına düşür. Ölkə üzrə kənd təsərrüfatı məhsullarının bölgüsündə iqtisadi rayon tütünçülük, baramaçılıq, çayçılıq, gülçülük, çəltikçilik, meyvəçilik, taxılçılıq, üzümçülük və qoyunçuluqla təmsil olunur. Eyni zamanda, respublikanın heyvandarlıq məhsullarının tədarükünün 10%-i Şəki-Zaqatalanın payına düşür.

Şəki-Zaqatala iqtisadi rayonunun sənayesi nisbətən zəif və birtərəfli inkişaf etmişdir. Ölkə üzrə sənaye məhsulunun 3%-dən bir az çoxu bu rayonun payına düşür. İqtisadi rayonun sənayesi əsas etibarilə kənd təsərrüfatı məhsullarını emal edən yüngül və yeyinti sahələri üzrə ixtisaslaşmışdır. Yeyinti sənayesi bağçılıq, tütünçülük və heyvandarlıq məhsullarının emalına əsaslanır.

Şəki-Zaqatala iqtisadi rayonunun inkişaf etmiş və mədəni irs baxımından ən önəmli şəhəri Şəki sayılır. Son illər Qəbələdə turizmin inkişafı üçün yatırılan investisiyalar bölgənin iqtisadi və sosial-mədəni potensialını artırıb.

Bu iqtisadi rayonun ölkə üzrə məhsul buraxılışındakı payı 1,9% olmaqla aşağı göstəriciyə malikdir. “Rayonların investisiya reytinqi”nin ilk iyirmiliyində adıçəkilən iqtisadi regionun 2 rayonunun - Qəbələ (12-ci) və Qaxın (16-cı) adları da yer alıb.

Ölkə üzrə əsaslı kapital qoyuluşunda adıçəkilən iqtisadi rayonun payı müxtəlif illər üzrə 4-2 faizarası dəyişib.

**Diaqram 17.**
*Şəki-Zaqatala iqtisadi rayonunun ölkənin makroiqtisadi göstəricilərində payı (%)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi və AR Mərkəzi Bankı*




İqtisadi zonanın qeyri-aqrar sektorunun əsasən Qəbələdə inkişaf etməsi rayon üzrə orta aylıq əmək haqqının digər şəhər və rayonlar arasında fərqini hiss etdirir.

Şəki-Zaqatala iqtisadi rayonu üzrə 2018-ci ildə orta aylıq əmək haqqı **288** manat təkil edib və bu, ölkə üzrə orta göstəricidən aşağıdır (Bax:Diaqram 18). Bunun səbəbi iqtisadiyyatın digər sektorlar üzrə inklüzivliyinin aşağı olmasıdır. Məlumdur ki, Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə ən aşağı orta aylıq əmək haqqı kənd təsərrüfatı sektorundadır.

## Demoqrafiya və miqrasiya

2019-cu il yanvarın 1-nə olan məlumata görə, Şəki-Zaqatala iqtisadi rayonunun əhalisi 621 min nəfər olub. Ölkə ərazisinin 10,2%-ni təşkil edən iqtisadi rayon respublika əhalisinin 6,2%-ni özündə cəmləşdirir. Hər kv/m-ə düşən əhali sayı 70 nəfər olmaqla, sıxlıq səviyyəsinə görə aşağı göstəciyə malikdir. Şəki-Zaqatala iqtisadi rayonu respublikanın əhalinin milli və etnik tərkibinə görə zəngin olan bölgələrindəndir. Belə ki, Şəki-Zaqatalada avarlar, saxurlar, ingiloylar, udinlər, ruslar, ukraynalılar, gürcülər və s. etnik qruplar yaşayır.

İqtisadi rayonun tarixi baxımdan ən mühüm şəhəri olan Şəki İrandan (Güney Azərbaycan) köç edən tacirlər üçün Bakıdan sonra ən cəlbedici şəhər sayılıb. Tacirlərin bir çoxu ailələri ilə birgə köçüb burada yaşayardılar. Çar Rusiyası və Azərbaycan Xalq Cümhuriyyəti dövrün-

**Diaqram 18.**
*Şəki-Zaqatala iqtisadi rayonu üzrə aylıq əmək haqqı (manat)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi*






**Diaqram 19.**
*Şəki-Zaqatala iqtisadi rayonu üzrə miqrasiya səviyyəsi*

**Mənbə:**
*Sosial Tədqiqatlar Mərkəzinin tədqiqat qrupu*

də Şəkinin iqtisadi əhəmiyyəti ilə yanaşı, siyası, sosial, mədəni əhəmiyyəti də yüksək olub. Şəki Azərbaycan maarifçilərinin ən fəal olduğu bölgələrdən biri hesab edilir. Sovet dövründə isə Şəki siyasi əhəmiyyətli mərkəzdən daha çox iqtisadi əhəmiyyətli mərkəzə çevrilib, sənaye şəhəri kimi tanınıb. Şəki istehsal etdiyi ipəyi ilə bütün SSRİ-də xüsusi nüfuza malik olub. Müstəqillikdən sonra isə Qəbələ də yerli və xarici turistlərin, miqrantların diqqətini cəlb etməyə başlayıb. Hətta adıçəkilən iqtisadi rayon üzrə daxili miqrasiyada Qəbələ son illər diqqət çəkməyə başlayıb. Turizmin inkişafı xidmət sektorunda yeni iş yerlərinin açılmasına təkan verib və Oğuz rayonundan Qəbələyə müvəqqəti işləməyə gələn insanların sayı artıb. Lakin digər tərəfdən iqtisadi rayonun təhsil imkanları məhduddur. Bununla belə, bölgə buraxılış və ali məktəblərə qəbul imtahanlarının göstəricilərinə görə yüksək mövqedə qərarlaşıb. Öz təhsilini davam etdirmək istəyən gənclər Bakıya və ya başqa ölkələrə üz tuturlar. Regionda yalnız Azərbycan Pedaqoji Universitetinin filialı mövcuddur. Ali təhsil almaq üçün gənclərə yalnız pedaqoji ixtisaslar yetərli deyil, daha çox ixtisas seçiminə malik olan universitetlərə ehtiyac yaranır. Ona görə də təhsilə olan tələbatın ödənilməsi üçün gənc nəslin regiondan kütləvi köçü müşahidə edilir. Digər bir problem isə yiyələndikləri ixtisas və peşələr üzrə doğulduqları yerdə iş yerlərinin olmaması, bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün imkanların məhdud olması onları iri sənaye şəhərlərində yaşamağa vadar edir. Bir sözlə, Şəki-Zaqatala iqtisadi rayonundan beyin axınının yüksək olduğunu demək olar.

Sadalananların fonunda 2018-ci il üçün Şəki-Zaqatala iqtisadi rayonu üzrə alternativ miqrasiya saldosu mənfi (-)6,8, şəhər əhalisi isə 35% təşkil edib.

Diaqram 19-dan aydın olur ki, Qaxdan başqa digər rayon və şəhər üzrə qeydiyyatda olan insanların müəyyən bir hissəsi hazırda doğulduqları ərazidən köç ediblər. **Bu iqtisadi rayon üzrə miqrasiya saldosu Balakəndə -8,8%, Zaqatalada -5,6%, Qaxda +7,2%, Şəkidə -6,4%, Oğuzda -12,8%, Qəbələdə -12,2% olub.**

Maraqlıdır ki, 2009 və 2018-ci illərin ev təsərrüfatlarını müqayisə edəndə Qax rayonu üzrə ciddi artım dinamikası müşahidə olunmur. Aparılan təhlillər göstərir ki, ərazinin etnik qruplar və milli azlıqlar yaşayan bölgələrində torpağa bağlılıq güclüdür, daha çox azərbaycanlıların yaşadığı yaşayış məskənlərində əhalinin azalması və köçü baş verir.

Şəki-Zaqatala iqtisadi rayonu üzrə miqrasiyanın xarakteristikasını aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

**Diaqram 20.**
*Şəki-Zaqatala iqtisadi rayonu üzrə yerləşən qaçqın və məcburi köçkünlər (nəfər)*

**Mənbə:**
*Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (2012-ci il yanvar)*




## ❖ Qaçqın və məcburi köçkünlərin Şəki-Zaqatala iqtisadi rayonunda yerləşməsi

QMKİDK-nin 2012-ci il üzrə məlumatına əsasən, iqtisadi rayonun ərazisində 11,5 min məcburi köçkün yerləşdirilib. Şəki-Zaqatala iqtisadi rayonu üzrə yerləşən qaçqın və məcburi köçkünlərə dair məlumat diaqram 20-də təqdim edilir.

Gəncə-Qazax, Aran, Dağlıq Şirvan iqtisadi rayonları ilə müqayisədə Şəki-Zaqatalaya məcburi köçkün axını nisbətən aşağı olub. Buna baxmayaraq, məcbur köçkün ailələri kiçik bir region olaraq bölgənin demoqrafik və miqrasiya proseslərində mobillik yaradıb.

## ❖ İqtisadi rayon üzrə müvəqqəti daxili miqrasiya

Bu təsnifat sözügedən iqtisadi rayon üçün spesifikdir. Çünki turistik bölgə olması, sanatoriya mərkəzlərinin çoxluğu buranı cəlbedici edir. İş üçün gələnlər daha çox Oğuzdan Qəbələyə üz tuturlar. Lakin həmin ərazilərdə ev tikib yalnız müəyyən mövsümdə yaşamağa gələnlər bölgənin Qax rayonunda daha çox müşahidə olunur. Ona görə də miqrasiya səviyyəsində artım görünür.

Şəki-Zaqatala iqtisadi rayonunda hər 1000 nəfərə düşən əhali artımı 7,7-dir. Artım tempində əvvəlki illərə nisbətən azalma özünü göstərir. Ümumiyyətlə, əhalinin təbii artım əmsalına görə Şəki-Zaqatala aşağı göstəricisi olan regionlardandır. İqtisadi rayonda Qax ən aşağı təbii artıma (hər 1000 nəfərə 5,7) malikdir. Bunun əsas səbəbi rayon üzrə doğum əmsalının aşağı, ölüm əmsalının isə yüksək olmasıdırsa, digər tərəfdən gənc nəslin başqa yerlərə miqrasiyasıdır.

## ❖ İqtisadi rayondan Abşeron yarımadasına miqrasiya və Rusiyaya emiqrasiya

İqtisadi rayonun Balakən, Qax və Zaqatala rayonlarında ölkədən xaricə emiqrasiya özünü göstərir. Həmin ərazilərdə əhali arasında keçirdiyimiz sorğu və apardığımız müşahidələr əsasında onu deyə bilərik ki, ev təsərrüfatlarında ailə başçıları, əsasən, Rusiyaya işləməyə gedirlər.

Bölgədə yalnız kənd təsərrüfatı sektorunun inkişaf etməsi, turizmin mövsümi xarakter daşıması, iqtisadiyyatın inklüzivliyinin zəif olması karyera imkanlarını aşağı salır. Dinamik və innovativ həyat axtaran, təhsilini davam etdirmək istəyən gənclər paytaxta üz tuturlar. Paytaxt Bakı onlar üçün təhsillərini davam etdirməkdə, iş və siyasi karyera qurmaqda, axtardıqları sərbəstliyi tapmaqda daha cəlbedici görünür.

## Urbanizasiya

İş imkanlarının məhdudluğu kənd əhalisini rayon mərkəzlərinə və qəsəbələrə

cəlb edir. Xüsusilə, dağlıq ərazilərdə yerləşən kəndlərin yol və kommunikasiya sisteminin zəif olması, məktəb, səhiyyə müəssisələrinin olmaması insanları ərazidən köç etməyə vadar edən səbəblərdir. Eyni zamanda, yüksək dağlıq və dağətəyi kəndlərin sərt coğrafi relyefi və soyuq iqlimin uzun sürməsi rayon mərkəzi ilə çevik kommunikasiya qurmaqda çətinliklər yaradır. Burada kənd yollarının ürəkaçan vəziyyətdə olmadığını nəzərə alsaq, qış mövsümündə kəndlərin bütün kommunikasiya əlaqələrinin kəsildiyini demək olar. Ona görə də kəndlərdəki bəzi insanların sosial və informasiya-kommunikasiya xidmətləri nisbətən yüksək olan qəsəbələrə, şəhər mərkəzlərinə köç etməsi müşahidə olunur. Tədqiqat qrupunun apardığı hesablamalara görə, 2018-ci ildə Şəki-Zaqatalanın şəhər və qəsəbələrində yaşayan əhali ümumi əhalinin 35%-ni təşkil edib. Bu da DSK-nın rəsmi statistikası ilə (28%) müqayisədə 7% yüksəkdir, həm də iqtisadi rayon üzrə kəndlərdən şəhərə doğru yüksək miqrasiya axınını sübut edir.

Eyni zamanda, Şəki-Zaqatalada ali təhsil məktəbinin yerləşməsi urbanizasiyaya müəyyən qədər təsir göstərir. Lakin yuxarıda da qeyd etdiyimiz kimi, bu təhsil ocaqları daha çox Azərbaycan Dövlət Pedaqoji Universitetinin filiallarıdır. Qeyri-pedaqoji təhsil almaq üçün gənclər Bakı, Sumqayıt, Mingəçevir və Gəncəyə gedirlər.

Zaqatalanın 5, Şəkinin 5, Oğuzun 5, Qaxın 13, Qəbələnin 7 kəndində yaşayan əhalinin sayı minimum həddə düşüb.

## II.4. LƏNKƏRAN İQTİSADİ RAYONU

Lənkəran iqtisadi rayonu cənubdan və qərbdən İranla, şərqdən Xəzər dənizi ilə həmsərhəddir. Bu da tarixən regionun önəmini artırıb. Azərbaycanı İranla əlaqələndirən magistral şosse və dəmir yollarının ərazidən keçməsi, həmçinin şərqdən dənizə çıxışının olması, ümumiyyətlə, əlverişli coğrafi mövqeyi Lənkəran iqtisadi rayonunun strateji əhəmiyyətini artırır. Sahəsi 6,07 min km² olmaqla ölkə ərazisinin 7%-nə malikdir. İqtisadi rayonun ərazisinin 26%-i meşələrlə örtülüb. Region rütubətli subtropik iqlimə malik olmaqla təbii şəraitinə görə ölkənin digər iqtisadi rayonlarından fərqlənir. Lənkəran iqtisadi rayonu 5 inzibati rayondan – Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlıdan və Lənkəran şəhərindən ibarətdir. İqtisadi rayonda 8 şəhər, 5 rayon 13 qəsəbə, 169 kənd inzibati ərazi vahidi və 638 kənd yaşayış məntəqəsi vardır.

Ən sıx meşələr Astara (25,3%) və Lerik (24,4%) ərazisindədir. Regionun ən inkişaf etmiş və önəmli şəhəri Lənkərandır. Lənkəran şəhərində dəniz və hava limanlarının yerləşməsi cənub bölgəsinin əsas mədəni, sosial və iqtisadi mərkəzi kimi tanınmasında böyük rol oynayıb.

Bölgə zəngin mineral sulara malikdir. İqtisadi rayonda rütubətli subtropik iqlim, məhsuldar torpaqlar, su və əmək ehtiyatları kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar yaradır. Ona görə də regionun iqtisadiyyatının əsasını kənd təsərrüfatı, balıqçılıq və meşə təsərrüfatı təşkil edir. Kənd təsərrüfatında faraş tərəvəzçilik, kartofçuluq, üzümçülük, taxılçılıq üstünlük təşkil edir. İqtisadi rayon mühüm sitrus meyvəçiliyi regionudur. Azərbaycanda istehsal olunan çayın 99%-ə yaxını, tərəvəz-bostan məhsullarının yarıdan çoxu bu iqtisadi rayonun payına düşür. Sənaye sahələri kənd təsərrüfatı xammalının emalı əsasında inkişaf edir, bitkiçilik və balıqçılıq məhsullarının emalına söykənir. Yeyinti sənayesində balıq emalı, çay, meyvə-tərəvəz konservi və şərab istehsalı mühüm yer tutur. İqtisadi rayonun ümumi məhsul buraxılışındakı payı 2,1%-dir. Rayonun məhsul istehsalında əsas paya Lənkəran şəhəri, Masallı və Cəlilabad rayonları malikdir. Lakin buna baxmayaraq, “Regionların investisiya reytinqi”ndə iqtisadi rayonun heç bir rayonu və şəhəri ilk iyirmiliyə düşməyib. Əksinə, investisiya reytinqinə görə ən aşağı göstəricilər Astara, Lerik və Yardımlıya məxsusdur.

**Diaqram 21.** *Lənkəran iqtisadi rayonunun ölkənin makroiqtisadi göstəricilərində payı (%)*

**Mənbə:** *Dövlət Statistika Komitəsi və AR Mərkəzi Bankı*



**Diaqram 22.**
*Lənkəran iqtisadi rayonu üzrə orta aylıq əmək haqqı (manat)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi*




Lənkəran iqtisadi rayonu üzrə orta aylıq əmək haqqı 304 manat təşkil edir və bu, ölkənin ümumi göstəricisindən aşağıdır. Ən yüksək orta aylıq əmək haqqı Cəlilabad rayonundadır - **318** manat. İqtisadi rayon üzrə orta aylıq əmək haqqına dair vəziyyət diaqram 22-də təqdim edilir.

## Demoqrafiya və miqrasiya

Lənkəran iqtisadi rayonu Azərbaycanın əhalisinin etnik tərkibinə görə fərqlənən zonalarından biridir. Lənkəran, Astara, Lerik və qismən də Masallıda talışlar yaşayırlar. DSK-nın 01.01.2019-cu il tarixinə olan məlumatına görə, Lənkəran iqtisadi rayonunun əhalisinin sayı 937.2 min nəfər olmaqla, ölkə əhalisinin 9,4%-ni təşkil edir. Ərazinin hər kv/km-nə 154 nəfər düşür. Əhalinin sıxlığına görə Abşeronla eyni səviyyədə olmaqla, Bakıdan sonra ən sıx iqtisadi rayon sayılır. Əhalinin təbii artım əmsalı 2010-cu illə müqayisədə 4% azalıb - hər 1000 nəfərə 14,2-dən 10,3-ə düşüb. Bununla belə, əhalinin artım tempinə görə yenə də ən yüksək bölgə sayılır. Çünki iqtisadi rayon üzrə doğum əmsalı yüksək, ölüm əmsalı isə aşağıdır. Artım tempinin aşağı düşməsinin əsas səbəblərindən biri region üzrə miqrasiya səviyyəsinin yüksək olmasıdır.

Lənkəran iqtisadi rayonu üzrə alternativ miqrasiya saldosu mənfi (-)5,8%, ümumi əhalinin tərkibində şəhər əhalisinin payı 29,7% müəyyən edilib.

**Diaqram 23.**
*Lənkəran iqtisadi rayonu üzrə miqrasiya səviyyəsi*

**Mənbə:**
*Sosial Tədqiqatlar Mərkəzinin tədqiqat qrupu*



İqtisadi rayondan ən yüksək əhali köçü Lerik rayonunda müşahidə edilir: -38,3%. Bunun əsas səbəblərindən biri bu rayonda dağlıq ərazilərdə yerləşən kəndlərin çoxluq təşkil etməsidir. Çünki bu kəndlərin rayon mərkəzi ilə kommunikasiya əlaqələrinin qurulmasında çətinliklər mövcuddur. Lakin son illər dövlət büdcəsindən ayrılan investisiyalar hesabına kəndlərin infrastrukturu müəyyən qədər qurulub, yol, qaz və kommunikasiya xətləri çəkilib. Nəticədə regionların sosial-iqtisadi inkişaf proqramı çərçivəsində rayonun yol və elektrik enerjisi infrastrukturunun qurulması son bir neçə ildə miqrasiyanı bir qədər səngidib. Buna baxmayaraq, Lerikdən gedən insanların geri dönüşünün olmaması bu rayon üzrə miqrasiya saldosunu mənfidə saxlayır. **Tədqiqat qrupu tərəfindən müəyyən edilən miqrasiya saldosu Cəlilabadda +1,7%, Lerikdə -38,3%, Lənkəranda -9,2%, Astarada +5,8%, Masallıda -3,5% təşkil edir.**

2009-cu ilin ev təsərrüfatlarının sayı 2018-ci il ilə müqayisədə bəzilərində azalıb, digər qismində isə çox cüzi artıb. Məsələn, Lerikdə 19%, Lənkəranda 13,4%, Cəlilabadda 0.8% azalıb, Astarada 1,9%, Masallıda 2,4%, Yardımlıda 4,8% artıb.

Yuxarıda sadalanan statistik göstəricilər fonunda Lənkəran rayonu üzrə miqrasiyanın motivlərini təsnifatlaşdırarkən aşağıdakı məqamları nəzərə almaq lazımdır:

### ❖ Qaçqın və məcburi köçkünlərin Lənkəran iqtisadi rayonunda yaratdığı miqrasiya

QMKİDK-nin 2012-ci il üzrə statistikasına əsasən, Lənkəran iqtisadi rayonunda cəmi 2 minə yaxın qaçqın və məcburi köçkün yerləşdirilib (Bax: Diaqram 24). Cəbhə bölgəsindən uzaq məsafədə yerləşməsi bölgəni məcburi köçkünlərin yaratdığı daxili miqrasiya amilindən "sığortalaya" bilib. Hətta Lerik və Yardımlı rayonları məcburi köçkün axınından kənarda qalıb.

### ❖ İqtisadi rayonda əhalinin daxili miqrasiyası

İqtisadi rayonun özündə mövcud olan daxili miqrasiya uzaq dağ kəndlərinin sakinlərinin ətraf qəsəbə və rayon mərkəzlərinə köç etməsində müşahidə edilir. İqtisadi rayon üzrə ən çox daxili miqrant qəbul edən mərkəzlər Lənkəran şəhəri və Cəlilabad rayonudur. Lənkəranda 1 ali təhsil müəssisəsinin, habelə regional media qurumlarının, dəniz və hava limanlarının mövcudluğu hətta Aran iqtisadi rayonundan da insanları müəyyən qədər özünə cəlb edir. Lənkəran şəhərinin əhalisi bir tərəfdən başqa şəhər və ölkələrə köçürsə, digər tərəfdən bu şəhər hər il müəyyən sayda miqrant da qəbul edir.

Cəlilabad rayonu isə ölkənin kənd təsərrüfatı üzrə ən inkişaf etmiş, iri fermer təsərrüfatlarının yerləşdiyi rayonlardan biridir. Habelə torpağının düzən və münbit olması Lerik və Yardımlının dağ kəndlərindən buraya miqrasiya imkanlarını artırır.




**Diaqram 24.** *Lənkəran iqtisadi rayonu üzrə yerləşdirilən qaçqın və məcburi köçkünlərin sayı (nəfər)*

**Mənbə:** *Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (2012-ci il yanvar)*

### ❖ İqtisadi rayon üzrə müvəqqəti miqrasiya

Müvəqqəti miqrasiya Cəlilabad və Astara rayonlarında müqrasiya saldosunu yüksəldən səbəblərdən biridir. Bu gün Cəlilabad kəndlərində geri qayıdış hiss olunmaqdadır. Belə ki, Bakıya və Rusiyaya köçmüş ailələrin böyük bir qismi öz ata-baba yurdlarında evlər tikib ilin müəyyən mövsümlərində dincəlməyə gəlirlər. Aparılan müşahidələr zamanı Cəlilabad rayonunun kənd və qəsəbələrindən köçən insanların yenidən öz torpaqlarına geri qayıtdığı müəyyən edilib. Lakin həmin insanlar burada daimi məskunlaşmaq üçün deyil, müvəqqəti yaşamaq üçün evlər tikiblər.

Astarada Hirkan Milli Parkı və İstisu kimi məşhur mineral bulaqların ətrafında yaşayış massivlərinin sayı artıb. Həmin yaşayış massivlərində ilin müəyyən fəsillərində istirahətə gələnlər rayonun miqrasiyasında bir mobillik yaradırlar. Eyni zamanda, əsas etnik qrupların Astarada olması, həmçinin İranın Astara bölgəsi ilə sərhəd olması regiona bağlılıq amilini gücləndirir.

### ❖ İqtisadi rayondan xarici ölkələrə emiqrasiya və Abşeron yarımadasına miqrasiya

Rusiyaya köçən azərbaycanlılar arasında Lənkəran iqtisadi rayonunun əhalisi çoxluq təşkil edir. Bir sıra ailələrdə yalnız ailə başçısı olan kişilər işləmək, bəzi ailələrin isə bütün üzvləri birdəfəlik yaşamaq üçün köçüblər. Abşerona doğru köçənlər arasında işlə yanaşı, karyera, təhsil və evlilik səbəbindən də gələnlər çoxdur. Lənkəran şəhəri bu gün gənclərin təhsil və işlə bağlı karyera istəklərini tam ödəyə bilmir. Yardımlı turizmin inkişafı üçün əlverişli bölgə olsa da, kommunikasiya və yol infrastrukturunun zəif olmasına görə turistik bölgəyə çevrilə bilmir. Mövcud infrastrukturun, siyasi, sosial-iqtisadi imkanların aşağı olması səbəbindən əhali Bakı və Abşerona üz tutur.

### Urbanizasiya

Yuxarıda "Miqrasiya" bölməsində sadaladığımız kimi, dağətəyi kəndlərdə infrastrukturun aşağı olması insanların aran bölgələrinə, qəsəbələrə və rayon mərkəzinə köçməsinə rəvac verir. 2018-ci ildə şəhər və qəsəbələrdə yaşayan əhalinin sayı 29,7% təşkil edib. DSK-nın bu region üzrə şəhər əhalisinin payını 26,8% göstərdiyini nəzərə alsaq, deyə bilərik ki, kənd əhalisinin təqribən 3%-ə yaxını rayon mərkəzlərinə və qəsəbələrə köçüb. Regionda urbanizasiyalaşma Lənkəran, Cəlilabad və Astarada özünü göstərir. İqtisadi rayonda olan yeganə ali təhsil müəssisəsinin, eyni zamanda xüsusi tipli məktəblərin, səhiyyə və təhsil üzrə ixtisaslaşmış kadrların, habelə regional media qurumlarının Lənkəranda yerləşməsi buraya ətraf kənd, qəsəbə və rayonlardan köç imkanlarını artırıb. Məlum məsələdir ki, mirqasiyanı tətikləyən səbəblər təhsil, iş və müasir dövrün texnoloji trendləridir.

İqtisadi rayon üzrə Cəlilabadın təqribən 23, Astaranın 20, Masallının 14, Lerikin 23, Lənkəranın 8 kəndində yaşayış olan ev təsərrüfatlarının sayı kəskin aşağı düşüb. Hətta digər kəndlərdə əhalinin sayı bir neçə dəfə azalıb.

## III.5. QUBA-XAÇMAZ İQTİSADİ RAYONU

Quba-Xaçmaz iqtisadi rayonunun ümumi sahəsi 6,96 min kv/km olmaqla ölkə ərazisinin 8,0%-ni təşkil edir. Quba-Xaçmaz iqtisadi rayonu Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən rayonlarını əhatə edir. Bu rayonlar ölkənin əsas turizm bölgəsi sayılır. İqtisadi rayon özünəməxsus relyef xüsusiyyətlərinə malikdir. Regionun ərazisi bir-birindən kəskin fərqlənir. Ən hündür dağ zirvələrinin Qusarda yerləşməsi qış turizmi üçün, Qubanın mülayim təbiəti, istirahət mərkəzləri və gözəl təbiəti, isti mineral bulaqları, Xaçmazın Xəzər dənizinin sahili boyu 35-40 km məsafədə uzanan Nabran-Yalama kurort zonası, Şabranın Qalaaltı sanatoriya mərkəzi yay turizmi üçün çox əlverişlidir. Bu istirahət mərkəzlərinə Bakı və Abşeron əhalisi ilə yanaşı, Rusiya vətəndaşları da gəlir.

Bu iqtisadi regiona 5 rayon, 6 şəhər, 21 qəsəbə, 103 kənd inzibati ərazi dairəsi və 474 kənd yaşayış məntəqəsi daxildir.

Qeyd edək ki, Azərbaycanı Rusiya Federasiyası ilə bağlayan kommunikasiya xətlərinin bu regiondan keçməsi əlverişli sosial-iqtisadi imkanlar yaradır. Məhz buna görə region əhalisinin əsas gəlir yerlərindən biri Rusiyadır. Bundan əlavə, burada iqtisadiyyatın əsasını təşkil edən




**Diaqram 25.** *Quba-Xaçmaz iqtisadi rayonunun ölkənin makroiqtisadi göstəricilərində payı (%)*

**Mənbə:** *Dövlət Statistika Komitəsi və AR Mərkəzi Bankı*

kənd təsərrüfatı və balıq məhsulları üçün bazar tapmaqda o qədər də çətinliklər yaşanmır. İqtisadi rayonun paytaxt Bakıya yaxın olması onlara bu imkanı açır.

Xəzər dənizinin ətrafında yerləşməsi eyni zamanda, çimərlik turizminin inkişafına da təkan verir. Yay mövsümündə Nabran-Yalama kurort zonasının əsas qonaqları Bakı və Abşeron əhalisi olur.

Bundan başqa, Quba-Xaçmaz iqtisadi rayonunun ərazisində müxtəlif yeraltı sərvətlər var. Bunlardan ən geniş istifadə olunanı Siyəzən nefti, çınqıl və qumdur. Müxtəlif yeraltı sərvətlərin, xüsusilə neft ehtiyatlarının olmasına baxmayaraq, iqtisadi rayonun məhsul buraxılışında sənayenin payı aşağıdır. Qeyd etdiyimiz kimi, bu region, əsasən, aqrar və turizm bölgəsi kimi tanınır.

Quba-Xaçmazın iqtisadi baxımdan inkişaf etmiş rayonu Xaçmaz sayılsa da, rayonun mədəni tarixində Qubanın xüsusi önəmi olub. Quba tarixən bölgənin əsas mərkəzlərindən biri sayıldığından Azərbaycanın mədəni inkişafında, maarifçilikdə, dövlətçilik ənənələrində mühüm rola malikdir.

Quba-Xaçmazın məhsul buraxılışında payı 2,1%, əhalinin gəlirlərindəki payı 3,3%, əsaslı kapital qoyuluşundakı payı 2,6%-dir. "Regionların investisiya reytinqi"ndə ilk iyirmilikdə iqtisadi rayon üzrə yalnız Siyəzən (17-ci yer) yer alıb.

2018-ci ildə iqtisadi rayon üzrə orta aylıq əmək haqqı **331** manat təşkil edib. Bu rəqəm respublika üzrə orta aylıq əmək haqqı səviyyəsindən aşağı olsa da, digər iqtisadi rayonlarla müqayisədə yüksəkdir.

İqtisadi rayonda orta aylıq əmək haqqına görə ən yüksək göstərici Siyəzəndə (396,7 manat), ən ağaşı göstərici isə Qusarda (307,4 manat) müşahidə edilib. Siyəzəndə neft və qazın hasil olması rayonun əmək haqqı səviyyəsinə də təsir göstərir.




**Diaqram 26.** *Quba-Xaçmaz iqtisadi rayonunda orta aylıq əmək haqqı (manat)*

**Mənbə:** *Dövlət Statistika Komitəsi*

**Diaqram 27.**
*Quba-Xaçmaz iqtisadi rayonu üzrə miqrasiya səviyyəsi*

**Mənbə:**
*Sosial Tədqiqatlar Mərkəzinin tədqiqat qrupu*




## Demoqrafiya və miqrasiya

Quba-Xaçmaz iqtisadi rayonunun əhalisinin sayı **549,4** min nəfər olmaqla, ölkə əhalisinin **5,5%**-ni təşkil edir. Bununla regionda əhalinin orta sıxlığı hər kv/km-ə 79 nəfər düşür. Bölgənin relyefi və iqlim xüsusiyyətlərindən asılı olaraq, əhali əsasən Xəzər dənizinin sahillərində yerləşən düzənlik ərazilərdə məskunlaşıb. Bu baxımdan sözügedən iqtisadi rayonda əhalinin ən sıx yerləşdiyi rayon Xaçmaz sayılır. Burada əhalinin orta sıxlığı hər kv/km-ə 168 nəfər düşür.

Əhalinin etnik tərkibinə görə də Quba-Xaçmaz iqtisadi rayonu fərqlənir. Burada ləzgilər, tatlar, xınalıqlılar, buduqlar, qrızlar və s. etnik qruplar yaşayırlar.

Müstəqillikdən sonra sosial-iqtisadi vəziyyətin ağırlaşması, bir sıra sənaye müəssisələrinin fəaliyyətini dayandırması bölgədə işsizlik səviyyəsini artırıb. Nəticədə xüsusilə etnik qrupların və milli azlıqların yaşadığı kəndlərdən əhali sürətlə başqa şəhərlərə və ya ölkələrə köçüblər. Onların regionu tərk etməsi bölgənin zəngin etnik balansını pozur.

Tədqiqat qrupu tərəfindən 2018-ci il üçün Quba-Xaçmaz iqtisadi rayonu üzrə alternativ miqrasiya saldosu mənfi (-)11,5%, şəhər əhalisinin payı isə 37,5% müəyyən edilib.

Diaqram 27-də Quba-Xaçmaz iqtisadi rayonunun miqrasiya səviyyəsi təqdim edilir.

İqtisadi rayon üzrə miqrasiyanın müsbət saldosu az da olsa Siyəzəndə müşahidə edilir: +0,7%. Siyəzənin Bakı və Abşerona yaxın olması, burada neft yataqlarının mövcudluğu daxili miqrantları cəlb edir. **Rayondan ən yüksək miqrasiya isə -22,1% olmaqla Qubada müşahidə olunur.** Əslində Qubanın tarixi, mədəni, siyasi mərkəz statusunun tədricən zəifləməsi məskunlaşma üçün bölgəyə olan marağı azaldıb. Hazırda Quba daha çox aqrar bölgə olaraq inkişaf edir. Turizm potensialı isə tam olaraq istifadə olunmur. **Digər rayonların miqrasiya saldosuna gəlincə, Qusarda -4,2%, Xaçmazda -11,1%, Şabranda -3%, Siyəzəndə +0,7% olub.**

Quba-Xaçmaz iqtisadi rayonu üzrə miqrasiyanın xarakteristikasını aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

### ❖ Qaçqın və məcburi köçkünlərin Quba-Xaçmaz iqtisadi rayonunda yaratdığı miqrasiya

Quba-Xaçmaz iqtisadi rayonunun ölkənin şimal-şərqində və cəbhə bölgəsindən nisbətən uzaqda yerləşməsi böyük qaçqın və məcburi köçkün axını yaratmasa da, region zorakı miqrasiyadan kənarda qalmayıb. QMKİDK-nin məlumatına görə, iqtisadi rayonda 1250-dən bir qədər çox qaçqın və məcbur köçkün yerləşdirilib.




**Diaqram 28.**
*Quba-Xaçmaz iqtisadi rayonu üzrə yerləşən qaçqın və məcburi köçkünlərin sayı (nəfər)*

**Mənbə:**
*Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (2012-ci il yanvar)*

## ❖ İqtisadi rayon üzrə müvəqqəti miqrasiya

İqtisadi rayon üzrə müvəqqəti miqrasiya daha çox Qusar, Siyəzən, Quba, nisbətən də Xaçmazda müşahidə edilir. Bu rayonların istirahət mərkəzləri kimi tanınan məskənlərinə Bakıdan, Abşerondan, hətta Rusiyadan xeyli insan gəlir. İnsanların bir hissəsi adıçəkilən rayonlarda evlər tikərək müəyyən mövsümlərdə, xüsusilə yay aylarında orada yaşayırlar. Lakin daşınmaz əmlaka edilən yatırımların çoxluğu bölgənin miqrasiya saldosuna müsbət təsir göstərə bilmir.

## ❖ İqtisadi rayondan Rusiyaya emiqrasiya və Bakıya daimi miqrasiya

Qeyd edək ki, Quba-Xaçmaz iqtisadi rayonunda miqrasiyanın səviyyəsi kifayət qədər yüksəkdir. Regionun yalnız aqrar sektor üzrə inkişaf etməsi, iqtisadiyyatın inklüzivliyinin zəifliyi, sosial-mədəni inkişafın aşağı olması bölgədən əhali köçünü sürətləndirib. Apardığımız müşahidələr əsasında onu deyə bilərik ki, regionun hər 5 rayonundan Rusiyaya işləməyə gedən insanların sayı çoxdur. Belə ev təsərrüfatlarının bir qismində yalnız ailə başçısı, bəzilərində isə bütün ailə üzvləri Rusiyaya köçüblər.

Yeri gəlmişkən, DİM-in buraxılış və qəbul imtahanlarının nəticələrinə görə, iqtisadi rayon təhsil göstəricilərinə görə respublika üzrə yüksək mövqedə qərarlaşıb. Lakin təhsilini davam etdirmək istəyən gənclər Mingəçevirə, Gəncəyə və Bakıya getdikdən sonra öz doğulduqları şəhər və rayonlarda iş və karyera imkanları tapa bilmədikləri üçün geri qayıtmırlar. Bölgənin qadınları arasında isə evlilik səbəbindən Rusiyaya və Azərbaycanın digər rayonlarına köç etməsi halları çox müşahidə edilir.

## Urbanizasiya

Quba-Xaçmaz iqtisadi rayonu üzrə urbanizasiya daha çox Siyəzən, Xaçmaz və Şabranda özünü göstərir. Quba və Qusarın kəndlərində də əhalinin azalması müşahidə edilməkdədir. Xüsusilə, kommunal və kommunikasiya sistemi zəif olan kəndlərdə yaşayan insanlar daha yaxşı infrastrukturla təchiz olunmuş bölgələrə köçürlər. Qubanın Xaçmazla yaxın olan kəndlərindən Xudat şəhərinə zəif templə də olsa, miqrasiya baş verməkdədir. Tədqiqat qrupunun hesablamalarına görə, 2018-ci il üçün Quba-Xaçmaz iqtisadi rayonunda əhalinin 37,5%-i şəhər və qəsəbələrdə yaşayırlar. Rəsmi statistikada bu göstəricinin 33,1% olduğunu nəzərə alsaq aydın olur ki, hazırda kənd əhalisinin təqribən 4.4%-ə yaxını şəhər və qəsəbələrə köç edib.

Qubanın 28, Qusarın 14, Siyəzənin 9, Xaçmazın 14 kəndinin əhalisinin sayı minimum həddə düşüb.

**Diaqram 29.**
*Aran iqtisadi rayonunun ölkənin makroiqtisadi göstəricilərində payı (%)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi və AR Mərkəzi Bankı*




## II.6. ARAN İQTİSADİ RAYONU

18 inzibatı ərazi bölgüsündən ibarət olan Aran Azərbaycanın ən iri iqtisadi rayonudur. Sahəsi **21,15** min km² olmaqla ölkə ərazisinin **24,4%**-ni əhatə edir. Bakıdan Gürcüstana, İrana və Türkiyəyə gedən əsas yollar Aranın ərazisindən keçir. Yevlax respublikanın əsas magistral yollarının qovşağıdır. Aran iqtisadi rayonu Ağcabədi, Hacıqabul, Bərdə, Kürdəmir, Zərdab, Beyləqan, Neftçala, Salyan, Ağdaş, Ucar, İmişli, Biləsuvar, Saatlı, Göyçay və Sabirabad rayonlarını, Yevlax, Şirvan və Mingəçevir şəhərlərini əhatə edir. İqtisadi rayonda 18 şəhər, 15 rayon, 39 qəsəbə, 392 kənd inzibati ərazi dairəsi və 790 kənd yaşayış məntəqəsi vardır.

Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft-qaz sektorunda Aran iqtisadi rayonunun da payı mövcuddur. Neft ehtiyatlarının 80%-i Bakı və Abşeron arxipelaqı və Xəzər dənizinin şelf zonasına düşürsə, 20%-i Aran iqtisadi rayonunun və Siyəzənin payına düşür. Aran iqtisadi rayonuna 43 neft, qaz və kondensat ərazisi daxildir ki, bunlardan da 38-i istismar üçün əlverişlidir. Neftçala, Salyan, İmişli və Şirvanda hər il ortalama 440 min tondan çox neft, 50 mln. kub metrdən çox qaz hasil olunur.

"Ağ qızıl" sayılan pambıq istehsalında isə Aran iqtisadi rayonu liderdir. Aran iqtisadi rayonunun coğrafi amilləri burada bütövlükdə kənd təsərrüfatının, xüsusilə əkinçiliyin inkişafı üçün münbit şərait yaradır. Təsərrüfatlarda pambıqçılıq, taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və s. mühüm yer tutur.

Aran iqtisadi rayonuna tabe üç şəhər var: Mingəçevir, Şirvan və Yevlax. Respublikanın ən nəhəng su elektrik stansiyası Mingəçevir şəhərində yerləşir. Bu şəhər ölkənin energetika bazasında mühüm yerə malikdir. Ölkədə istehsal edilən elektrik enerjisinin 60%-i bu iqtisadi rayonun payına düşür. Eyni zamanda paytaxtın su ilə təminatının əhəmiyyətli hissəsi Mingəçevir su anbarı hesabına həyata keçirilir. Son illər Şirvan və Yevlax şəhərlərində də iqtisadi böyümə müşahidə edilməkdədir.

"Regionların investisiya reytinqi"ndə Aranın 5 rayonu və şəhəri - Mingəçevir, Şirvan, İmişli, Beyləqan və Bərdə ilk iyirmilikdə yer alıb. Sovet dövründə iqtisadi zona yüngül sənayedə əsas rol oynasa da, təəssüf ki, bu gün imkanlar zəifləyib. Regionun əsas iqtisadi gücü enerji ehtiyatları üzərindədir. Makroiqtisadi göstəricilərinə görə Bakıdan sonra ikinci yerdə gəlir. 2018-ci ildə əhalinin gəlirlərinin 12,8%-i, məhsul buraxılışının 8%-i Aran iqtisadi rayonunun payına düşüb (Bax: Diaqram 29).

İqtisadi rayon üzrə orta aylıq əmək haqqı **304** manat təşkil edir. Ən yüksək əmək haqqı Şirvan şəhərindədir: **455,2** manat. Şirvanda sənaye müəssisələrinin, o cümlədən ən böyük açıq tipli DRES-in burada yerləşməsi, həmçinin yağ, dəmir-beton məmulatları, saxsı boru və süni dəri zavodlarının və neft-qaz hasil edən müəssisələrin fəaliyyət göstərməsi şəhərin regionda iqtisadi əhəmiyyətini getdikcə artırır. Bu amil həmçinin sənaye şəhəri olması Şirvanda əmək haqlarının digər rayonlardan yüksək olmasına gətirib çıxarıb.




**Diaqram 30.**
*Aran iqtisadi rayonu üzrə orta aylıq əmək haqqı (manat)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi*

Salyan rayonunda da neft hasilatının olması əhalinin ümumi gəlirlərinə ciddi təsir göstərir. Şirvan şəhərindən sonra ən yüksək əmək haqqının (364 manat) bu rayonda olmasının əsas səbəbi də budur.

## Demoqrafiya və miqrasiya

DSK-nın məlumatına görə, Aran iqtisadi rayonunun əhalisinin sayı 2,02 milyon nəfərdir və ölkə əhalisinin 20,3%-ni təşkil edir. Sovet dövründə urbanizasiya siyasətinin həyata keçirilməsi zamanı Aran iqtisadi rayonu üçün xüsusi şəhər planı hazırlanaraq, burada bir neçə sənaye mərkəzi yaradılmışdı. Mingəçevir, Şirvan (1938-2008-ci illərdə Əli Bayramlı) və Yevlax kimi şəhərlər də məhz həmin vaxt salınıb. Bu dövrdə böyük sənaye müəssisələrinin tikilməsi və işçilərin bu ərazilərə təyinatı, ali və peşə təhsili müəssisələrinin tikilməsi şəhərlərin demoqrafik genişləməsində böyük rol oynayıb. Əhalinin sayının çoxalmasında təbii artımla yanaşı, miqrantların da rolu böyük olub. Sovet hakimiyyətinin repressiya illərindən və 1989-cu il Fərqanə hadisələrindən (özbək və Axısqa türkləri arasındakı münaqişə) sonra Aran rayonunun ərazisinə xeyli sayda Axısqa türkləri köçürülüb. Bununla paralel olaraq Mingəçevir şəhərində infrastrukturun qurulmasına respublikanın müxtəlif bölgələrindən minlərlə insan cəlb olunub. Onların əksəriyyəti sonradan bu şəhərin sakininə çevrilib.

Lakin müstəqilliyin ilk onilliyində proses bir qədər əksinə gedib. Aran iqtisadi rayonu üzrə bir sıra müəssisələrin fəaliyyətinin dayandırılması, ali və peşə məktəblərinin təqdim etdiyi ixtisaslar üzrə bazarlarda tələbatın azalması ilə tədris ocaqlarına abituriyent axınının aşağı düşməsi bu genişlənmənin tempini zəiflədib. Hazırda Mingəçevir, Yevlax və Şirvan şəhərlərinə köçənlərin sayı gedənlərin sayından yüksək olsa da, əksər rayonlarda miqrasiyanın saldosu mənfidir.

Aparılan alternativ hesablamalara əsasən deyə bilərik ki, Aran iqtisadi rayonunun miqrasiya saldosu mənfi (-)3,3%, şəhər əhalisinin payı isə 40,3% təşkil edir. Aran iqtisadi rayonu üzrə miqrasiya səviyyəsi diaqram 31-də təqdim edilir.

**İqtisadi rayonun miqrasiya səviyyəsinə görə müsbət tendensiya Mingəçevirdə 14,2%, Bərdədə 12%, Salyanda 17,9%, Şirvanda 1,1%, Yevlaxda 3,8% və Kürdəmirdə 1% müşahidə edilir. İqtisadi rayonda ən yüksək əhali köçü isə Saatlı (-27%), Beyləqan (-24,8%) və Hacıqabulda (-14,2%) müəyyən edilib.**

Aran iqtisadi rayonu üzrə miqrasiyanın başvermə səbəbləri müxtəlifdir. Region Ermənistan və Azərbaycan arasında 1989-1994-cü illərdə yaranan münaqişə zamanı öz yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin, o cümlədən 1989-cu ildə Özbəkistanın Fərqanə vadisində Axısqa türklərinə qarşı yeridilən "təmizləmə" siyasəti zamanı ölkəmizə pənah gətirən on minlərlə insanın çox böyük bir hissəsini qəbul edib. Bundan başqa, coğrafi relyefinə görə respublika əhəmiyyətli magistral yollarının əsas qovşağı sayılır. Bu baxımdan İran, Türkiyə və Gür-

**Diaqram 31.**
*Aran iqtisadi rayonu üzrə miqrasiya səviyyəsi*

**Mənbə:**
*Sosial Tədqiqatlar Mərkəzinin tədqiqat qrupu*




cüstandan keçən magistral yol qovşaqlarının burada yerləşməsi təsadüfi deyil. Paytaxta yaxınlığı iş tapmaq, məhsullarını bazara çıxarmaq imkanlarını artırır. Aran iqtisadi rayonu üzrə miqrasiyanın motivlərini aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

### ❖ Qaçqın və məcburi köçkünlərin Aran iqtisadi rayonunda yerləşdirilməsi

Aran iqtisadi rayonuna **158** minə yaxın məcburi köçkün yerləşdirilib və Bakıdan sonra ən böyük məcburi miqrant qəbul edən region hesab edilir. Diaqram 32-də iqtisadi rayonda yerləşdirilən qaçqın və məcburi köçkünlərin sayı təqdim edilir.

Aranın Yuxarı Qarabağ iqtisadi rayonu ilə həmsərhəd olması səbəbindən, xüsusilə Bərdə, Ağcabədi, Yevlax və Mingəçevir qaçqın və məcburi köçkün axını üçün əsas qapı sayılır. Məcburi köçkünlər Bərdə, Yevlax və Mingəçevirin demoqrafik vəziyyətinin dəyişməsində ən önəmli faktorlardan sayıla bilər. Ağdamda və Füzulidə qaçqın şəhərciyi tikildikdən sonra Bərdə və İmişlidəki çadır şəhərcikləri ləğv edildi və insanlar öz rayonlarına köçürüldü. Lakin ömürlərinin 20 ilini Bərdədə yaşayan və təsərrüfatlarını quran ailələrin bu rayonla əlaqəsi tam kəsilməyib. Müsa-

**Diaqram 32.**
*Aran iqtisadi rayonunda yerləşdirilən qaçqın və məcburi köçkünlərin sayı (nəfər)*

**Mənbə:**
*Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (2012-ci il yanvar)*



hibə apardığımız ailələr qeyd edirlər ki, əkin mövsümlərində onlar Bərdəyə gedirlər. Ağdamdan olan məcbir köçkünlərin bir qismi Bərdədə yaşadıqları müddətdə torpaq sahələri əldə edib, əkin-biçinlə məşğul olublar. Onlar Ağdamda yeni salınan qəsəbələrə köçürülsələr də, yenə dolanışıq yerləri həmin torpaq sahələridir. Ona görə də onlar əkin mövsümündə Bərdəyə müvəqqəti yaşamağa gedirlər. Bundan əlavə, yığım zamanı məhsulu bazarda satmaq üçün Bərdə Ağdam sakinləri üçün əsas məskən olur. Bu zaman ailə başçıları müəyyən bir müddət Ağdamı tərk edib Bərdədə yaşamalı olur.

### ❖ İqtisadi rayonda daxili miqrasiya

Ümumiyyətlə, Aran iqtisadi rayonunun düzən olması əhalinin məskunlaşması üçün önəmli faktorlardan sayılır. Çünki düzən rayonların kommunikasiya və kommunal təchizatı dağlıq və dağətəyi rayonlarla müqayisədə daha yaxşıdır. Nəticədə dağ kəndlərindəki əhali kommunikasiya və sosial obyektlərlə daha yaxşı təchiz olunmuş yaşayış məntəqələrinə üz tuturlar. Aranın da düzəngah bölgə olması infrastruktura əlçatanlığı asanlaşdırır. Sahibkarlar bu ərazilərdə fermer təsərrüfatlarını daha rahat qura bilirlər. Ona görə də Ağcabədi, Bərdə, Ağsu, İmişli, Hacıqabul və Sabirabadda iri fermer təsərrüfatlarının olması, Salyan, Şirvan və Neftçalada neftqaz hasilatı ətraf rayon və kəndlərdə yaşayan əhalinin buraya köçməsinə təkan verir.

Salyan rayonu üzrə miqrasiya müsbət saldoda göstərilsə də, əslində, 2009-cu illə müqayisədə 2018-ci ildə ev təsərrüfatlarının sayında azalma müşahidə edilir. 9 il ərzində 27 min insan ev təsərrüfatlarını tərk edib. Amma bununla yanaşı, rayonun Bakı ilə həmsərhəd olması, neft-qaz yataqları ilə zənginliyi, dənizə çıxışı Hacıqabul, Biləsuvar və digər rayonlardan buraya köçənlərin sayını artırır.

### ❖ İqtisadi rayonda sosial miqrasiya

Aparılan keyfiyyət sorğusu zamanı məlum olub ki, müəllimlərin elektron şəkildə işə qəbulu, habelə icbari tibbi sığortanın pilot olaraq Mingəçevir və Yevlaxda tətbiqi miqrasiya prosesinə təkan verib. Hətta miqrantlar arasında bakılılar da var. Çünki icbari tibbi sığorta sahəsində əsas mütəxəssislər Bakıda oxuyub və orada təcrübə qazanıblar. Regionlarda mütəxəssis çatışmazlığı səbəbindən dövlət tərəfindən kadrlar regionlara təyin edilir. Yuxarıda göstərdiyimiz kimi, həmin mütəxəssislər təyin olunduğu yerdə bilik və bacarıqlarının daim təşkilləşməsi üçün təlimlərin keçirilməsini zəruri sayırlar. Əks halda peşəkar kadrları yalnız maddi səbəbdən regionlara bağlamaq mümkün deyil.

### ❖ İqtisadi rayondan Bakıya miqrasiya və xarici ölkələrə emiqrasiya

Aran iqtisadi rayonundan miqrasiya iki istiqamətə doğrudur. Birincisi, bu iqtisadi rayondan paytaxt Bakıya axın yüksək səviyyədədir. Bunun əsas səbəblərindən biri rayonların bir çoxunun paytaxtla məsafəsinin yaxın olmasıdır. Ərazi baxımından ən böyük iqtisadi rayon olaraq tərkibində respublika tabeli 3 şəhərin olmasına baxmayaraq yalnız 1 ali təhsil müəssisəsi var. Mingəçevirdə yerləşən ali məktəbə Aran, Quba-Xaçmaz və Gəncə-Qazax iqtisadi rayonlarından da gəlirlər. Lakin aparılan keyfiyyət sorğusunda iştirak etmiş, Mingəçevirə köçmüş ali təhsilli insanların əsas narazılığı ixtisas təhsilləri üzrə magistr təhsilinin olmamasıdır.

**Sitat:** *“Mingəçevirdə ali məktəb olsa da, ixtisas sayları məhduddur. Məsələn, hüquqşünaslıq fakültəsi yoxdur. Eyni zamanda, ixtisaslar bakalavr səviyyəsindədir. Magistr təhsili almaq istəyirəm. Mingəçevirin ali məktəbində hüquqşünaslıq üzrə magistr təhsili yoxdur”.* (Mingəçevir, qadın, 32 yaş, hüquqşünas)

Buradan Rusiyaya köçən ailələrin və ailə başçılarının sayı da az deyil. Daha çox Neftçala, Saatlı, Beyləqan, İmişli, Bərdə və Sabirabad rayonlarından Rusiyaya köçüblər.

### Urbanizasiya

Aparılan təhlilə əsasən, Aran iqtisadi rayonunun şəhər əhalisinin ümumi əhalinin tərkibində payı 40,3% təşkil edir. DSK-nın statistikasına görə isə, bu iqtisadi rayonun şəhər əhalisinin payı 37.3% təşkil edir ki, bu da kənd əhalisinin təqribən 3%-nin şəhər və qəsəbələrə köçdüyünü deməyə əsas verir. Aran iqtisadi rayonunda üç respublika tabeli şəhərin olması, habelə bir sıra rayonlarda insanların kəndlərdən boşalan rayon mərkəzlərinə və qəsəbələrinə köçməsi regionun urbanizasiya səviyyəsini getdikcə artırır.

## II.7. DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONU

Dağlıq Şirvan iqtisadi rayonu Azərbaycanın qədim yaşayış məskənlərindəndir. İqtisadi rayonun tərkibinə Ağsu, İsmayıllı, Qobustan və Şamaxı inzibati rayonları daxildir. Dağlıq Şirvan iqtisadi rayonunun ən inkişaf etmiş və önəmli şəhəri Şamaxıdır. Şamaxı vaxtilə paytaxt şəhər kimi ölkənin mədəni inkişafında mühüm yer tutub, maarifçilik mərkəzlərindən biri kimi dövrünün ziyalılarını özündə toplayıb. XIX əsrdə Azərbaycanın 5 ən böyük şəhərlərindən biri olub. Lakin sovet dövründə iqtisadi rayonun siyasi, mədəni gücü tədricən kənd təsərrüfatı ilə məşğul olan bir iqtisadi zonaya doğru transfer edib, demoqrafik vəziyyət mənfiliyə doğru dəyişib. Buna təsir göstərən əsas amillər kimi Şamaxıda tez-tez zəlzələlərin baş verməsini, 1917-1920-ci il qırğınlarında yerli əhalinin soyqırımına məruz qalmasını və əhalinin Bakıya doğru kütləvi köç etməsini qeyd etmək olar.

Dağlıq Şirvan iqtisadi rayonunun iqtisadiyyatının əsasını aqrar sektorla yanaşı, turizm də müəyyən qədər təşkil edir. Rayona tabe olan İsmayıllı, Qobustan və Şamaxı turizm bölgəsi olaraq ölkənin ən tanınmış əraziləridir.

İqtisadi rayonun ümumi sahəsi 6,13 min kv/km olmaqla, ölkə ərazisinin 7%-ni təşkil edir. Regionda 4 şəhər, 4 rayon, 8 qəsəbə, 105 kənd inzibati ərazi dairəsi və 272 kənd yaşayış məntəqəsi vardır.

Hazırda Dağlıq Şirvan iqtisadi rayonu sənaye cəhətdən nisbətən zəif inkişaf edib. Rayonun sənayesinin əsasını yerli kənd təsərrüfatı məhsullarını emal edən yeyinti sənaye sahəsi təşkil edir. İqtisadi rayon başlıca olaraq əkinçilik, üzümçülük, şərabçılıq və heyvandarlıq üzrə ixtisaslaşıb. Əkinçilikdə aparıcı yeri taxılçılıq tutur. Dağlarda yayılan qara torpaqlarda kartof yetişdirilir, düzən sahələrdə pambıq əkilir.

Bundan əlavə, rayonda meşə və ağac emalı, tikinti materialları istehsalı (İsmayıllı rayonunda ağac emalı müəssisəsi, Şamaxı və Qobustan rayonlarında daş karxanaları, kərpic zavodu), kənd təsərrüfatı texnikasının təmiri müəssisələri mövcuddur.

İqtisadi rayonun Bakı və Sumqayıt kimi iri şəhərlərə yaxın yerləşməsi rayonun istirahət-rekreasiya ehtiyatlarından istifadənin həcmini xeyli artırır. Rayonun gözəl mənzərəyə, sərin iqlimə, keyfiyyətli, şirin və mineral sulara, tarixi abidələrə malik olması Bakı və digər iri şəhərlərin əhalisini özünə cəlb edir. Yay mövsümündə dincəlmək üçün əhalinin rayona axını güclənir ki, bu da bölgənin turizm sahəsinin, o cümlədən nəqliyyat, xidmət sahələrinin inkişafına müsbət təsir göstərir.

İqtisadi rayon üzrə sənayenin zəif inkişaf etməsi məhsul buraxılışındakı payının az olmasına gətirib çıxarır. Dağlıq Şirvanın ölkənin məhsul buraxılışındakı payı 1%, ümumi investisiyalarda payı 1,9%, əhalinin gəlirlərində payı 1,8% təşkil edir. “Regionların investisiya reytinqi”ndə sözügedən iqtisadi regiona aid olan heç bir rayonun adı ilk iyirmilikdə yer almayıb. Ərazinin turistik zona olaraq inkişafını təşkil etmək üçün böyük investisiyaya ehtiyac olduğunu nəzərə alsaq, onun reytinqdə aşağı pillələrdə qərarlaşması ürəkaçan vəziyyət yaratmır.

**Diaqram 33.**
*Dağlıq Şirvan iqtisadi rayonunun ölkənin makroiqtisadi göstəricilərində payı (%)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi və AR Mərkəzi Bankı*






**Diaqram 34.**
*Dağlıq Şirvan iqtisadi rayonu üzrə orta aylıq əmək haqqı (manat)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi*

İqtisadi rayon üzrə orta aylıq əmək haqqı **306,8** manat təşkil edir. Ən yüksək əmək haqqı Şamaxıdadır: **327,4** manat.

## Demoqrafiya və miqrasiya

Respublikanın digər iqtisadi rayonları ilə müqayisədə Dağlıq Şirvan iqtisadi rayonunda əhali nisbətən zəif məskunlaşıb. İqtisadi rayonun əhalisinin ümumi sayı **318,6 min** nəfərdir. Respublikanın 7%-nə sahib olan rayonun əhalisi ümumi ölkə əhalisinin 3,2%-ni təşkil edir. Əhalinin orta sıxlığı hər kv/km-də 52 nəfərdir.

Regionun coğrafi relyefinin dağlıq və düzənlik, eyni zamanda quraqlıq olması əhalinin yerləşməsində də mühüm rol oynayıb. İsmayıllının dağlıq, Qobustanın quraqlıq olması səbəbindən burada əhalinin sıxlığı daha az müşahidə edilir. Şamaxının tarixdən gələn mədəni-iqtisadi mərkəz statusu, Ağsuda isə kənd təsərrüfatına yararlı torpaqların mövcudluğu bu ərazilərdə əhalinin daha sıx məskunlaşmasına təkan verib. Əhalinin sıxlığı zəif olsa da, respublika üzrə əhalinin təbii artım əmsalına görə ən yüksək göstəriciyə malik olmaqla Lənkəran iqtisadi rayonu ilə eyni səviyyədədir. Dağlıq Şirvanda hər 1000 nəfərə düşən artım əmsalı 10,3-dür. Doğum əmsalı da hər 1000 nəfərə 16,3 olmaqla ölkə üzrə ən yüksək göstəriciyə malikdir. Ölüm əmsalına görə isə hər 1000 nəfərə düşən ölüm sayı 6 olmaqla orta yerdə qərarlaşıb. Yüksək təbii artım müqabilində Dağlıq Şirvanın əhalisi arasında miqrasiya da yüksəkdir.

2018-ci il üçün iqtisadi rayonun alternativ miqrasiya saldosu mənfi (-)11%, şəhər əhalisinin payı isə 33% təşkil edib.




**Diaqram 35.**
*Dağlıq Şirvan iqtisadi rayonu üzrə miqrasiya səviyyəsi*

**Mənbə:**
*Sosial Tədqiqatlar Mərkəzinin tədqiqat qrupu*

Dağlıq Şirvan iqtisadi rayonunun Abşeron iqtisadi rayonu ilə həmsərhəd olması, Bakıya daha yaxın məsafədə yerləşməsi miqrasiya axınına təsir edir. **Dağlıq Şirvanda miqrasiya saldosu yalnız Şamaxıda müsbətdir (0,5%). Əhalinin ən yüksək köçü İsmayıllıda (-28,3%) müşahidə olunur.** Bunun da əsas səbəblərindən biri İsmayıllının bir hissəsinin yüksək və orta dağlıq qurşaqda yerləşməsi, iş imkanlarının zəif, infrastruktur təchizatının aşağı olmasıdır. Yüksək dağlıq zonalarda sel əmələ gəlmə və sürüşmə ehtimalı çoxdur. Bu da yüksək dağətəyi ərazilərdə əhalinin məskunlaşması üçün bəzi çətinliklər yaradır. Belə ki, sürüşmələr nəticəsində kəndlərə gedən yollar kəsilir, otlaq və örüş əraziləri sıradan çıxır, əhalinin içməli suya, işığa olan tələbatının ödənilməsində çətinliklər yaranır. Yaz aylarında sel daşqınlarının güclənməsi müşahidə olunur. Xüsusilə qış aylarında əhali sosial vəziyyəti yaxşı olan, yol infrastrukturuna əlçatan bölgələrə köçürlər. **Tədqiqat qrupunun müəyyən etdiyi miqrasiya saldosu Qobustanda -10,5%, Ağsuda -7,7%-dir.**

Qobustan inzibati ərazi vahidi kimi müstəqillikdən sonra yaranıb. Əsasən, dəmyə taxılçılıqla və heyvandarlıqla məşğul olan əhalinin işləməsi üçün başqa məşğuliyyət hələ ki zəif təşkil olunur. İqliminin quraq olması meliorasiya çətinlikləri yaradır. Ona görə də Qobustandan da miqrasiya yüksəkdir.

Əgər İsmayıllıda miqrasiyaya təsir göstərən amil dağlıq bölgə kimi kommunikasiya əlçatanlığının zəif olmasıdırsa, Qobustan və Ağsu üçün bu amil quraqlıq bölgə olmasıdır. Daxili miqrasiyalarda ekoloji və təbii-coğrafi şərait də mühüm rol oynayır.

*“Bu amilin təsiri onilliklər boyu sürür. İnsanlar əkib-becərmə imkanı zəif olan, su çatışmazlığı yaşayan əraziləri tərk edib bunun əksi olan rayonlara, əksər hallarda şəhərlərə üz tuturlar. Bununla da bir qrup əhali kənd həyat tərzindən birdəfəlik ayrılıb formal olaraq şəhər sakininə çevrilir”* (Rövşən Kərimov, coğrafiya üzrə fəlsəfə dokturu, AMEA).

Ümumiyyətlə, Dağlıq Şirvan iqtisadi rayonunda miqrasiyanın xarakteristikasını təhlil etdikdə çoxşaxəli olduğunu demək olmaz. Digər iqtisadi rayonlarda olduğu kimi burada da miqrasiyanın motivlərini əsas 3 iqtiqamətdə təsnifatlaşdırmaq olar:

### ❖ Qaçqın və məcburi köçkünlərin Dağlıq Şirvan iqtisadi rayonunda yaratdığı miqrasiya səviyyəsi

QMKİDK-nin 2012-ci ilə dair məlumatına görə, iqtisadi rayonun ərazisində yerləşdirilən məcburi köçkünlərin sayı 6,6 min nəfər olub. Əslində, bu rəqəm bölgənin miqrasiya səviyyəsinə ciddi təsir göstərə bilməyib. Məsələn, ən çox qaçqın və məcburi köçkün İsmayıllıda yerləşsə də, buradan köçənlərin sayı da coxdur.

**Diaqram 36.**
*Dağlıq Şirvan iqtisadi rayonunda yerləşdirilən qaçqın və məcburi köçkünlərin sayı (nəfər)*

**Mənbə:**
*Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (2012-ci il yanvar)*



## ❖ İqtisadi rayon üzrə müvəqqəti miqrasiya

Müvəqqəti miqrasiya daha çox Şamaxı rayonunda müşahidə olunur. Pirqulu və digər istirahət yerlərində müəyyən mövsümlərdə gələnlərin sayı çox olur. Əsasən, paytaxt Bakı sakinləri olan bu insanların müəyyən bir qismi burada özləri üçün ev təsərrüfatı yaradıblar və mövsümi aylarda bura istirahətə gəlirlər. Eyni zamanda, mövsüm dövründə iaşə obyektləri aktiv işlədiyindən ətraf rayonlardan da qısamüddətli işçilər cəlb edilir. Bu proseslər Şamaxının miqrasiya saldosunun müsbət olmasına ciddi təsir göstərir.

## ❖ İqtisadi rayondan Abşerona miqrasiya və Rusiyaya emiqrasiya

Dağlıq Şirvandan Bakı və Abşerona axın yüksəkdir. Keçirilən sorğular və aparılan müşahidələr zamanı müəyyən edilib ki, Mingəçevir də Ağsu və İsmayıllı sakinləri üçün nisbətən cəlbedici bir şəhərdir. Lakin insanların Dağlıq Şirvandan Mingəçevirə getmələrinin səbəbləri arasında hərbi qulluqçuların təyinatı, təhsil faktorları önəm daşıyır. Hər bir halda Bakı və Abşeron öz cəlbediciliyinə görə Mingəçevirdən çox öndədir. Çünki Dağlıq Şirvan iqtisadi rayonunda ali və peşə təhsili müəssisələrinin sayı azdır. Belə ki, burada yalnız Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı və 1 iqtisadi kollec fəaliyyət göstərir. Belə olan halda iqtisadi rayonda yaşayan və təhsilini davam etdirmək istəyən gənclər Bakıya üz tuturlar. Təhsilli mütəxəssislərin öz rayonlarında iş tapmaq imkanları məhdud olduğundan geri qayıtmaq şansları da azdır.

Əgər gənclərin Bakıya köç etməsinin əsas səbəbi kimi təhsil amili üstünlük təşkil edirsə, orta nəsil iş tapmaq üçün daha çox Rusiyaya üz tutur. Regiondan Rusiyaya gedənlər arasında Ağsu və İsmayıllı sakinləri üstünlük təşkil edir.

## Urbanizasiya

Tədqiqat qrupunun gəldiyi qənaətə əsasən, 2018-ci ildə regionun əhalisinin 33%-i şəhər yerində yaşayıb. Digər iqtisadi rayonlardan fərqli olaraq, Dağlıq Şirvanda şəhər əhalisinin tempində azalma özünü göstərir. Rəsmi statistikaya görə, iqtisadi rayonun əhalisinin 34,2%-i şəhər yerlərində yaşayır. Şəhər əhalisinin sürətlə azalması daha çox Ağsu və İsmayıllıda müşahidə edilir. Şamaxının qədim şəhər ənənəsindən irəli gələrək burada urbanizasiyanın genişlənməsi müəyyən edilib. Ətraf rayon və kəndlərdən Şamaxının rayon mərkəzinə və qəsəbələrinə doğru axın var. Lakin digər tərəfdən buranın yerli sakinləri iş, sosial və siyasi karyeralarını qurmaq üçün Bakıya gəlməli olurlar.

Şamaxanın 13, Qobustanın 4, İsmayıllının 29, Ağsunun 12-yə yaxın kəndində yaşayan əhalinin sayı minimum həddə düşüb.

## II.8. PAYTAXT BAKI ŞƏHƏRİ

Tarixən paytaxt olması, müxtəlif dini inancların (atəşpərəstlik, xristianlıq və islam dini) burada sərbəst fəaliyyət göstərə bilməsi, böyük ticarət yollarının kəsişməsində yerləşməsi Bakının əhəmiyyətini artırıb. Buna görə də Bakı, adətən, Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu məkan kimi də xarakterizə edilir.

XIX əsrin ortalarından başlayaraq, neftdən gələn gəlirlər hesabına böyük sərmayələrin axını Bakı üçün yeni dönəm yaradıb, "miqrasiya bumu”na təkan verib. Əgər Bakı 1854-cü ildə demoqrafik vəziyyətinə görə 3,8 min əhalisi ilə Şimali Azərbaycanda 5-ci yerdə gəlirdisə, 1859-cu ildə Şamaxıda baş verən zəlzələdən sonra 13,5 min əhalisi ilə quberniyaya çevrilir. Həmin illərdə neft hasilatı ilə bağlı kəşf olunan texnologiyalar paytaxta doğru işçi miqrantların kütləvi axınını yaradır. Bakıda neft hasilatı və bu sənayenin sürətli inkişafı kapitalist münasibətlərinin formalaşmasına səbəb olur. Bakı bu dövrdə həm sənaye, həm də əhalinin artımına görə təkcə respublika ərazisində deyil, Rusiya imperiyasında da ilk pillələrdən birini tutur. Erməni, rus və digər qeyri-müsəlman xalqların Bakıya köçməsi də məhz bu dövrdən başlayır. Nəticədə Bakının iqtisadiyyatı genişləndikcə əhalisi də sürətlə artmağa başlayır. 1887-ci ildə Bakıda əhalinin sayı 112 min nəfərə çatır. Şəhərin nəqliyyat, təsərrüfat infrastrukturu yenidən qurulur, müasir texnologiya əsasında müəssisələr, binalar tikilir. Bakı XX əsrdə Qafqaz regionunda ən böyük şəhər, XXI əsrdə isə Yaxın Şərq, Mərkəzi Asiya və Şərqi Avropa regionlarında yerləşən 10 qlobal şəhərdən birinə cevrilir. Bakı bu regionları birləşdirən və Böyük

**Diaqram 37.**
*Bakı şəhərinin ölkənin makroiqtisadi göstəricilərində payı (%)*

**Mənbə:**
*Dövlət Statistika Komitəsi və AR Mərkəzi Bankı*




İpək yolunun mərkəzində yerləşən ən böyük qovşaq olmaqla yanaşı, dünyanın mədəni, ticarət, idman, turizm və s. kimi mötəbər tədbirlərinin keçirildiyi mərkəzlərdən biridir. Mövcud geosiyası, sosial-iqtisadi, demoqrafik şəraitə uyğun əhali məskunlaşmasının təkmilləşdirilməsi yolları və idarə olunmasının strateji və geosiyasi zəruriliyini nəzərə alaraq yeni məskunlaşma konsepsiyası regional xüsusiyyətə uyğun olaraq işlənmişdir.

Müstəqillik illərində də Azərbaycan iqtisadiyyatında əhəmiyyətli rolu olan neft sənayesi əsas etibarilə Bakı ətrafında cəmləşib. “Regionların investisiya reytinqi”ndə Bakının mövqeyi birinci yerdədir.

2018-ci ildə ölkənin məhsul buraxılışında **Bakının payı 72,3%, əhalinin gəlirlərində payı 57,7%, ümumi investisiyalarda payı 62,2% təşkil edib (Bax: Diaqram 37).**

Ölkə iqtisadiyyatına yatırılmış birbaşa investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi **86%** olduğu üçün sərmayə axını daha çox Bakıya yönəlib. Eyni zamanda, maliyyə qurumlarının kredit qoyuluşunda Bakının payının **80,3%**-ə, əmanət qoyuluşunun **90,3%**-ə yaxın olması paytaxtla regionlar arasında kəskin fərq yaradır. Çünki ölkədə gəlirlərin bir regionda toplanması demoqrafik, iqtisadi və sosial disbalans yaradır.

Bakı Qafqazda ən əhəmiyyətli turistik məkanlardan biri sayılır. Bakı 2014-cü ildə “Forbes” jurnalının rusiyalılar üçün biznes qurulması sahəsində ən cəlbedici keçmiş SSRİ şəhərlərinin reytinqində top onluğa düşüb. 2015-ci ildə Bakı “Lonely Planet” nəşrinin səyahət edilməli ən maraqlı məkanların reytinqində 7-ci sırada, “New York Times” qəzetinin "2015-ci ildə səfər etmək üçün dünyanın ən yaxşı yerləri" reytinqində isə 51-ci yerdə qərarlaşıb.

Bakının hazırda ümumi sahəsi 2130 kv/km olmaqla ölkə ərazisinin 2,5%-ni təşkil edir. Bakı şəhərinin tərkibinə 12 inzibati rayon və 59 qəsəbə daxildir.

## Demoqrafiya və miqrasiya

DSK-nın məlumatına görə, 01.01.2019-cu il üçün Bakı əhalisinin sayı 2,3 milyon nəfər təşkil edib. Ölkənin 2,5% ərazisində əhalinin 22.8%-nin yerləşməsi paytaxtda əhali sıxlığının səviyyəsini göstərir. Hazırda paytaxtda hər kv/km-ə düşən əhali sayı 1064 nəfərdir. Bakının qeyri-rəsmi əhalisinin sayının da ildən-ilə artdığını nəzərə alsaq, Azərbaycanda miqrasiyanın bir istiqamətdə getdiyini görmək olur.

Ümumiyyətlə, XIX əsrin ortalarından etibarən Bakının demoqrafiyasının genişlənməsində təbii artımın rolu aşağıdır. Belə ki, 2018-ci il üçün hər 1000 nəfərə düşən əhali artımı 7.3 olmaqla respublika üzrə ən aşağı göstəriciyə malikdir. Əhalinin təbii artım tempinin ildən-ilə aşağı düşməsinin başlıca səbəbi ailə planlaşdırılmasının iri şəhərlərdə daha sistemli olmasıdır. Bakı əhalisinin sürətli artımı daha çox miqrantların hesabına baş verir.

Bakının tarixən iqtisadi, mədəni-sosial mərkəz olması regionlardan buraya axın yaradır. Təbii olaraq, harada inkişaf varsa, insanlar da oraya meyil edir. Sovet dövründə Bakıya axının qarşısının alınmasında inzibati yollardan istifadə edilirdi. Belə ki, 1970-ci illərdə qəbul edilən “Yaşayış yeri və olduğu yer haqqında” Qanuna

görə, Bakıya qeydiyyat məhdudlaşdırılmışdı. Əgər digər şəhərlərə qeydiyyata düşmək üçün evlilik, mənzilə sahib olmaq və dövlət tərəfindən təyinatla mümkün idisə, Bakı üçün bu şərtlər bir qədər sərtləşdirilmişdi. Faktiki olaraq, əhalinin paytaxta köçməsinin qarşısı Bakı Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin qərarı ilə alınmışdı. Sovet dövründə aparılan bu siyasət miqrasiyanı digər şəhərlərə doğru yönəltmişdi. Bu məhdudlaşdırma eyni zamanda Azərbaycanda urbanizasiyanın digər postsovet ölkələri ilə müqayisədə tempinin aşağı düşməsinə gətirib çıxarmışdı (bax: Qrafik 3). Lakin müstəqillikdən sonra vətəndaşların qeydiyyata düşmə ilə bağlı məhdudiyyətləri aradan qalxdı. Nəticədə, 30 il ərzində ölkənin daxili miqrasiyasında Bakı ilə rəqabətdə ola biləcək digər şəhər ortaya çıxmayıb. Abşeron iqtisadi rayonunun da böyüməsi məhz Bakıdan asılı bir vəziyyətdədir. Belə ki, Sumqayıt, Xırdalan və Abşeron əhalisinin əksəriyyətinin iş yerləri Bakıda yerləşir. Ötən əsrin 90-cı illərinə qədər Bakının ərazisində 30-dan çox kənd olubsa, paytaxtın ətraf yaşayış məntəqələrinin sürətlə böyüməsi nəticəsində kəndlər qəsəbə statusu alıb. Hətta qəsəbə və kəndlər inzibati ərazi olaraq Bakının tabeliyindən çıxarılaraq Abşeron rayonuna verilib. Bu baxımdan Bakı ətrafındakı yaşayış məntəqələrinin, şəhərlərin istehsal, nəqliyyat və mədəni əlaqələrlə birləşməsilə regionda monomərkəz və ya aqlomerasiya yaranıb.

**2018-ci il üçün Bakının alternativ miqrasiya saldosu müsbət (+)35,7% təşkil edib.** 2009-cu illə müqayisədə 2018-ci ildə ev təsərrüfatlarının 11%-i miqrantların hesabına artıb. Bakının təsiri altında ətraf şəhər və qəsəbələrin böyüməsi ümumilikdə **Abşeron yarımadasının miqrasiya saldosunu müsbət (+) 65%-ə çatdırıb.**

Bakıya gələn miqrantların böyük hissəsi Xəzər[17], Sabunçu və Binəqədi rayonlarında yerləşib. **Həmin rayonların miqrasiya saldosu müvafiq olaraq +105,8% (2 dəfə çox), +85,4% və +52,1% təşkil edir. Bundan əlavə, mirqasiya saldosu Qaradağda +19,2%, Səbaildə +22,2%, Suraxanıda +36,3%, Nərimanovda +32,4%, Nizamidə +13,2%, Xətaidə +20,6%, Yasamalda +7,9% təşkil edib.** Nəsimi və Yasamal rayonlarında şəhərsalmanın yenidən qurulması ilə əlaqədar burada yerləşmə nisbətən azalıb. Nəsimi rayonu ərazisində tikililərin azalması və söküntü işləri ilə əlaqədar əhalinin köçürülməsi buranın miqrasiya saldosunu mənfiyə salıb: -4,4%. Lakin Nəsimi rayonunda daimi miqrasiya azalsa da, "rəqqasvari" miqrasiya ən pik səviyyədə müşahidə olunur. Belə ki, rayonda daşınmaz əmlakın qiymətinin digər rayonlarla müqayisədə yüksək olması mənzil əldə etmək imkanlarında əlaçatanlığı azaldır. Lakin onu da qeyd etmək lazımdır ki, paytaxtın məşğulluq imkanlarına görə adıçəkilən rayon ən aktiv bölgələrdən biridir. Nəsimi ən iri iaşə obyektlərinin, mehmanxanaların, plazaların, beynəlxalq və yerli təşkilatların ofislərinin, müəssisələrin, səfirliklərin yerləşdiyi əsas rayonlardan biridir. Bu səbəbdən Nəsimidə daimi yaşa-

[17]**Qeyd:** *Elektrik enerjisi istehlak edən abonentlər üzrə Pirallahı və Xəzər rayonlarının qəsəbə və küçələri bir yerdə verildiyinə görə ev təsərrüfatları üzrə statistik baza da birləşdirilib. Bu səbəbdən Xəzər və Pirallahı rayonları üzrə miqrasiya saldosu bir yerdə təqdim edilir*







**Diaqram 38.**
*Bakı üzrə miqrasiya səviyyəsi*

**Mənbə:**
*Sosial Tədqiqatlar Mərkəzinin tədqiqat qrupu*

**Diaqram 39.**
*Bakı üzrə yerləşdirilən qaçqın və məcburi köçkünlərin sayı (nəfər)*

**Mənbə:**
*Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (2012-ci il yanvar)*




yan insanların tempində azalma müşahidə edilsə də, rayon hər gün on minlərlə insan qəbul edir və paytaxtda ən sıx tıxac müşahidə olunan ərazidir.

Binəqədi, Sabunçu və Xəzər rayonlarında daşınmaz əmlakın Bakının digər rayonları ilə müqayisədə ucuz olması burada ev təsərrüfatlarının sayının sürətlə artmasına, miqrantların məskunlaşmasına rəvac verir.

Bakıda miqrasiyanın xarakteristikası mürəkkəbdir. Çünki bir paytaxt kimi iş, sosial və siyasi imkanlarına görə güclü olması digər regionların əhalisini özünə cəlb edir. Yuxarıda qeyd olunduğu kimi, sovet dövründə Bakı şəhərində qeydiyyatsız yaşamağa, işləməyə qoyulan qadağa aradan qalxdıqdan sonra uzun illər boyu regionlarda işsizlik, elektrik, qaz, su problemlərindən əziyyət çəkən əhali ya qonşu ölkələrə, ya da paytaxta axın edib və bu proses indi də davam etməkdədir: gənclərin böyük hissəsi ya ali təhsil almaq, ya da iş üçün Bakı və Sumqayıta üz tuturlar. Rayonlarda, xüsusilə kəndlərdə yaşayanların böyük əksəriyyəti yaşlılardır.

Eyni zamanda, böyük təcrübə qazanmış mütəxəssislərin başqa ölkələrə köçməsində Bakı keçid rolunu oynayır. Bunu daha sadə dildə izah edərək demək olar ki, hansısa rayondan bir gənc Bakıya oxumağa gəlir. Bu gənc paytaxtdakı universitetdə oxuduqdan sonra burada işləyib təcrübə toplayır. Topladığı təcrübəni artırmaq və yeni həyat axtarışı üçün başqa ölkələrə köçür.

## Qaçqın və məcburi köçkünlərin paytaxt Bakıda şərtləndirdiyi miqrasiya prosesləri

Keçmiş SSRİ-nin son illərində (1988-1990) və müstəqilliyin ilk illərində bütün postsovet ölkələrində olduğu kimi Azərbaycanda da yaranan sosial-iqtisadi böhran, münaqişələr xalqların miqrasiya vəziyyətinə ciddi təsir göstərdi. Azərbaycanda, xüsusilə Bakı, Sumqayıt və Mingəçevirdə yaşayan erməni, rus, yəhudi əsilli ailələrin kütləvi köçü baş verdi, eyni zamanda postsovet respublikalarında yaşayan azərbaycanlıların da Azərbaycana könüllü və zoraki (Ermənistan və Gürcüstandan) köçməsi prosesi müşahidə edildi. Ermənistanla müharibə vəziyyətinin yaranması, torpaqlarımızın işğal edilməsi, insanların öz torpaqlarından didərgin düşməsi respublika ərazisində xaotik bir miqrasiya prosesinin yaşanmasına gətirib çıxardı. Bakı paytaxt kimi məcburi miqrasiyanın yaratdığı sosial, iqtisadi fəsadları öz “çiyinlərin”də çəkməli oldu. 2012-ci ilin məlumatına görə, qaçqın və məcburi köçkünlərin 190 min nəfəri Bakıda yerləşdirilib (Bax: Diaqram 39).

## Bakının aqlomerasiyası və suburbanizasiyanın tarixi-sosial aspektləri

Keçən əsrin 90-cı illərində Bakı aqlomerasiyasının sosial-iqtisadi və demoqrafik inkişafı məskunlaşmanın ərazi təşkilində suburbanizasiya prosesini sürətləndirib. Suburbanizasiya əhalinin iri şəhərlərdən şəhər ətrafına köçməsi prosesinə deyilir. Nəticədə, Bakı ətrafında yeni peyk şəhərlərin, qəsəbələrin salınması ilə nəhəng şəhər aqlomerasiyası formalaşıb. XIX əsrin sonlarından başlayaraq Bakıda neft sənayesinin inkişafı ilə əlaqədar şəhər ətrafında 10-a yaxın fəhlə qəsəbələri yaradılır və bu ərazi sənaye-mədən rayonu statusu alır ki, suburbanizasiyanın da ilk təməli məhz bu dövrdə qoyulur. Daha sonra sovet dövründə sənayenin, istehsalın və əhalinin bu şəhərdə cəmlənməsi daha da sürətlənərək aqlomerasiyanı formalaşdırır.

Bakı aqlomerasiyasının formalaşması tarixinə nəzər salsaq görərik ki, neft sənayesinin inkişafı nəticəsində XIX əsrin sonuna yaxın böyük bir şəhər kimi, XX əsrin əvvəllərindən isə şəhər aqlomerasiyası kimi dinamik inkişaf edib. 1903-cü ildə şəhər ətrafında olan və yaxınlığında neft çıxarılan kəndlər - Sabunçu, Balaxanı, Ramana, Zabrat, Binəqədi, Bibiheybət, Suraxanı, Əmircan, Bülbülə, Zığ, Əhmədli, Keşlə və Kirməki yeni yaradılan mədən-zavod rayonunun tərkibinə aid edilib. Onların yaxınlığında isə fəhlə qəsəbələri formalaşıb. Həmin ildə bu kəndlərin əhalisi 14,8 min nəfər, fəhlə qəsəbələrinin əhalisi 36,1 min nəfər idi. 1913-cü ildə Bakı əhalisi 214,7 min nəfər olmaqla, 25 inzibati vahiddə yerləşirdi, mədən-zavod ərazisinə daxil olan kəndlərin əhalisi isə 10 ilə 51,4 min nəfərə, qəsəbələrdə 67,9 min nəfərə, bütövlükdə 119,3 min nəfərə çatmışdı.

Sovet hakimiyyəti illərində Azərbaycanda Bakının Abşeron ərazisi ilə birlikdə planlaşdırılması aparılmış və bu plana uyğun olaraq ilk dəfə şəhərsalmada fəhlə qəsəbələrinin tikinti planlaması verilmişdi. Bunlar Yeni Keşlə (Montin), Bakıxanov, Qaraçuxur, Binəqədi, Məmmədyarov (Rəsulzadə), Suraxanı və Binəqədi idi. Bakı ətrafında 1939-cu ildə 38 qəsəbə var idi. 1939-cu ildə Bakı şəhər sovetliyinə aid olan əhalinin sayı 809 min nəfər idi, bunun da 544 min nəfəri şəhərdə, 265 min nəfəri şəhər ətrafında, 21,1 min nəfəri kəndlərdə yaşayırdı. 1921-1959-cu illər ərzində Bakı əhalisi 193,6 min nəfərdən 642,5 min nəfərədək, yəni 3,3 dəfə artdığı halda, şəhər ətrafında yerləşən mədən-zavod rayonunda isə əhali sayı 61,9 mindən 328,6 min nəfərədək və ya 5,3 dəfə artmışdı.

1959-1989-cu illərdə Bakı aqlomerasiyasında əhalinin sayı 2 dəfədən çox artdığı halda, bu artım Bakı ərazi dairəsində 1,8 dəfə, Sumqayıt ərazi dairəsində isə 4,8 dəfə çox özünü göstərmişdi. Sovet dövründə şəhər əhalisinin artımında və qəsəbələrin əmələ gəlməsində Abşeronun kəndlərinin böyük rolu olmuşdur. Bu kəndlərin əhalisi 1960-cı ildən sonra Bakı-Sumqayıt sənaye qovşağının müəssisələrində işləyirdi. Bu kəndlərdə bir sıra sənaye və aqrar-sənaye obyektlərinin yerləşdirilməsi onların şəhər tipli qəsəbələrə çevrilməsinə şərait yaratdı. Bu proses nəticəsində keçmiş mədən-zavod rayonunun qəsəbələri daha sürətlə inkişaf edərək şəhərin inzibati sərhədlərinə birləşdi. Bu dövrdə şəhərdən 5-10 km məsafədə olan qəsəbələrdə sənaye, 10-20 km məsafədə olanlarda aqrar-sənaye, 20-30 km uzaqlıqda yerləşən qəsəbələrdə istirahət-sağlamlıq müəssisələrinin, turizm mərkəzlərinin yaranması qəsəbələrin inkişafını sürətləndirmiş, burada əhalinin sayının 30 ilə (1959-1989) 2,1 dəfə artmasına səbəb olmuşdur.

Abşeron ərazisində sənayeləşmənin intensiv inkişafı nəticəsində kəndlərin böyüyüb qəsəbəyə çevrilməsi prosesi sürətlənib. 1960-cı illərdə Böyük Bakı ətrafında aqrosənaye komplekslərinin inkişafı ilə əlaqədar 1963-cü ildə Abşeron kənd rayonu yaradılmışdı. Bu rayon qurulanda tərkibində ancaq Xırdalan və Ceyranbatan qəsəbələri olsa da, 1960-cı illərin ortalarında Qobu, Hökməli, Digah və Güzdək qəsəbələri də bu rayona aid edildi.

1990-cı illərdə qəsəbələrin sayı artmaqda davam edib, hətta bəzi qəsəbələr şəhər statusu alıb. Rayon mərkəzləri olan Xırdalan qəsəbəsinə 2006-cı ildə, Xızıya 2008-ci ildə şəhər statusu verilib.

Azərbaycanda sovet hakimiyyətinin sonlarına doğru plana uyğun olaraq qərb yaşayış zonasına daxil olan Badamdar, Qanlıgöl, Yeni Yasamal, Rəsulzadə, Biləcəri, 8 və 9-cu mikrorayonlarda, həmçinin bu əraziyə yaxın olan qəsəbələrdən Xırdalan, Sahil və Lökbatanda məskunlaşma

sürətlə artıb.

Hazırda Bakı aqlomerasiyası 2 peyk şəhər, 72 qəsəbə və 10-dan çox kəndi özündə cəmləşdirir. Bakı şəhər ərazi dairəsində 59, Sumqayıt şəhər ərazi dairəsində 2, Abşeron rayonunda 8, Xızı rayonunda 3 qəsəbə yerləşir. Sovet dövründə Bakının 30-50 km-liyində 10-a yaxın peyk şəhərin yaradılması planı isə öz həllini tapmadı.

## Bakı və ətraf qəsəbələrin böyüməsi və miqrasiyanın qeyri-bərabər paylanması

**Ekspertlər bunu bir neçə amilə bağlayırlar: iqtisadi, sosial-mədəni, siyasi və s.**

**Burada iqtisadi amil ən önəmli səbəbdir.** Təbii olaraq, insanlar qazanc və iş imkanlarının geniş olduğu yerlərə köçürlər. Əgər infrastruktur layihələri həmin şəhərlərə tətbiq olunsa, urbanizasiyanın istiqaməti o şəhərlərə yönələcək. Bu baxımdan Azərbaycanın bütün bölgələrinin iqtisadi potensialı Bakı ilə müqayisədə zəifdir. Ölkənin kredit qoyuluşunun 80%-nin, investisiya qoyuluşunun isə 62,2%-ə yaxınının Bakının payına düşməsi onu göstərir ki, ölkə üzrə sərmayə axını paytaxta doğrudur. Böyük investisiyaların yatırıldığı şəhərlərdə təklif olunan iş yerlərinin sayı, növü və ixtisas tələbləri daha çox sayda olur.

Regionlar üzrə (Bakı istisna olmaqla) 2010-2018-ci illərdə tikinti və qeyri-tikinti sektoruna qoyulan investisiyaların əhalinin gəlirləri və məhsul buraxılışı arasında apardığımız korrelyasiyasından aydın olur ki, qeyri-tikinti sektoru ilə müqayisədə tikinti sektoruna yönələn yatırımların bölgələrdəki gəlir və məhsul buraxılışında əyri xətti daha yüksəkdir. Bu o deməkdir ki, regionlarda məşğulluq əsasən dövlət investisiya vəsaitləri hesabına həyata keçirilən layihələrlə təmin olunur. Bu baxımdan qeyri-tikintiyə yönələn vəsaitlərin bölgələr üzrə bərabər çəkisini yaratmaq üçün maliyyə əlçatanlığını artırmaq, özəl sektorda məşğulluq imkanlarını genişləndirmək lazımdır.

*"Kənd və regionların əhalisinə nisbətən Bakıda və Abşeron yarımadasında əhalinin orta saatına qazandığı pul daha yüksəkdir. Bundan əlavə, regionlarda məşğulluq imkanlarının generasiyası Bakıdan geri qalır. Bir-iki regionda turizmin inkişafını kənara qoysaq, qalan bütün regionlar üçün kənd təsərrüfatı səciyyəvidir. Kənd təsərrüfatı üçün də çoxlu işçiyə ehtiyac yoxdur. Texnologiyalar gəldikcə, innovasiyalar artdıqca hal-hazırda onların sayı azalmağa doğru gedir. Beləliklə, istiqamət kənddən şəhərə doğru yönəlir. Bir çox xidmətlər, məsələn, ictimai xidmətlər (məktəblər, universitetlər, bağçalar, logistika, kinoteatr, səhiyyə və s.) Bakıda yerləşir. Gənclərin çoxu oxumağa Bakıya gəlir. Daha sonra isə artıq burada məskunlaşırlar"* (Anar Vəliyev, ADA-nın İctimai və beynəlxalq münasibətlər fakültəsinin dekanı).

**Sosial-mədəni təsirlər arasında isə təhsil faktorunu göstərmək olar.** Sovet dövründən bu günə qədər elm, ədəbiyyat və sənət infrastrukturu əsasən Bakı şəhərində cəmləşdiyindən insanlar təhsil almaq, sənət sahibi olmaq üçün ucqar yerlərdən Bakıya gəlmək məcburiyyətində qalıblar. Bu gün ən nüfuzlu ali təhsil ocaqları, ən mükəmməl incəsənət infrastrukturu əsasən Bakıda cəmləşib. Bu da Bakıda mədəni, sivil atmosfer yaradır. Gənclər daha çox iki səbəbdən Bakıda qalmağa üstünlük verir - mədəni və iqtisadi. Onlar paytaxtda mədəni düşüncələrini püxtələşdirdikdən sonra əyalətdə özlərini ifadə edə bilmirlər. Ali təhsildən sonra onlar üçün daha əlverişli mühit Bakı olur.

*"Bakı tarixən paytaxt olduğuna, mədəni inkişaf səviyyəsinə, təhsil və sosial səviyyəsinə görə bölgələrdən bir addım öndə olub. Ona görə də insanlar Bakıda özlərini daha güvəndə hiss edirlər. Məsələn, miqrasiyanın ən yüksək axını olan 90-ci illərin sonlarında bölgələrdə insanlar keyfiyyətli səhiyyə xidməti və təhsil əldə edə bilmirdilər. Hətta rayonlardan müəllimlər repetitorluq imkanlarının geniş olmasına, xüsusilə daha gəlirli ailələrin uşaqlarına əlavə təhsil vermək keyfiyyətlərinin olmasına görə Bakıya gəldilər.*

*Bölgələrdən paytaxta beyin axını başladı, müəllimlər, həkimlər, mədəniyyət işçiləri gəldi. Eyni zamanda adi insanlar bu yaradıcı insanların arxasınca Bakıya axın etdilər.*

*Bundan əlavə, mədəni inkişafla bağlı regionlarla paytaxt arasında fərqlər yarandı. İnsanlar rayonlarda adi normal idman qurğuları tapıb övladlarını idmana yönəldə bilmirdirlər. Rayon mərkəzində belə qurğular olsa da, hər dəfə kəndlərdən rayon mərkəzinə getmək böyük xərc tələb edirdi. Bakıda isə bu imkanları daha rahat*

*şəkildə əldə edə bilirdirlər. Sosial-mədəni infrastruktura əlçatanlıq regionlarda çox aşağı idi və bu da insanların miqrasiyasına təsir göstərdi.*

*Bu gün kəndlərdə 17 yaşındakı gənclərin hər 100 nəfərdən 8-9-nun ali təhsil almaq imkanı varsa, Bakıda bu nisbət 30-35 nəfər təşkil edir. Bu fərq regionlar üzrə təhsilin qeyri-bərabər inkişafı ilə bağlıdır".* (Rövşən Ağayev, iqtisadçı)

**Bölgələrdə siyasi iştirakçılıq və siyasi karyera qurmaq imkanlarının məhdudluğu da miqrasiyaya təsir göstən faktorlardandır.** Eskpertlər hesab edir ki, siyasi iştirakçılıq insanları bölgəyə, xüsusilə şəhərlərə, paytaxta bağlayan mühüm amillərdən biridir.

*"Bir çox insan var ki, yerli seçkilərdə iştirak etmək, öz ərazisinin siyasi liderinə çevrilmək istəyir. Bu adamlar özlərinin siyasi aktivliyini kəndlərdə tapa bilməyəndə Bakıya üz tuturlar. 90-cı illərdə bütün partiyaların yerli şöbələrinin ofisləri var idi, günlərini orada keçirirdilər, siyasi müzakirələr, müxtəlif şahmat yarışları həyata keçirilirdi.*

*İqtisadi səbəblərin özünü də siyası səbəblər dəyişəcək. Bakı və bölgələr arasındakı inkişaf fərqini tarazlamaq üçün yerlərdə seçkili idarəetmə sisteminə keçilməlidir. Bu zaman yerlərdə siyasi aktivlik də artar və oxumuş gənclərin bölgələrdə qalmağa marağı yaranar.* (Rövşən Ağayev, iqtisadçı)

## Regionlardan əhalinin Bakı aqlomerasiyasına daxili miqrasiyası və onun seçki aktivliyinə təsiri

Əhalinin Bakı aqlomerasiyasına doğru köçməsi regionlarda seçki fəallığına da təsir göstərir. Bakı və Abşeronda miqrasiya saldosunun 60 %-dən çox olduğunu nəzərə alsaq, həmin insanların seçkilərdə iştirakı məsələsi gündəmə gəlməlidir. AR Seçki Məcəlləsinin 47.2 maddəsinə əsasən, vətəndaşın seçki məntəqəsi üzrə seçici siyahısına daxil edilməsi üçün həmin vətəndaşın yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyatını aparan orqanın müəyyənləşdirdiyi müvafiq seçki məntəqəsinin ərazisində daimi yaşaması *(seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən əvvəlki 12 ayın azı 6 ayı ərzində seçki məntəqəsinin ərazisində yaşaması)* faktı əsas götürülür. Məsələn, Bakıda qeydiyyatı olmayan insanların burada səsvermə hüququ əldə etməsi üçün ən azı 6 ay həmin ərazidə yaşaması haqqında qeydiyyat sənədi olmalı və yaxud yaşadığı ərazi üzrə məntəqə seçki komissiyasına müraciət etməlidir. Bu, regionlarda iri şəhərləri çıxmaqla, daxili miqrasiya nəticəsində əhalisi azalan kəndlərdə Milli Məclis və bələdiyyə seçkilərində seçici fəallığına təsir edir.

### II.8.1. Paytaxtda daxili miqrasiyanın artması və onun yaratdığı meqaproblemlər

Tədqiqat qrupunun gəldiyi qənaətə görə, bu gün Bakıda təqribən 3 milyon nəfərə yaxın insan daimi yaşayır. Eyni zamanda 500 mindən çox insan paytaxta qısamüddətli (buraya gündəlik iş, məhsullarını bazara çıxarmaq və təhsil almaq üçün Bakıya gələnlər daxildir) giriş-çıxış edir ki, buna "rəqqasvari" miqrasiya deyilir. Bütün dünyada olduğu kimi, Bakı aqlomerasiyasında da əhalinin həddindən çox toplanması bir sıra ekoloji problemlərə gətirib çıxarır: hava çirklənməsi, su çatışmazlığı, tıxac, tektonik aktivlik, ictimai təhlükəsizlik və s. Ona görə də şəhər planlanması öncədən hazırlanmalıdır. Bu zaman əhalinin şəhərdə bərabər paylanması ilə qarşıya çıxan problemləri həll etmək olar. SSRİ dövründə şəhər planlanmasına ciddi şəkildə əməl edilirdi. Lakin müstəqillikdən sonra şəhərsalmada kortəbiilik yaranmağa başladı və şəhərin memarlıq siması korlandı. Bakı aqlomerasiyasının bütün qəsəbələrinin ətrafı fərdi yaşayış evləri ilə xaotik olaraq əhatələnmişdir. Abşeronda qəsəbələrarası boş ərazilər kimi ancaq mədən və göl əraziləri, bəzi dövlət tabeçiliyində olan torpaqlar qalmışdır.

Regionun nüvə mərkəzi olan Bakı şəhərindən 5-10 km məsafədə yerləşən qəsəbələrdə, kəndlərdə və Xırdalan şəhərində 1989-2018-ci illər ərzində əhalinin sayının artım tempi çox yüksək olmuşdur. Şəhərin şimal, şimal-qərb və şərq hissələrində yerləşmiş qəsəbələrində artım daha sürətli olması ilə fərqlənmişdir. Bu coğrafi məskənlər ilə şəhər arasında sıx "rəqqasvari" miqrasiya mövcud olduğu üçün pik saatlarında daim tıxaclar yaranır. Sumqayıt ilə Bakı arasında "rəqqasvari" miqrasiya gərginliyi ilə seçilir. Şəhərdən uzaqlaşdıqca şəhərətrafı əhalinin artım tempinin

və "rəqqasvari" miqrasiyanın azalması müşahidə edilir.

Ələtdə yeni şəhərin salınması və burada Xəzər dənizində ən böyük limanın açılması bu istiqamətdə "rəqqasvari" miqrasiyanın sürətlənməsinə və qəsəbələrin funksiyalarında sənayenin rolunun artmasına səbəb olmuşdur. Bakı şəhər mərkəzindən yaşayış məskənlərinin məsafəyə görə yerləşməsində 1-ci şəhərə birləşmiş, 2-ci 10 km, 3-cü 10-20 km arasında, 4-cü 20-30 km, 5-ci 30-50 km və 6-cı 50 km-dən artıq radiusda yerləşən yaşayış məskənləri gəlir. **Bakı aqlomerasiyasının zonalar üzrə əhali sayında və payında aşağıdakı dəyişikliklər baş vermişdir:**

1-ci zonada, yeni Bakı-Sumqayıt magistral yolunun üzərində yerləşən 7 qəsəbədə və Xırdalan şəhərində 405,1 min nəfər;

2-ci zonada yerləşən 9 qəsəbədə 235 min, 2 kənddə rəsmi 30 min, qeyri-rəsmi 100 mindən çox;

3-cü zonada 15 qəsəbədə 188,3 min və 2 kənddə 20 mindən çox;

4-cü zonada 17 qəsəbədə 254,2 min və 1 kənddə 2 min;

5-ci zonada Sumqayıt şəhərində 306,1 min, 6 qəsəbədə 67,7 min və 4 kənddə 8 minə yaxın əhali yaşayır.

**1989-2018-ci illərdə** regionun lokomativ mərkəzi olan Bakı şəhərinin ətrafında olan yaşayış məntəqələrinin böyüməsi, Abşeron yarımadasında meqapolisə çevrilməsi nəticəsində hər gün Sumqayıt ilə Bakı arasında miqrasiya gərginliyi yaşanır. Bu istiqamətdə şəhərə gün ərzində 300 mindən çox nəqliyyat vasitəsi daxil olur və “**20 Yanvar” metrostansiyasında böyük tıxaclar yaranır.**

*“Hazırda Bakı şəhərində 660 mindən çox nəqliyyat vasitəsi daimi qeydiyyatdadır. Bununla yanaşı, hər gün Abşeron, Sumqayıt, eləcə də respublikanın digər şəhər və rayonlarından paytaxta 250-300 min və bəzən daha çox nəqliyyat vasitəsi daxil olur. Habelə 2 mindən çox avtobus cəlb edilməklə sərnişindaşıma həyata keçirilir. Nəticədə avtomobil yollarında sutka ərzində 1 milyona yaxın nəqliyyat vasitəsi hərəkətdə olur. Bakı şəhəri bütün meqapolislərə xas olan və gündəlik həyat ahənginə mənfi təsir edən nəqliyyat sıxlığı ilə üzləşir”.* (Daxili İşlər Nazirliyi)

Son illər Bakı-Sumqayıt, Bakı-Gəncə istiqaməti üzrə sürət qatarlarının istifadəyə verilməsi əhalini daşıma loqistikasındakı gərginliyin nəqliyyat vasitələri arasında müəyyən qədər paylanmasına kömək edir.

**Bölgələrin mövcud iqtisadi imkanlarından tam istifadə edə bilmək çətinləşir.**

*"Bölgələrdəki yaradıcı insanlar Bakı ətrafında cəmləşir və nəticədə resursların qeyri-bərabər paylanması bölgələrin yaratdığı milli gəlir arasında da fərqlər meydana çıxarır. Daxili miqrantların Bakı və Abşeron ətrafında toplanması bölgələrin itirilməsinə gətirib çıxarır. Bu isə itirilmiş resurs və itirilmiş milli gəlir deməkdir. Təhsil, səhiyyə, mədəniyyət və idman sahəsindəki yaradıcı insanların Bakıya toplaşması bölgələrdəki insanlarımızın mədəni baxımdan geri qalmasına, keyfiyyətli təhsil və səhiyyə xidməti almasına təsir edir. Son 50 ildə iqtisadi inkişafda uğur qazanmış ölkələrin heç biri balanslı regional inkişafa nail olmadan ümumi iqtisadi inkişafa çata bilməyib. Ölkənin dayanıqlı inkişafı üçün bölgələrin tarazlı inkişafı vacibdir”.* (Rövşən Ağayev, iqtisadçı)

**Aqlomerasiyanın yaratdığı digər problem ictimai sabitliyin təminatıdır.** Şəhər böyüdükcə ictimai asayişin qorunması məsələsi də çətinləşir, mürəkkəb hal alır. Nəzarət imkanları çətinləşdikcə cinayətkarlıq, narkotik vasitələrin dövriyyəsi və ondan istifadə, insan alveri artır. Bu gün hüquq-mühafizə orqanları tərəfindən paytaxtın təhlükəsizliyini təmin etmək üçün müasir texnologiyalardan istifadə edilsə də, kameralar quraşdırılsa da, yenə də problemlərin tam həllini tapmaq çətinləşib. Paytaxta gəlmiş insanların əksəriyyətinin olduğu yer üzrə qeydiyyata alınmadan kirayədə qalması, tez-tez ünvanlarını dəyişməsi onların törətdiyi cinayətlərin açılmasında və axtarışda olanların tutulmasında çətinliklər yaradır. Eyni zamanda, meqapolislərdə terror aktlarının başvermə ehtimallarının yüksək olması ictimai sabitliyin təminatında ən başlıca səbəbdir. Bu baxımdan strateji əhəmiyyətli qurumların, dövlət strukturlarının, təhsil və səhiyyə ocaqlarının təhlükəsizliyini təmin etmək üçün əlavə qüvvələrə ehtiyac duyulur. Nəticədə, hüquq-mühafizə orqanları əlavə qüvvə və vasitələr cəlb etmək məcburiyyətində qalır.

*“Bu gün respublika üzrə qeydə alınan hüquqazidd əməllərin yarısı, bəzi hallarda isə daha çox hissəsi paytaxtda baş verir. 2019-cu ilin 11 ayında paytaxtda cinayət*

*törətmiş 5591 nəfərdən 37%-i respublikanın digər şəhər və rayonlarının sakinləridir. 2018-ci ilin analoji dövrü ilə müqayisədə həmin kateqoriyadan olan şəxslərin sayı 22% artmışdır".* (Daxili İşlər Nazirliyi)

**Bu gün Bakı böyüdükcə onun kommunal təchizatında yüklənmələr gedir və bunun genişləndirilməsi əlavə sərmayələr tələb edir.** "Tikinti bumu"nun yarandığı 2000-ci illərin ortalarından etibarən yeni binalar inşa edilərkən çirkab (fekal) kanalizasiya xətləri belə yağış kanalizasiyasına qoşulub. Bu da ölkənini ekoloji tarazlığını pozan bir amildir. Eyni zamanda Azərbaycan regionda şirin su ehtiyatına görə ən az təmin olunan ölkədir. Bu baxımdan Bakının keyfiyyətli içməli su təminatını həyata keçirmək üçün Oğuz-Qəbələ-Bakı su kəməri çəkildi, kanalizasiya sistemi yenidən quruldu və bu proses davam etdi. Bakı genişləndikcə bu yöndə qoyulacaq investisiyaların da ardı gələcək və əlavə vəsaitlər tələb edəcək.

**Kənd əhalisinin sayının azalması gələcəkdə ərzaq təhlükəsizliyi ilə bağlı problemlər yarada bilər.** *"Rayonlarda, o cümlədən kənd yerlərində gənclərin sayının azalması və ailələrin böyük şəhərlərə (Bakı şəhərinə və onun ətraf ərazilərinə) köçməsi rayonların və kənd yerlərinin davamlı inkişafını pozur. Nəticədə, bu ərazilərin inkişaf potensialı reallaşdırılmamış qalır, kənd təsərrüfatı istehsalı azalır".* (Nailə Verdiyeva, demoqraf)

**Əhalinin və sənayenin ölkənin daha çox bir hissəsinə toplaşması ekoloji fəsadlar yaradır, tektonik aktivliyi artırır.**

*"Bakı ərazisinin təbii-iqlim şəraiti urbanizasiya prosesinin sürətli inkişafı baxımından o qədər də əlverişli deyil. Bu, əlavə ekoloji problemlərin daha sürətlə artmasına yol açır. Xüsusən qızmar yay mövsümündə havanın çirklənməsi problemi özünü büruzə verir. Abşeron uzunömürlülük göstəricisinə görə ölkənin digər regionlarından geri qalır. Yüksək sıxlıq şəraitində geniş ərazi tələb edən, böyük həcmdə bərk, maye və qaz halında tullantılar yaradan sənaye müəssisələrinin və yaşayış sahələrinin ərazi təşkili, yerləşdirilməsi problemə çevrilir. Əhalinin sayı artdıqca, xaotik urbanizasiya və ərazinin mənimsənilməsi genişləndikcə məişət və çirkab tullantıları ilə Xəzər dənizinin çirklənməsi də sürətlənir. Elə bir vaxt gələ bilər ki, paytaxt ərazisi artıq fiziki-coğrafi şərait baxımından hədsiz sayda insanın yaşayışını qəbul edə bilməsin. Hesab edirəm ki, bu zaman paytaxtın köçürülməsi qaçılmaz olacaq, yeni paytaxtın planlaşdırılması və həmin prosesə başlanılması sürətlənəcəkdir".* (Rövşən Kərimov, coğrafiya üzrə fəlsəfə dokturu, AMEA)

*"Kanalizasiya sistemi əvəzinə quyular qazılır, bu da səth axıntıları yaradır. Minik avtomobillərinin, xüsusilə köhnə avtomobillərin sayının artması ətraf mühitə ziyan vurur. Bundan başqa, yamaclarda yaşayış yerləri tikilib, bu da sürüşmə prosesinə təkan verir. Məsələn, Bayıl yamacında çoxlu "gecəqondu"lar əmələ gəlib. Bakı-geoloji sturkturuna görə kalsium-karbonat, gil qatı ilə zəngindir ki, bu da sürüşmə üçün şərait yaradan laylardır. Ona görə də sözün bütün mənalarında şəhər yüklənir. Səth tullantılarının, atmosfer tullantılarının, maye tullantılarının sayı ildən-ilə artır. Bunların hamısı ətraf mühitə mənfi təsir göstərir".* (Sahib Məmmədov)

**Regionlarda asudə vaxtın təşkili düzgün qurulmayıb.** Apardığımız sorğular və müşahidələrdən görünür ki, insanları kəndlərdən şəhərə doğru qaçıran səbəb təkcə işsizlik problemi deyil. Onlar şəhərdə mövcud olan dinamik və sərbəst həyatın axtarışındadırlar.

*"Bu gün regionların qaz, işıq, su təchizatı qurulub, amma asudə vaxtın təşkili yoxdur. Hər kəsin internetə çıxış imkanları artdığından onlar şəhər mühitində olan təmtərağı görürlər. Amma kənddə insanlar boş vaxtlarında çayxanaya gedirlər. Hər kəsin də imkanı yoxdur ki, hər gün çayxanaya getsin. Asudə vaxtın səmərəli təşkili üçün infrastruktur zəifdir. Əvvəllər rayonlarda mədəniyyət mərkəzləri, kinoteatrlar, kitabxana şəbəkələri var idi. İndi bunların sayı çox azdır və bir çox hallarda təyinatı üzrə istifadə olunmur."* (Sahib Məmmədov, ekspert)

Qeyd edək ki, gənclərin intellektual, təhsilli böyüməsi, pis vərdişlərdən uzaq durması üçün onların asudə vaxtının təşkilinə uşaq yaşlarından başlamaq lazımdır. Kənd və rayonlarda məktəbəqədər təhsil genişlənməli, məktəblilər üçün yaradıcılıq və idman mərkəzləri açılmalıdır. Belə mərkəzlər təkcə şəhər mərkəzində olan olimpiya komplekslərindən ibarət olmamalıdır. Bələdiyyə, yerli icra hakimiyyətləri öz imkanları daxilində təsərrüfat hesablı təşəbbüslər göstərə bilərlər, həmçinin gənclər evlərinin fəaliyyəti bir qədər də aktivləşdirilməlidir.

### II.8.2. Daxili miqrasiyanın tənzimlənməsi üçün görülən işlər və izlənən müsbət tendensiya

Onu da qeyd etmək lazımdır ki, 2004-cü ildən etibarən regionların sosial-iqtisadi inkişafı proqramı ilə bağlı icra olunan üç dövlət proqramı, 2006-cı ildən Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair qəbul olunan tədbirlər proqramları çərçivəsində böyük işlər görülüb. Regionların və Bakının ətraf qəsəbələrinin yol infrastrukturu yenidən qurulub, qaz, elektrik, su və kanalizasiya təchizatı ilə bağlı problemlər müəyyən qədər aradan qalxıb.

*"Bölgələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş regionların sosial-iqtisdi inkişafı ilə bağlı dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir. Ötən dövr ərzində regionların inkişafı istiqamətində 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən 4 dövlət proqramı qəbul olunub və onlardan üçü artıq uğurla icra edilib. Hazırda "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir.*

*2004-cü ildən icra olunan bu proqramlar şəhər və rayonların simasını köklü şəkildə dəyişib, qeyri-neft sektorunun inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına geniş töhfələr vermişdir".* (AR İqtisadiyyat Nazirliyi)

İlk 3 Dövlət Proqamının icra olunduğu müddət ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,8 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 9,3 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əmək haqqı 7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,6 milyon daimi olmaqla 2,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradılmış, işsizlik 5%-ə, yoxsulluq səviyyəsi isə 5,3%-ə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Bu səbəbdən bir neçə ildə regionlardan miqrasiya prosesi bir qədər səngiyib, hətta bəzi bölgələrdə az da olsa geridönüş başlayıb. Sosial, turizm infrastrukturunu inkişaf etdirən, istehsal etdiyi məhsulları xarici bazara çıxara bilən regionlarda miqrasiyanın müsbət saldosu müşahidə edilir. Eyni zamanda müəllimlərin işə qəbulunun elektronlaşdırılması və dağlıq kənd məktəblərində işləmək üçün məsafəyə görə əmsalların tətbiq olunması regionların orta təhsil sahəsində yaranan problemlərinin həllində mühüm rol oynayır.

Sosial xidmətlərin əlçatanlıq səviyyəsi yüksəlib. Bu gün regionlarda yeni orta ümumtəhsil və məktəbəqədər təhsil müəssisələri tikilib, olimpiya kompleksləri salınıb. Regionların internetə çıxışında ciddi irəliləyişlər mövcuddur.

*"Dövlət proqramları regionların inkişafına müsbət təsir göstərdi və ən vacib məqamlardan biri regionlarda infrastrukturun formalaşması müşahidə olundu. Kommunal xidmətlərin fasiləsiz olaraq təmin olunması həyata keçirilir. Bu baxımdan da regionlar infrastruktur cəhətdən inkişaf etdi. Bəzi regionlarımıza hətta xarici sərmayənin cəlb edilməsini də müşahidə etdik. Növbəti mərhələdə əsas məqsəd regionlarda dövlət proqramları çərçivəsində formalaşan infrastrukturun dəyərə çevrilməsinə nail olmaqdan ibarət olmalıdır".* (Vüqar Bayramov, iqtisadçı)

## II.9. BEYNƏLXALQ TƏCRÜBƏ

Qeyd edək ki, şəhər və regionlar arasında imkanların qeyri-bərabər paylanması, urbanizasiyanın bir şəhər üzərindən getməsi inkişaf etməkdə olan dövlətlər üçün daha spesifikdir. İnkişaf etmiş dövlətlər kənd və şəhər arasındakı sosial, mədəni disbalansı xeyli dərəcədə aradan qaldıra bilib. Bu dövlətlərin bütün şəhərləri inkişaf edib, təhsil və iqtisadi rəqabət yaranıb. İnkişafda olan dövlətlər isə bütün şəhərlər arasında bərabər rəqabətliliyi təmin etməkdə müəyyən problemlər yaşayırlar və nəticədə əhali ən inkişaf etmiş şəhərə doğru axın edir.

Daxili miqrasiyanın biristiqamətli inkişafından "əziyyət" çəkən dövlətlər müxtəlif proqramlar, genişmiqyaslı tədbirlər həyata keçirirlər. Məsələn, Türkiyə bölgələrdə yoxsulluq səviyyəsini aradan qaldırmaq

və əhalinin İstanbula axınının qarşısını almaq üçün müxtəlif sosial proqramlar həyata keçirir. Belə ki, Türkiyə ötən əsrin 90-cı illərindən etibarən yeni iş yerlərinin yaranması və yerli əhalinin qazanc yerləri əldə etməsi üçün regionlarda iqtisadi imkanları genişləndirdi. Hər bir regionda - şəhərdə, vilayətdə universitetlər açıldı, hər bölgə fərqli sahə üzrə ixtisaslaşdırıldı.

Qonşu Grücüstan dövləti də rayonların sosial-iqtisadi potensialını artımaq üçün kompleks proqramlı tələbə şəhərcikləri salmağa başlayıb.

Bəzi dövlətlər paytaxta düşən yükü azaltmaq və təhlükəsizliyi təmin etmək üçün paytaxtın köçürülməsi kimi böyük investisiya tələb edən proqramlar icra edirlər. Postsovet dövlətlərindən ilk belə təcrübə Qazaxıstandan gəlmişdi. Paytaxt Alma-Ata Astanaya köçürüldü.

Misir indiki paytaxtı Qahirənin başqa şəhərə köçürülməsi planını hazırlayıb. Yeni paytaxt Qahirə şəhərindən 45 km uzaqlıqda yerləşəcək.

Malayziya isə paytaxtın 30-40 km-liyində inzibati mərkəz yaradıb. Bütün dövlət strukturları həmin əraziyə köçürülüb. Yəni paytaxt ayrı, idarəetmə mərkəzi ayrı olacaq.

### II.9.1. Paytaxt köçürülə bilərmi: ekspertlər hansı alternativ yollar təklif edirlər?

Dünyanın bir çox ölkələrinin həyata keçirdiyi bu təcrübə paytaxtın həddən artlq yüklənməsi və infrastrukturun çökmə həddinə gəlib çatmasından irəli gəlir. Azərbaycanda isə paytaxtın köçürülməsi ilə bağlı fikirlərə yanaşma birmənalı deyil.

*"Bakı şəhərində əhali həddən artıq cəmləşib. Gələcəkdə yeni paytaxt şəhərinin seçilməsi labüd ola bilər. Amma mən hazırkı dövrdə belə bir ideyanın həyata keçirilməsini heç də asan məsələ hesab etmirəm. Azərbaycanın qarşısında Qarabağ kimi böyük problemin həlli məsələsi dayanır. Torpaqlarımız işğal altındadır, çoxlu sayda rayonlarımız vardır ki, onlar cəbhə xəttinə yaxın yerləşirlər. Bu amillər ölkədəki demoqrafik situasiyaya, xüsusən insan resurslarının ərazi üzrə səmərəli yerləşməsinə, bu prosesin elmi əsaslarla aparılmasına mane olur. Halbuki, paytaxtın köçürülməsinin məqsədi məhz əhalinin ölkə regionları üzrə ifrat qeyri-proporsionallığının aradan qaldırılmasıdır. Yeni paytaxtın yaradılması müvafiq infrastrukturun təşkili ilə bağlı çox böyük maliyyə xərcləri tələb edəcəkdir. Başqa bir şəhərə paytaxt statusunun verilməsi, bununla bərabər, inzibati və digər binaların da həmin əraziyə köçürülməsi, çoxsaylı dövlət qulluqçularının ailələri ilə birlikdə həmin şəhərdə yerləşdirilməsi və s. - bütün bunların effektli şəkildə təmin olunması heç də asan və tez həll olunan məsələlər deyildir. Yeni paytaxt şəhərinin su ilə təminatı məsələsini necə həll etməli? Axı Azərbaycan təbii şəraitinə görə su qıtlığından əziyyət çəkən ölkələrdən biridir. Paytaxtın köçürülməsi aktual məsələ olduğu qədər də həll edilməsi vacib olan əlaqədar məsələləri, çətinlikləri dəf etməyə hazır olmaq deməkdir".* (Rövşən Kərimov, coğrafiya üzrə fəlsəfə dokturu, AMEA)

*"Bu, uzunmüddətli bir prosesdir, böyük investisiyalar tələb edir. On milyardlarla dollar əlavə vəsait lazım olacaq. Əlavə kreditlərin cəlbi, yeni iş yerləri, yeni imkanlar yaranacaq. Bakı onsuz da sənaye şəhəri kimi öz mədəni təsirini saxlayacaq və burada inkişaf həmişə olacaq. Lakin bir qədər o inkişafdan alıb, paytaxtın köçürüləcəyi yerə transfer olunacaq.*

*Amma paytaxtın dəyişməsi tək çıxış yol deyil. Bununla paralel addımlar atılmalıdır. Azərbaycanın tarixən ənənəvi şəhərləri var - Şəki, Lənkəran, Quba və sair kimi. Urbanizasiyalaşmanı bu tarixi şəhərlərin də üzərinə keçirmək olar. İnsanları bura cəlb etmək üçün stimullaşdırıcı addımlar atmaq lazımdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) yanaşmasına görə, əhalisi 500 mindən çox olan şəhərlər metropoliya-şəhər sayılır. Bakıdan başqa əhalisi 500 mini ötən bir və ya iki şəhərin yaradılmasına nail olmaq lazımdır. Gəncə, Şəki bu tələbə cavaba verə bilər. Kənd inkişaf strategiyası və urban (şəhər) inkişaf strategiyası qəbul olunub, sadalanan hədəflər qoyula bilər. İri və orta şəhərlərdə əhalinin miqrasiya hesabına artımını stimullaşdırmaq olar. Şəhərlərin böyüməsi ətrafdakı aqrar bölgələrin inkişafına böyük təkan olacaqdır. Məsələn, Bakı bu gün hansı aqrar bölgəyə yaxındırsa, onların fermerlərinin imkanları daha genişdir".* (Rövşən Ağayev, iqtisadçı)

Bir çox ekspertlər Malayziya təcrübəsini daha münasib sayırlar. Onlar universitetlərin, idarəetmə orqanlarının Bakının

mərkəzindən bir qədər kənara köçürülməsini təklif edirlər.

*"Bakı şəhəri inzibati ərazi kimi çox dağınıqdır. Onun yalnız mərkəz hissəsində urbanizasiya baş verir. Qaradağ rayonu bomboşdur. İnfrastrukturların çıxarılması məsələsi var. Yəni hər şeyin Bakıda mərkəzləşməsinə ehtiyac yoxdur. Təhsil, idarəetmə müəssisələri qismən şəhərdən kənara köçürülə bilər. Bakı şəhərinin hüdudlarından çıxmadan mərkəzi boşaltmaq olar".* (Sahib Məmmədov, ekspert)

*"Biz Bakıya istəmədiyimiz dərəcədə problemlər yaratmışıq. Bakı öz tarixi, ölkəmizin inkişafındakı fəaliyyəti ilə paytaxt statusunu qazanıb. Bunu unutmamalıyıq. Paytaxtın dəyişdirilməsinin əleyhinəyəm".* (Elbay Qasımzadə, Memarlar İttifaqının sədri)

*"Tarixdə süni formada paytaxtın dəyişdirilməsi heç bir uğura səbəb olmayıb. Sadəcə olaraq Vaşinqtonun siyasi səbəblərə görə dəyişdirilməsi uğurlu alınıb. Bir neçə problemi həll etmək üçün paytaxtı köçürmək düzgün deyil. Regionlarda əhalinin rifahı üçün bütövlükdə münbit şəraitin yaradılması qeyri-mümkündür. Maliyyə və mövcud resurslar buna əl vermir. Bazar iqtisadiyyatı bu proseslərə qərar verməlidir. Biz süni şəkildə nə etsək də düzgün alınmayacaq. Məsələn, Astana, Braziliya özünü doğrultmayan süni paytaxtlardır".* (Anar Vəliyev, ADA-nın İctimai və beynəlxalq münasibətlər fakültəsinin dekanı)



## Nəticə

❑ Sosial Tədqiqatlar Mərkəzinin apardığı “Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri” adlı tədqiqat nəticəsində gəlinən ən ümumi qənaətlərdən biri budur ki, müstəqillik illərində Azərbaycanda daxili miqrasiyanın tempi artıb. Daxili miqrasiyanın bütün növlərində: 1.rayonlararası; 2.bölgələrdaxili; 3.şəhər-kənd arasında; və 4.əmək miqrasiyası kimi istiqamətlərində itensivləşmə müşahidə edilib.

❑ Tədqiqat çərçivəsində aparılan sorğuda iştirak edən respondentlərin doğulduğu yerdən ilk köçdükləri vaxtın - orta yaş dövrünün 23 yaş olduğu müəyyən edilib.

❑ Azərbaycanda əsas kapital qoyuluşunun 63 %-nin paytaxta yönəlməsi daxili mirqasiyanın qeyri-bərabər istiqamətlənməsinə yönəlib ki, bu da Bakını maksimum həssas şəhərə çevirib.

❑ Azərbaycanda urbanizasiya prosesinin iri şəhərlərə, əsasən də paytaxt Bakıya doğru getməsi sosial, iqtisadi, siyasi və ekoloji sahədə problemlərin ortaya çıxmasını şərtləndirib. Burada yol nəqliyyatının, kommunal təsərrüfatların, təhsil müəssisələrinin və s. infrastrukturun həddən artıq yüklənməsi qeyd edilən sahələrdə meqapolislərə xas olan çətinliklərin yaranmasını şərtləndirib.

❑ Daxili miqrasiya və urbanizasiya paytaxt şəhərlərdə sosial və ictimai sabitliyin təminatına birbaşa təsir edən amillərdəndir. Köç edən vətəndaşların böyük bir qisminin faktiki yaşadığı ərazi üzrə qeydiyyatda olmaması cinayət faktlarının açılmasında problemlər yaradır. Xüsusilə, Bakıya yönələn miqrasiya paytaxtın kriminogen vəziyyətini gərginləşdirir. Məsələn, 2019-cu ilin 11 ayı ərzində paytaxtda törədilən cinayətlərin 37 %-i respublikanın digər şəhər və rayonlarının sakinlərinin payına düşür.

❑ Həddən artıq əhali sıxlığı nəinki ənənəvi “şəhər-kənd” münasibətlərindən yaranan sosial diskomfort hadisəsinə səbəb olur, həmçinin müəyyən qüvvələrin əhali sıxlığından yaranan obyektiv sosial problemlərin siyasiləşdirilməsinə alət edilməsi üçün əlverişli şərait yaradır.

❑ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin otuz ildən artıq ədalətli yolla həll edilməməsi və bir milyondan çox qaçqın və məcburi köçkünün paytaxt və regionlarda yerləşdirilməsi də daxili miqrasiya prosesinin tənzimlənməsinə ən böyük əngəllərdən biridir.

❑ Azərbaycanda Dövlət Miqrasiya Xidməti yaradılsa da, onun funksiyaları başlıca olaraq ölkəyə gəlmə və ölkədən getmə proseslərinin tənzimlənməsi ilə bağlıdır. Daxili miqrasiya proseslərini tənzimləyən konkret dövlət orqanının, bu istiqamətdə fəaliyyətin hazırlanması və qiymətləndirmə mexanizmlərinin olması naməlum qalır. Daxili miqrantların mobilliyinin izlənilməsi və qeydiyyatını aparan sistemli fəaliyyət təşkil edilməyib, yaxud onun olub-olmaması məlum deyil.

❑ Rayonlarda, xüsusilə kəndlərdə sosial-mədəni infrastrukturların zəif olması orada yaşayan uşaqların, məktəblilərin, gənclərin böyük bir qismini keyfiyyətli təhsildən kənarda saxlayır ki, bu da ölkənin əmək bazarında peşəkar kadr itkisi deməkdir.

❑ Kəndlərdən şəhərə axının olması aqrar ölkə olan Azərbaycanda kənd təsərrüfatı sektorunda kadr ehtiyatı baxımından yaxın gələcəkdə mühüm sosial-iqtisadi təhdidlər yarada bilər. Hər il dövlət büdcəsindən kənd təsərrüfatı məhsullarının istehsalı üçün subsidiyalar ayrılır, güzəştlər tətbiq edilir. Tədqiqat çərçivəsində aparılan sorğunun nəticələrinə əsasən, aqrar sektorun inkişafı üçün yuxarıda göstərilən güzəştlərin dövlət tərəfindən mütəmadi qaydada həyata keçirilməsinə baxmayaraq insanların aqrar sektora marağı zəif artır.

❑ Uzun illər əmək vərdişləri kənd təsərrüfatı sahəsində formalaşmış insanların, ixtisaslı mütəxəssislərin, xüsusilə gənclərin şəhərə axını regionlarda ixtisaslı kadr çatışmazlığı problemini yaradır. Belə ki, aqrar sektor üzrə baytar, zootexnik, aqronom kimi ixtisaslı kadrlar çatışmır. Ən əsası, təsərrüfatlarda satılmayan məhsullar itkiyə gedir, təkrar emalın qurulmasında problemlər yaranır.

❑ Sovet dövründə əhalinin respublikanın əraziləri üzrə bərabər paylanılması üçün ali təhsil məktəbləri tikilsə də, müstəqillikdən sonra bu siyasət bir qədər arxa planda qaldı. Müstəqillikdən sonra açılan bütün dövlət və özəl ali təhsil müəssisələrinin əksəriyyəti Bakıda yerləşdi. Gənc kadrların ölkədə bərabər paylanılmasının təşkili üçün Bakıdan başqa digər iri şəhərlərdə də özəl və dövlət universitetlərinin açılması təşviq edilməlidir. Halbuki, regional ali təhsil müəssisələrinin inkişafı miqrasiya axınlarının tənzimlənməsində əhəmiyyətli rola malikdir.

❑ Bölgələrdə sahibkarlığın inkişafı, təşviqi zəif təşkil olunub, maliyyə əlçatanlığı aşağı səviyyədədir. Sahibkarların

kredit əldə etmək imkanları məhduddur, kənd təsərrüfatına yönələn kreditlərin faiz dərəcələri yüksəkdir. İstehsal müəssisələri xammal və kadr çatışmazlığı səbəbindən tam gücü ilə işləyə bilmir.

❑ Kəndlərdə yaşayan insanların xidmətlərə (banklara, bankomatlara, təhsil və səhiyyə infrastrukturına və s.) mobil çıxışı zəifdir.

❑ Dövlət tərəfindən sosial güzəştlərin (ipoteka kreditləri) verilməsində hüquqi-normativ boşluqlar mövcuddur. Regionlarda daşınmaz əmlakın qiymətinin aşağı olması, satış çevikliyinin zəif olması maliyyə-kredit təşkilatları tərəfindən buraya ipoteka kreditlərini yönəltməsinə marağı azaldır. Nəticədə regionlarda yaşayan gənclərin mənzil əldə etmək imkanları məhdudlaşır.

❑ Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan, regionların sosial-iqtisadi, ictimai və mədəni həyatında mühüm tədbirlər həyata keçirən "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) fəaliyyəti də vurğulanmalıdır. RİİB bölgələrdə sosial biznes layihələrinin reallaşdırılması, ictimai nəzarətin həyata keçirilməsi, vətəndaş müraciətləri və təkliflərinin araşdırılması, aidiyyəti qurumlarla əməkdaşlıq şəraitində yerlərdə əhalinin problemlərinin həlli istiqamətində faydalı işlər görür. Məsələn, RİİB-in Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə “Sosial bağlar” layihəsi üzrə 41 rayonda həssas qrupları (şəhid ailələri, əlilliyi olanlar, aztəminatlı ailələrin üzvləri və s.) əhatə edən intensiv meyvə bağları, tərəvəz və bostançılıq təsərrüfatları yaradılıb. “Sosial bağlar” layihəsi çərçivəsində təkcə son aylarda 400-ə yaxın ailə üçün intensiv meyvə bağları salınıb.

❑ Bununla yanaşı, regionlardan paytaxta axınların tənzimlənməsi üçün mövcud gənclər evlərinin, Heydər Əliyev mərkəzlərinin və olimpiya komplekslərinin səmərəli istifadəsinə ehtiyac var. Rayon və kənd həyatı ali təhsil almış gənclərə cansıxıcı gəlir, onlar sosial ehtiyaclarını təmin etmək üçün sosial-mədəni məşğuliyyət tapa bilmirlər.

❑ Azərbaycanın bir çox rayon və kəndlərinin ekoturizm, aqroturizm imkanları genişdir. Xüsusilə, cənub bölgəsinin təbii landşaftı bir çox turizm növünün inkişafı üçün əlverişli olsa da, bu imkanlardan istifadə olunmur. Bu işin təşkili üçün kiçik və orta sahibkarları cəlb etmək və onlara maliyyə əlçatanlığı yaratmaq lazımdır.

❑ Bu tədqiqatın həyata keçirilməsi mərhələsində aparılan sosioloji sorğu və müşahidələr zamanı respondentlərdə mənsubluq-kimlik faktoru baxımından tərəddüd və boşluqların olması, həmçinin aidiyyətin-kimliyin rifahla əlaqələndirilərək “harada yaşayıramsa, işləyirimsə, ora aidəm və orada təhlükəsizəm” mövqeləri hibrid kimliyin multikultural cəmiyyət olaraq Azərbaycanda təzahürünü göstərir. Miqrasiyanın kimliyə təsiri və yaratdığı kimliklər baxımından Azərbaycanda dinamik proseslərin nəticəsi kimi yaranmağa başlayan hibrid kimlik baxımından fərqlilik daha çox əhalinin 1990-cı ildən sonra anadan olan və yeni nəsil olaraq ifadə edilən “Z” nəsli”nin nümayəndələrində əks olunur. “Hibrid kimlik” anlayışı yeni fakt olmaqdan əlavə tarixi dəyişikliklərdən asılı olaraq ictimai strukturda baş verən dəyişikliklər nəticəsində meydana gəlir. Tarixi miqrasiya proseslərinin və yaranan multikultural cəmiyyətin Azərbaycanda da əks olunması onun cəmiyyət müstəvisində son onilliklərin dinamik prosesləri kontekstində də fərqli kimlik anlayışlarının yaranmasına zəmin yaradır.

## TÖVSİYƏLƏR

❑ Azərbaycanda ölkədaxili miqrasiya mobilliyinin izlənilməsi və bölgələrdən paytaxta axınların qeydiyyatının aparılmasının dövlət tənzimlənməsinə yönəlmiş sistemli fəaliyyət təşkil edilməyib, yaxud onun olub-olmaması məlum deyil. Daxili miqrasiyanın tənzimlənməsi sahəsində müəyyən qurumun təsis edilməsi, yaxud mövcud strukturlar daxilində bu funksiyanın hər hansı bir quruma həvalə edilməsi məqsədəuyğun olardı.

❑ Bölgələrdən paytaxta əhali axınlarının rasional tənzimlənməsi üçün burada prioritet sahələrin inkişafı məqsədilə sahibkarlara dövlət tərəfindən əlverişli vergi güzəştləri, maddi yardım, eləcə də mənəvi dəstək verilməli, bürokratik əngəllər aradan qaldırılmalıdır.

❑ Regionlarda yerli və xarici sərmayənin təşviqinə imkanların yaradılması günün tələbidir.

❑ Qeyd etmək lazımdır ki, dövlətin özünüməşğulluq siyasəti proqramı regionlarda əhalinin sosial vəziyyətinin yaxşılaşması, kənd təsərrüfatının və qeyri-neft sektorunun inkişafı və işsizliyin aradan qaldırılması məqsədi ilə həyata keçirilir. Proqram 2018-ci ildə 7267 nəfəri, 2019-cu ildə 10 min ailəni əhatə edib. 2020-ci ildə isə 15 minədək ailənin bu proqrama cəlb olunması nəzərdə tutulub. Bununla yanaşı, özünüməşğulluq siyasəti əhalinin bölgələrdən axın etməsinin qarşısının alınması baxımından çıxış yolu hesab edilə bilməz. Belə ki, region əhalisinin

daxili miqrasiya etməsinin sosial aspektləri çoxşaxəli olduğu üçün onun qarşısının alınması da kompleks tədbirlərin görülməsini tələb edir.

❑ Eləcə də, ildə bir neçə dəfə keçirilən əmək yarmarkaları regionlarımızda işsizliyin aradan qaldırılması və məşğulluğun təmin edilməsi kimi böyük problemi həll etmək yönündə həlledici çıxış yolu deyil. Bu yarmarkaların təşviqi və təşkili əsasən region/rayon mərkəzlərində keçirildiyi üçün əhalinin əksər hissəsini əhatə etməyə qadir deyil. Əhalinin əksər hissəsi bu tədbirlərdən kənarda qalır. İştirak edənlər isə çox vaxt təcrübə və təhsillərinə uyğun iş tapa bilmirlər. Buna görə də regionlarda məşğulluq strategiyasının həyata keçirilməsinin daha effektiv mexanizmləri hazırlanmalıdır.

❑ Azərbaycanın regional mərkəzlərində dünya standartlarına cavab verən, xarici tələbələrin də təhsil almasına imkan verən ali məktəblərin fəaliyyəti regionun inkişafına, dinamik urbanizasiyanın səngiməsinə, daxili miqrasiyanın Bakı və Sumqayıt kimi böyük şəhərlərə istiqamətlənməməsinə imkan verə bilər. Regionlarda dünya və MDB təcrübələri nəzərə alınaraq, ali və peşə məktəblərinin inkişafı üçün elm-təhsil şəhərlərinin, "naukoqrad", yaxud texnopolislərin, "science cities"in salınması, buradan gənclərin axın etməməsi baxımından strateji əhəmiyyətə malikdir. Dünyada regional texnopolislər şəhər qəsəbəsi statusuna malik munisipial təsisatlardır. Buraya oxumağa gələn gənclər təkcə qalmaq üçün yataqxanalarla deyil, müasir standartlara uyğun kütləvi kitabxanalar, iaşə obyektləri, mədəniyyət və yaradıcı klublar, kinoteatrlar, bank və sığorta müəssisələri ilə təmin olunmalıdırlar. Belə bir şəhərciyin salınması böyük investisiya tələb edir. Dövlət vəsaiti ilə yanaşı, sahibkarların da bu prosesdə iştirakını təmin etmək üçün banklar tərəfindən güzəştli kreditlər ayrıla bilər. Onu da qeyd edək ki, böyük vəsaitin axdığı bir məkan özü ilə bərabər sosial-iqtisadi dirçəliş də gətirir və ətraf regionların inkişafına dəstək olur.

❑ Regionlarda mövcud olan universitetlərdə ixtisasların sayı artırılmalı, magistratura təhsili genişləndirilməlidir. Xüsusilə tibb sahəsində təhsil imkanları yaradılmalıdır. Bakıya və xarici ölkələrə tibb təhsili almağa gedən məzunların sonradan rayonlara qayıtması çətinləşir. Bunun üçün maarifləndirici və təşviqedici proqramlar hazırlanmalıdır. Tibb işçilərinin, xüsusilə həkimlərin müqavilə üzrə təyinatı olmalıdır. Təyinat müəyyən dövrdən sonra elektron qaydalar əsasında dəyişdirilə (aparıla) bilər. Bununla bölgələrdə tibbi heyətə olan ehtiyac tədricən ödənilə bilər.

Ekspetlərin təklifinə əsasən, bunun üçün geniş sosial proqramlar hazırlamaq, təyinat sistemini təmin etmək mümkündür. Ekspertlər həmçinin hesab edir ki, təyinat sistemi səhiyyə ilə yanaşı, dövlətin digər regional sturkturlarına şamil edilə bilər. Belə ki, ali məktəbə qəbul olunmuş şəxslərlə dövlət müqavilə bağlayaraq, həmin şəxsin təhsilini başa çatdırdıqdan sonra istədiyi regionda 5 il işləməsi üçün şərait yaradıla bilər. Şəxs işləməyə başladıqdan sonra onun müəyyən sosial xidmətlərə əlçatanlığını təmin etmək üçün strategiyaların qəbul olunması labüddür. Bunun üçün ona faizsiz, ipoteka ilə bələdiyyə və ya dövlət torpağında ev sahibi olmaq imkanı yaradılmalıdır. Dağ rayonları üçün əmsallar tətbiq etmək olar: təhlükəsizliyə görə, yaşayış yerindəki çətinliyə görə və s. Təyinat sistemi, əmsallar, faizsiz ipoteka və s. bu kimi tədbirlər vacibdir.

"Regionlarda təhsil və səhiyyə xidmətlərinin keyfiyyətini artırmaq məqsədilə yüksək ixtisaslı kadrların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanması və tətbiqi vacibdir. Regionlarda orta ixtisas və peşə təhsili müəssisələrinin fəaliyyətinin bərpa olunması və gücləndirilməsi istiqamətində işlər davam etdirilməlidir". (AR İqtisadiyyat Nazirliyi)

❑ Regionlarda kənd təsərrüfatı sahəsi üzrə kadr çatışmazlığını aradan qaldırmaq üçün son iki ildə Kənd Təsərrüfatı Nazirliyinin bu istiqamətdə mütəxəssislərin yetişməsi üçün stimullaşdırıcı təbirlər həyata keçirməsi müsbət haldır. Lakin bununla paralel olaraq regionların istehsal potensialı da artırılmalıdır ki, mütəxəssislər işləmək üçün müəssisə tapa bilsinlər. Bunun üçün hər bir bölgənin ehtiyacı, dəyər yarada biləcək məhsul növü müəyyənləşməli və bu istiqamətdə peşəyönümlü təhsil inkişaf etdirilməlidir.

❑ Kəndlərdə yaşayan əhalinin pay torpaqlarından səmərəli istifadə etməklə öz məşğulluqlarını təmin etmələri, gəlir səviyyələrini yaxşılaşdırmaları üçün özəl banklar tərəfindən minimum faiz dərəcəsi ilə biznes kreditlərinə çıxış imkanlarının yaxşılaşdırılması, müasir aqrotexniki biliklərin transferi üçün mərkəzlərin yaradılması, kəndlərdə kooperativləşmənin stimullaşdırılması istiqamətində işlərin davam etdirilməsi, gənc ailələrə təmənnasız torpaq sahələrinin ayrılması, kəndlərin daxili infrastrukturunun (yol, içməli su təminatı) yaxşılaşdırılması işləri davam et-

dirilməlidir. (AR İqtisadiyyat Nazirliyi)

❑ Regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən dövlət proqramları çərçivəsində infrastrukturun yaxşılaşdırılması, müəyyən iş yerlərinin açılması regionların məşğulluq problemini tam aradan qaldıra bilmir. Bunun da əsas səbəbi regionların yalnız aqrar sektor üzrə ixtisaslaşmasıdır. Ekspertlər növbəti dövlət proqramlarında iqtisadi artıma nail olmaq, bölgələrin iqtisadi diversifikasiyasını təşkil etmək üçün hədəfə yönələn proqramların qəbul olunmasını təklif edirlər. Hər bir iqtisadi rayon üzrə spesifik proqram qəbul edilməli, həmin proqramlarda diaqnostik təhlil olmalıdır. Daha sonra diaqnostikadan üzə çıxan problemin həllinə yönəlik ilkin hədəflər və indikatorlar müəyyənləşməlidir.

❑ Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan, regionların sosial-iqtisadi, ictimai və mədəni həyatında mühüm tədbirlər həyata keçirən "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) öz fəaliyyəti ilə bütün respublika ərazisini əhatə etməsi və bölgələrdə regional mərkəzlərinin mövcudluğu, RİİB-in ölkədaxili miqrasiyanın tənzimlənməsi sahəsində mühüm layihələri həyata keçirməsində mühüm sosial təşəbbüsləri səfərbər edən qurum kimi bu problemə diqqətini yönəltməsi, ona əlavə imkanlar və səlahiyyətlərin verilməsi konkret nəticələr verə bilər.

❑ "Ölkə səviyyəsində hazırlanan regionların inkişafı üzrə dövlət proqramlarında bütün rayonların problemlərinin (iqtisadi və infrastruktur) həllinin xırdalıqları ilə əhatə olunması fiziki və resurslar baxımından mürəkkəblik yaradır. Bununla əlaqədar ölkə səviyyəsində regional inkişaf siyasətinin problemələrinə uyğun olaraq yerli səviyyədə rayon/şəhər icra hakimiyyətləri tərəfindən inkişaf proqramlarının hazırlanması və icrası yanaşması təklif olunur. Belə ki, ölkə səviyyəsində olan proqramda ümumi strateji baxışın, prioritetlərin, tədbirlərin və əldə olunması gözlənilən nəticələrin (hədəf göstəricilər) əks olunması, yerli səviyyədə (rayon və şəhər) olan inkişaf planlarında isə bütün sahələr üzrə (iqtisadi, infrastruktur, sosial, ərazi planlaşdırılması) konkret tədbirlərin nəzərdə tutulması və icrasının həyata keçirilməsi mümkündür". (AR İqisadiyyat Nazirliyi)

❑ Regionlarda müasir sənaye zonalarının - sənaye parklarının və məhəllələrinin yaradılması ilə bağlı həyata keçirilən tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, yeni müəssisələrin yaradılması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması işlərinin davam etdirilməsi zəruridir. Regionlara qeyri-neft sektoru sahəsində xarici və daxili investisiya qoyuluşunun cəlb edilməsi və onun stimullaşdırılması üçün tədbirlərin davam etdirilməsi lazımdır. (AR İqtisadiyyat Nazirliyi)

❑ Paytaxtın mərkəzində illərlə bütün infrastruktura əlçatan vəziyyətdə yaşayan əhalinin "tikinti bumu" və abadlıq tədbirlərinin həyata keçirilməsi nəticəsində köçürülməsi zamanı yerli icra orqanlarının bu sahədə hər hansı bir siyasətə, yaxud fəaliyyət planına malik olmaması daxili miqrasiyada müəyyən gərginlik yaratmışdır. Bu məsələnin müəyyən qüvvələr tərəfindən vaxtaşırı siyasiləşdirilməklə gündəmdə saxlanılmasına cəhdlər göstərilir. Bu baxımdan, mərkəzdə abadlıq işləri ilə bağlı yerli icra orqanlarının planlı fəaliyyət tədbirlərini həyata keçirməsinə ehtiyac var.

❑ "Bakı şəhərinin Baş planı"nın hazırlanması işinin 2020-ci ilin sonunadək başa çatdırılması və sənədin yekun layihəsinin təsdiq üçün Azərbaycan hökumətinə təqdim olunması nəzərdə tutulur. Məlum olduğu kimi, Baş planın hazırlanması müvafiq tenderin qalibi olan Almaniyanın "AS+P" şəhərsalma şirkətinə həvalə edilib. Şəhər ərazisinin strateji və çoxsəviyyəli planlaşdırılması, şəhər ərazisi daxilində torpaqlardan şəhərsalma məqsədləri baxımından istifadə və s. kimi məsələlərdə şəhərsalmanın milli ənənə və xüsusiyyətlərinə bələd olan yerli kadrların iştirakının da mühüm məsələ kimi diqqətdə saxlanılması faydalı olardı.

❑ Dövlətin davamlı və dayanıqlı inkişafı məqsədilə insanların yerləşməsi, respublika üzrə paylanması üçün strategiya hazırlanmalıdır. Ekspertlər **Kənd Milli Strategiyası** və **Şəhər Milli Strategiyasının** hər birinin ayrılıqa qəbul olunmasını vacib sayırlar. Srategiyaların hazırlanmasına, onun icrasına nəzarəti həyata keçirən işçi qrupunun yaradılmasına ehtiyac var. Qrup (Şura, Müşahidə Şurası) qərar verə biləcək yuxarı vəzifəli şəxslərdən ibarət olmalı, əhalinin inkişafı ilə bağlı məsələləri koordinasiya etməlidir. Strategiyalar çərçivəsində qısamüddətli tədbirləri müəyyənləşdirməli, hər bir regionun spesifik xüsusiyyətləri nəzərə alınmalı, tədqiq edilməli və müzakirə edilməlidir. Məsələn, hər hansı regionun inkişafını ləngidən, kənd təsərrüfatında məhsuldarlığa təsir göstərən su və meliorasiya, yol infrasturkuru və digər problemlərin həlli istiqamətində tədbirlər görülə bilər.

❑ Gənclərin asudə vaxtının təşkili üçün müxtəlif dərnək və kursların açılması, mühazirə və treninqlərin təşkili, ictimai

əsaslı kitabxanaların fəaliyyəti genişləndirilməlidir. Bu işlərin həyata keçirilməsi üçün yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin fəaliyyətində əhaliyə göstərilən xidmətin nəzarət mexanizmi gücləndirilməlidir. Olimpiya idman komplekslərinin uşaqlara və gənclərə əlçatanlığını təmin etmək üçün onların qiymət tariflərinin aşağı salınmasına və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə ehtiyac var. Bu cür mərkəzlər region gənclərinin Bakı kimi böyük və fərqli mədəni həyat tərzlərini özündə əks etdirən şəhərdə yaşamaq maraqlarını öz rayonlarına yönəldə bilər. "Sovet dövründə hər bir kənddə yaradılan mədəniyyət klublarının fəaliyyəti gəlir gətirmir və dotasiya ilə idarə olunurdu. İndi dövlət büdcəsi üçün bu qədər dotasiyanın ayrılması əlavə yük yaradır. Dövlət büdcəsinin yükünü azaltmaq üçün ucuz tariflərlə təsərrüfat hesablı xidmət göstərmək olar. Amma ən azı rayonun mərkəzi şəhər və qəsəbələrində teatr, kinoteatr binaları olmalı, müxtəlif bölgələrdən teatr truppaları qarşılıqlı qastrollar, sağlamlıq üçün idman qurğularına əlçatanlıq təşkil edilməlidir. Ucqar kəndlərdə isə səyyar tamaşalar təşkil edilə bilər. Bütün regionların sosial infrastrukturla əhatə dairəsi bərabər qurulmalıdır. Ekspertlərin rəyinə əsasən, bu, yalnız uşaqların inkişafı ilə bağlı məsələ deyil, eyni zamanda yaradıcı insanlar üçün regionların cəlbediciliyinin artırılması baxımından önəmlidir. Yaradıcı insan asudə vaxtını səmərəli keçirmək istəyir. Bu imkanların məhdudluğu şəhərdən kəndə qayıdışı ləngidir.

❑ Lokomotiv şəhər modelinin yaradılması da gündəmə gələn məsələlərdəndir. Bu, istənilən bir şəhər ola bilər - Gəncə, Yevlax, Şirvan, Mingəçevir və s. Bakıdan sonra əhalinin sayı milyon olan və ya milyonu keçə biləcək şəhər modeli Azərbaycanda Bakı və Abşeronda olan sıxlığı müəyyən mənada tarazlaya bilər. İkinci milyonluq şəhər ətraf bölgələrin inkişafı üçün lokomotiv rolunu oynaya bilər. Bunun üçün Bakıdan universitetləri, mərkəzi icra hakimiyyəti orqanlarının bir hissəsini həmin şəhərə köçürmək lazımdır. Bu baxımdan urbanizasiyanın normal, planlı şəkildə gedişinə şərait yaradılarsa, miqrasiyanın bir istiqamətdə getməsini səngitmək olar. Ancaq burada diqqət yetirilməli vacib nüans odur ki, inzibati strukturun köçürülməsi ilə paralel olaraq insanların həmin bölgəyə axını üçün xidmət infrastrukturunun əlçatanlığı təmin edilməlidir. Burada təhsil, səhiyyə, mədəni, sosial, iqtisadi, iaşə və s. infrastrukturun qurulması vacibdir.

❑ Seçki kampaniyaları zamanı əsas aktivlik Bakı və iri şəhərlərdə hiss olunur. Ona görə də siyasi və iş karyerası qurmaq istəyən gənclər rayonlardan paytaxta doğru köçürlər. Regionlarda insanların seçkilərdə iştirakçılığını, aktivliyini artırmaq, bölgələrdə siyasi proseslərdə təmsilçiliyini təşkil etmək üçün yerli özünüidarəetmə orqanlarının fəallığı təmin olunmalı, səlahiyyətləri artırılmalıdır.

❑ Regionlarda yaşayan gənc və aztəminatlı ailələr üçün sosial evlərin tikintisi və paytaxta nisbətən daha güzəştli şərtlərlə mənzil əldə etmələri üçün yeni mexanizmin hazırlanması və tətbiqi təklif olunur.

❑ Müstəqillik illərində məhsuldar qüvvələrin Bakı aqlomerasiyasında cəmlənməsinin yaratdığı sosial-iqtisadi problemlər və onların aradan qaldırılması yollarının işlənib hazırlanması, mövcud sosial-iqtisadi, demoqrafik inkişafın tədqiqi cox əhəmiyyətlidir. Mövcud geosiyasi, sosial-iqtisadi, demoqrafik şəraitə uyğun əhali məskunlaşmasının təkmilləşdirilməsi yolları və idarə olunmasının strateji və geosiyasi zəruriliyini nəzərə alaraq, regional xüsusiyyətə uyğun yeni məskunlaşma konsepsiyası işlənilməlidir. Bakı ətrafında bir neçə böyük şəhər formalaşdırmaq ücün Binə-Hövsan, Maştağa-Zabrat, Məhəmmədi-Kürdəxanı, Mərdəkan-Şüvəlan-Buzovna ərazilərində yeni şəhərlər yaratmaq, həmçinin Ələt qəsəbəsi ilə yanaşı, Pirallahı qəsəbəsinə də şəhər və "Azad iqtisadi zona" statusu vermək məqsədəuyğun olardı və s.

❑ Azərbaycanda daxili miqrasiyanın tənzimlənməsi strateji əhəmiyyətli sosial məsələdir. Belə ki, bölgələrdə mövcud olan bəzi sosial problemlərin kənar qüvvələr tərəfindən siyasiləşdirilərək, sabitliyin pozulması üçün sui-istifadə edilməsi faktları məlumdur və nəzərə alınmalıdır.

❑ Azərbaycanda ölkədaxili miqrasiyanın müxtəlif - siyasi, sosial-iqtisadi, demoqrafik, hüquqi, mədəni-mənəvi və geosiyasi aspektlərinin araşdırılması yönündə elmi tədqiqatlar nəinki nisbətən azdır, hətta bütövlükdə yox dərəcəsindədir. Bu tədqiqat gedişində ölkədaxili miqrasiya ilə bağlı hər hansı statistik və data bazanın olmaması, bu yöndə hər hansı təhlillərin aparılmaması aşkara çıxdı. XXI əsrdə qlobal problemə çevrilən daxili miqrasiyanın artıq geosiyasi aspektləri dərindən təhlil edilir. Qeyd edilənlər ölkəmizin müvafiq tədqiqat qurumları tərəfindən diqqət mərkəzində saxlanılmalı, elmi fəaliyyət planlarına daxil edilməlidir. Belə ki, güclü dövlətçilik ilk növbədə güclü regionları ilə formalaşır.

## İXTİSARLARIN SİYAHISI:

AR İN - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
AR DİN - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
BMT - Birləşmiş Millətlər Təşkilatı
DİM - Dövlət İmtahan Mərkəzi
DSK - Dövlət Statistika Komitəsi
QMKİDK - Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi
STM - Sosial Tədqiqatlar Mərkəzi
UNESCO - United Nations Educational, Scientific and Cultural Organization
(BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı)

## İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR

**Azərbaycan dilində:**

1. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı” Dövlət Proqramı (2004-2008-ci illər).
2. Azərbaycan Respublikası regionlarının 2009-20013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: Nurlar, 2009, 183 s.
3. Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı. Bakı, 27 fevral 2006-cı il.
4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər) // Vətəndaşlıq və miqrasiya haqqında normativ-hüquqi sənədlər toplusu. Bakı: Qanun, 2007.
5. Azərbaycanın demoqrafik göstəriciləri, 2019. /Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
6. Azərbaycan regionları 2010. /Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
7. Azərbaycan Respublikasının 2014-cü il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri. /Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi/. Bakı, 2013
8. Azərbaycanın demoqrafik göstəriciləri 2016 (Statistik məcmuə). Bakı, 2016, 480 s.
9. Azərbaycanın milli hesabları, 2019. /Dövlət Statistika Komitəsi
10. Azərbaycanın regionları, 2019. Dövlət Statistika Komitəsi
11. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması, 1999-cu il və 2009-cu il. /Dövlət Statistika Komitəsi
12. Azərbaycanın statistik göstəriciləri 2016, Bakı: Səda, 2016, 824 s.
13. Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası. Bakı: Bakı Universiteti, 2010, 470 s.
14. Bakı aqlomerasiyasına aid şəhər və qəsəbələrin təsnifatı. Mənbə: Azərbaycanın demoqrafik göstəriciləri. 1991.
15. Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafı. Bakı: ARDSK, 2006.
16. Bədəlov E.S. Abşeron iqtisadi-coğrafi rayonunda sosial-demoqrafik problemlər və məskunlaşma məsələləri. Bakı, 2016
17. Əfəndiyev V.Ə., Dəmirqayayev Ş.Q. Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri. Bakı: Nicat, 1995, 172 s.
18. Əfəndiyev V.Ə., Qasımova F.E. Azərbaycanda qəsəbə. Bakı, 2013, 218 s.
19. Əfəndiyev V.Ə. Urabanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı: Bakı Universiteti, 2002, 395 s.
20. Əhalinin 2009-cu ildə siyahıyaalınmasının yekunları. Bakı, 2010.
21. Hacızadə Ə. Azərbaycan SSR-in əhalisi və onun məskunlaşması, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1965
22. Muradov Ş., Baxış Ç. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013.
23. Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi. “Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat” (1988-2011-ci illər). 2011
24. Rayonların İnvestisiya Reytinqi. / İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi/. Bakı, 2017

**İngilis dilində:**

25. Bryman A. Social Research Methods. Oxford, Oxford University Press, 2012.
26. Clothier İ., Created Identities: Hybrid Cultures and the Internet. Convergen-

ce: The International Journal of Research into New Media Technologies, 2005.
27. Kaplan D. E.Chacko, Placing immigrant identities. Journal of Cultural Geography, (2015).129-138. DOI: 10.1080/08873631.2015.1004852
28. Lawler S. Identity: Sociological Perspectives. Cambridge: Polity Press, 2008
29. Martin D. The choices of identity. Social Identities, (1995)1(1), 5-20.
30. Modood T. Multiculturalism: A Civic Idea. Cambridge: Polity Press, 2007.
31. Schlesinger P. On national identity: some conception and misconceptions criticised. Social Science Information, 1987, 26 (2), 219-264.
32. Silverman D. Doing Qualitative Research: A Practical Handbook. UK, SAGE, 2013
33. Smith K. Hybrid Identities: Theoretical Examinations IN: Iyall Smith, K. and Leavy, P. (eds), 2008, Hybrid identities. Leiden: Brill, 3-11.
34. Tsouroufli M. Hybridity, Identities and Inclusion of International PhD Students in England. Interdisciplinary Perspectives in Equality and Diversity, 2015, 1, 5-49.
35. UNESCO “Migration, displacement and education: BUILDING BRIDGES, NOT WALL” (2019)

**Rus dilində:**

36. Азербайджанская ССР. /Институт Географии Академии Наук Азербайджанская ССР/. Москва, 1957
37. Вакуленко Е. С., Фурманов К. К. Опыт моделирования миграционных потоков на уровне регионов и муниципальных образований РФ / Научные труды ИНП РАН. -М.: МАКС Пресс, 2011, № 1, с. 431–450
38. Вакуленко Е. С., Фурманов К. К. Моделирование регистрируемых миграционных потоков между регионами Российской Федерации // Прикладная эконометрика, 2011, 1(21), с. 35–55.
39. Вершинина И.А. Глобализация и миграционные процессы. М.: МАКС Пресс, 2006, 20 с.
40. Вечканов Г.С. Миграция трудовых ресурсов в СССР: Полит.экон. аспект. Л.:Изд-во ЛГУ,1981
41. Глушенко Г.И. Влияние международной трудовой миграции на развитие мирового и национального хозяйства. М.: ИИЦ «Статистика России», 2006, 267 с.
42. Гончаренко А.Б., Староверов О.В. Мобильность населения и качество жизни // Экономика и мат. методы, 2002, т.38, № 1, с.24-35.
43. Демографический энциклопедический словарь. М.: Советская энциклопедия, 1985.
44. Дохунаева Т.Н. Миграция населения // Трудовое право. М., 2006, № 7, с. 10-17.
45. Дусь Ю.П., Разумов В.И. Учет и некоторые механизмы регулирования миграции специалистов высшей квалификации // Личность. Культура. Общество. М., 2006, т. 8, вып. 3, с.311-320.
46. Кибанов, А.Я. Мотивация и стимулирование трудовой деятельности: Учебник Текст. / А.Я. Кибанов, И.А. Баткаева, Т.А. Митрофанова, М.В. Ловчева. Под ред. А.Я. Кибанова. М.: инфра-м, 2011, 524 с.
47. Кирпичев Б.В. Миграция населения как источник динамики и воспроизводства рабочей силы // Вестник Костромского гос. ун-та им. Н.А.Некрасова. Сер.: Экон. науки. Проблемы новой полит, экономии. Кострома, 2005, № 5, с.80-84.
48. Моисеенко В.М. Внутренняя миграция населения. М.: Изд-во МГУ: ТЕИС, 2004, 285 с.
49. Раков А.А., Емельянова А.А. Вынужденная миграция в рамках постсоветского пространства // Народонаселение. М., 2005, №1, с.94-103.
50. Рандалов Ю.Б., Хараев Б.В. Миграционные настроения сельских жителей: действующие факторы и тенденции (по материалам социологии, исслед. в Республике Бурятия). -Улан-Удэ: Изд-во Бурят, науч. центра СО РАН, 2005, 113 с.
51. Сен-Марк Ф. Социализация природы. М., 1997.
52. Топилин А.В. СНГ: демографический потенциал, миграция, рынок труда. М., 2002
53. Хотунцев Ю.Л. Экология и экологическая безопасность. Учеб. Пособие, М., Изд.-и центр, «Академия», 2002
54. Юдина Т.Н. Социология миграции: Учеб. Пособие. для вузов М.: Академический Проект, 2006.

**İnternet resursları:**

55. UN, New Urban Agenda 2017. - http://habitat3.org/wp-content/uploads/NUA-English.pdf

56. UN, Transforming our world: the 2030 Agenda for Sustainable Development. - https://sustainabledevelopment.un.org/post2015/transformingourworld

57. Office for Notional Statistics. file:///C:/Users/ASUS/Downloads/internal-migration methodology2016.pdf

58. Первая всеобщая перепись населения Российской империи. Наставление городским счетчикам. [5 июня 1895 года] - http://elib.shpl.ru/ru/nodes/23817-pervaya-vseobschaya-perepis-naseleniya-rossiyskoy-imperii-nastavlenie-gorodskim-schetchikam-5-iyunya-1895-goda-spb-1896

59. https://ec.europa.eu/futurium/en/urban-agenda

60. https://data.worldbank.org/indicator/SP.URB.TOTL.IN.ZS?locations=AZ

61. https://jakubmarian.com/european-countries-by-percentage-of-population-living-near-the-capital/

62. https://ru.wikisource.org/wiki/%D0%9F%D0%BE%D1%81%D1%82%D0%B0%D0%BD%D0%BE%D0%B2%D0%BB%D0%B5%D0%BD%D0%B8%D0%B5_%D0%A1%D0%BE%D0%B2%D0%B5%D1%82%D0%B0_%D0%9C%D0%B8%D0%BD%D0%B8%D1%81%D1%82%D1%80%D0%BE%D0%B2_%D0%A1%D0%A1%D0%A1%D0%A0_%D0%BE%D1%82_28.08.1974_%E2%84%96_677?fbclid=IwAR2I-MsPKV83gi0Qk_0ARqowlQptKAnnKFnpl39Lj-QGA36IPF0EZ8EwT8ng

63. http://files.preslib.az/projects/azerbaijan/gl2.pdf

64. http://e-qanun.gov.az/alpidata/framework/data/0/c_f_480.htm

65. MIGRATION DATA PORTAL. - https://migrationdataportal.org/data?i=stock_abs_origin&t=2019&cm49=31

# Əlavələr:

## Əlavə 1.

“Azərbaycanda miqrasiya prosesi: daxili miqrasiyanın sosioloji aspektləri”

keyfiyyət sorğusunun sualları

Salam. Mənim adım _______Mən Sosial Tədqiqatlar Mərkəzini təmsil edirəm. Hazırda Sosial Tədqiqatlar Mərkəzi tərəfindən “Azərbaycanda miqrasiya prosesi: daxili miqrasiyanın sosioloji aspektləri” mövzusunda sorğu keçirilir. Verdiyiniz cavablar məxfi və anonim saxlanılacaq, şəxsiyyətiniz açıqlanmadan yalnız cavablarınız tədqiqat məqsədləri üçün ümumiləşdirilmiş şəkildə istifadə olunacaq.

1) Respondent haqqında məlumat

Cinsi: qadın və ya kişi

Yaş------------------------------

Təhsil ---------------------------

Hazırda nə işlə məşğulsunuz?----------

2) Ailə vəziyyəti

Ailəniz neçə üzvdən ibarətdir?

-----------------------------------

3) İndiki yerə haradan gəlmisiniz?

-----------------------------------

4) Ailənin bütün üzvləri gəlib, yoxsa bir qismi?

Onlar nə işlə məşğuldurlar, neçə yaşları var və s.

----------------------------------

5) Ailəniz indiki yerə gəlməyinizi və yaşamağınızı dəstəkləyirmi?

-----------------------------------

6) İndiki yerdə neçə müddətdir yaşayırsınız?

--------------------------------------

7) Sizi indiki yerə gətirən səbəb nədir?

----------------------------------------

7.1. Burada qalmağınızın səbəbi nədir?

------------------------------------------

8) Siz yaşadığınız yerdə qeydiyyatdasınız? (Ailəsi ilə birgə yaşamayanlar 9-cu suala keçid alsın)

----------------------------------------

8.1. Ailə üzvlərinizin neçəsi yaşadığı yerdə qeydiyyatdadır? (Müvəqqəti qeydiyyatda olduğu yerlər daxil olmaqla)

--------------------

9) Subay olanlara verilir - Evliliyə görə yaşayış yerinizi dəyişərdinizmi?

----------------------------------------

10) Evli olanlara verilir - Evlilik yaşadığınız yeri dəyişməyə təsir edibmi?

----------------------------------------

Ödənilməyən tələbat

11) Sizə lazım olan nəyi yaşadığınız rayon-kənd-qəsəbə və s.-də tapmadınız? (Aşağıdakı variantları respondentə istiqamət vermək üçün istifadə edin)

Təhsil

Müstəqillik

Xoşbəxtlik

Sərbəstlik

İş imkanı

Fərqli həyat

Xaricə getmək imkanı

Əvvəllər - uşaqlıqda-yeniyetməlikdə-tələbəlik və ondan sonrakı dövrlərdə bura köçmək arzum və istəyim olub

Öz variantınız....

(Bu variantları dalbadal saymayın, imkan verin adam danışsın, sonra lazım gəldikdə qeyd edərsiniz)

--------------------------------------------

12) İndiki yerdə sizə lazım olan nəyi tapa bildiniz? (Aşağıdakı variantları respondentə istiqamət vermək üçün istifadə edin)

Təhsil

Müstəqillik

Xoşbəxtlik

Sərbəstlik

İş imkanı

Fərqli həyat

Xaricə getmək imkanı

Öz variantınız....

(Bu variantları dalbadal saymayın, imkan verin adam danışsın, sonra lazım gəldikdə qeyd edərsiniz)

---------------------------------------------

13) Olduğunuz şəhərdə/rayonda nələri bəyənir və bəyənmirsiniz?

-----------------------------------------

14) Hansı gözləntiləriniz, arzularınız var idi? Gəldiyiniz yerdə gözləntiləriniz özünü doğrultdumu?

----------------------------------------

15) Rayondan buraya köçmüsünüz. Buradan da ölkə daxilində, yaxud xaricində başqa yerə köçmək istəyiniz varmı? (“Xeyr” cavabı verilirsə, 19-cu suala keçin)

--------------------------------------

Qeyd: Əgər respondent öncə ölkə

daxilində, daha sonra xaricə gedəcəyini desə bu suallar verilir.

16) Varsa, hara və niyə?

16.1 Gedəcəyiniz ölkə haqqında məlumat toplamısınızmı?

16.2 Kimin yanına getməyi planlaşdırırsınız?

16.3 Getdiyiniz ölkədəki qeydiyyat şərtləri, sosial şərait haqqında məlumatınız varmı?

16.4 Hər hansı çətinliklərlə qarşılaşacağınızı düşünmüsünüzmü? Nələr ola bilər?

17) Burada hansı tələbatlarınız qarşılanmır?

--------------------------------

18) Burada qarşılanmayan hansı tələbatınızın köçmək istədiyiniz yerdə/xaricdə ödəniləcəyini düşünürsünüz?

-------------------------------------

19) Özünüzü hara aid hiss edirsiniz?

Doğulduğum yerə

Hazırda yaşadığım yerə

Hansısa xarici ölkəyə -----------------

20) Özünüzü harada təhlükəsiz hesab edirsiniz?

Doğulduğum yerdə

Hazırda yaşadığım şəhərdə

Hansısa xarici ölkədə----------------

21) Gələcəkdə öz region-rayon-kənd-qəsəbənizə və s. geri qayıtmaq istərdinizmi?

-------------------------------------------

22) Sizə yaxın olan insanların nə qədəri yaşadıqları ərazidən köçüb?

Çox hissəsi

Müəyyən hissəsi

Az hissəsi

22.1 Köçmələrinə səbəb nədir?

23) Neçəsi sizin yaşadığınız ərazidə yaşayır?

----------------------------------

Sorğuda iştirak etdiyiniz üçün sizə dərin minnətdarlığımızı bildiririk. Sonda nəsə əlavə etmək istəyirsinizmi?

## Əlavə 2.

### ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜNÜN NƏTİCƏLƏRİ




**Azərbaycan Respublikasının işğal edilmiş əraziləri və bu ərazilərin azərbaycanlı əhalisi**

*Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) o cümlədən: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdərə*[2]

Ərazisi (km²): 4,388
Əhali: 80,246[1]
İşğal tarixi: 1991-1993

| | İşğal tarixi | Ərazisi (km²) | Əhali |
|---|---|---|---|
| Laçın | 18.05.1992 | 1,840 | 77,660 |
| Kəlbəcər | 02.04.1993 | 3,050 | 93,053 |
| Ağdam | 23.07.1993 | 1,150 | 202,243 |
| Füzuli | 23.08.1993 | 1,390 | 132,387 |
| Cəbrayıl | 23.08.1993 | 1,050 | 80,825 |
| Qubadlı | 31.08.1993 | 800 | 41,125 |
| Zəngilan | 29.10.1993 | 730 | 44,853 |

**Naxçıvan Muxtar Respublikası və Qazax rayonunun işğal edilmiş yaşayış məntəqələri**

Naxçıvan MR

| | |
|---|---|
| Kərki[3] | 15.01.1990 |

Qazax rayonu[4]

| | |
|---|---|
| Baqanis Ayrım | 24.03.1990 |
| Xeyrimli | 08.03.1992 |
| Aşağı Əskipara | 12.03.1992 |
| Bərxudarlı | 27.04.1992 |
| Sofulu | 27.04.1992 |
| Qızılhacılı | 11.05.1992 |
| Yuxarı Əskipara | 08.06.1992 |

*[1] Bu bölmədə əhaliyə dair məlumatlar 01.01.2019-cu il etibarilədir*
*[2] 13 oktyabr 1992-ci ildə ləğv olunaraq ərazisi Ağdam, Kəlbəcər və Tərtər rayonlarının inzibati tərkibinə verilmişdir.*
*[3] Kərki kəndi: 926 nəfər məcburi köçkün*
*[4] Qazax rayonu: 7803 nəfər məcburi köçkün*

**Qaçqın və məcburi köçkünlər**

| | |
|---|---|
| Ermənistandan olan qaçqınlar | 350,000 |
| İşğal edilmiş ərazilərdən olan məcburi köçkünlər | 716,054 |
| Ermənistanla sərhəd və işğal edilmiş ərazilərə bitişik bölgələrdən köçürülmüş şəxslər | 110,612 |
| **Cəmi:** | **1,176 666** |

**Təcavüzün qurbanları**

| | |
|---|---|
| Həlak olanlar | 20,000 |
| Əlil olanlar | 50,000 |
| İtkin düşənlər | 3,888 |
| İtkin düşənlər, əsir və girov götürülənlərin ümumi sayı | 5,364 |

**İşğal edilmiş ərazilərdə olan Ermənistan hərbi qüvvələri**

| | |
|---|---|
| Tank | 379 |
| ZDM | 480 |
| Artilleriya | 570 |
| Şəxsi heyət | 45,409 |

**Dağıntılar və ziyanlar**

| | | | | | |
|---|---|---|---|---|---|
| Yaşayış məntəqələri | 900 | Tarixi abidələr | 706 | Qaz xətləri/qazpaylayıcı qurğular | 2 000 km/34 |
| Yaşayış evləri | 150 000 | *- o cümlədən,* | | Elektrik xətləri | 76 940 km |
| İctimai binalar | 7 093 | - Məscidlər | 57 | Meşələr | 260 311 ha |
| *- o cümlədən,* | | - Məbəd və kilsələr | 125 | K/t-ə yararlı torpaqlar | 645 000 ha |
| - Təhsil müəssisələri | 1107 | - Arxeoloji yaşayış yerləri | 58 | Əkin yerləri | 185 500 ha |
| - Uşaq bağçaları | 855 | - Qala və qala divarları | 26 | Faydalı qazıntı yataqları | 163 |
| - Tibb müəssisələri | 521 | Rabitə obyektləri/xətləri | 598/3052 km | Təbiət abidələri | 215 |
| - Sanatoriya-müalicə komp. | 4 | Kabel-kanalizasiya qurğuları | 28980 km | Xüsusi mühafizə olunan təbiət əraziləri | 43 007 ha |
| - Kitabxanalar | 927 | Sənaye və k/t obyekti | 2 389 | Relikt göllər | 7 |
| - Muzeylər | 22 | Avtomobil yolları | 5 198 km | Suvarma sistemləri | 29 |
| Muzey eksponatları | 100 000-dən çox | Dəmir yolları | 325, 8 km | Su anbarları | 10 |
| Dövlət arxivi | 12 | Körpülər | 348 | Su xətləri | 7 568 km |
| Dövlət arxiv fondu sənədləri | 401 000 s/v | | | | |

**Ermənistanın işğal etdiyi ərazilərə qanunsuz yerləşdirdiyi əhali**
(1993-cü ildən etibarən)

| | |
|---|---|
| Keçmiş DQMV | 8,780 |
| Laçın | 13,945 |
| Kəlbəcər | 1585 |
| Zəngilan | 753 |
| Cəbrayıl | 398 |
| Qubadlı | 21 |
| **Cəmi** | **25,482*** |

*Qeyd:* Ermənistan hökuməti Ermənistandan və digər ölkələrdən, xüsusilə Suriya, Livan və İraqdan olan ermənilərin Azərbaycanın işğal altında olan ərazilərində məskunlaşmasını təşviq edir və onların bu ərazilərdə yerləşdirilməsinə maliyyə, maddi-texniki və s. yardımlar göstərir. Bu hesablamalar işğal olunmuş ərazilərə həyata keçirilmiş faktaraşdırıcı missiyaların hesabatlarına və digər mənbələrə əsaslanır.

© 2019 Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

## Əlavə 3.

**"2018-ci ildə ölkə və iqtisadi rayonlar üzrə muzdla işləyənlərin orta aylıq əməkhaqqı (manat)"**

**Mənbə:** *Dövlət Statistika Komitəsi, 2018-ci il.*

*Ölkə üzrə ən yüksək orta əmək haqqı Bakı şəhərində olub*

*Ölkə üzrə ən aşağı orta aylıq əmək haqqı Qax rayonunda olub*

| | |
|---|---|
| **Azərbaycan Respublikası** | **544,6** |
| Bakı şəhəri | 789,1 |
| Abşeron iqtisadi rayonu | 404,2 |
| Xızı rayonu | 271,5 |
| Abşeron rayonu | 362,6 |
| Sumqayıt şəhəri | 432,8 |
| Gəncə-Qazax iqtisadi rayonu | 331,2 |
| Gəncə şəhəri | 373,8 |
| Qazax rayonu | 307,9 |
| Ağstafa rayonu | 276,9 |
| Tovuz rayonu | 275,8 |
| Şəmkir rayonu | 304,1 |
| Gədəbəy rayonu | 440,7 |
| Daşkəsən rayonu | 398,2 |
| Samux rayonu | 287,9 |
| Göygöl rayonu | 326,6 |
| Goranboy rayonu | 283,5 |
| Naftalan şəhəri | 352,1 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 288,3 |
| Balakən rayonu | 272,3 |
| Zaqatala rayonu | 269,8 |
| Qax rayonu | 259,2 |
| Şəki şəhəri | 276,7 |
| Oğuz rayonu | 283,1 |
| Qəbələ rayonu | 358,5 |
| Lənkəran iqtisadi rayonu | 303,8 |
| Astara rayonu | 292,8 |
| Lənkəran şəhəri | 302,8 |
| Lerik rayonu | 295,7 |
| Yardımlı rayonu | 314,7 |
| Masallı rayonu | 300,1 |
| Cəlilabad rayonu | 317,5 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 330,9 |
| Qusar rayonu | 307,4 |
| Xaçmaz rayonu | 334,1 |
| Quba rayonu | 322,7 |
| Şabran rayonu | 317,0 |
| Siyəzən rayonu | 396,7 |

| | |
|---|---|
| Naxçıvan Muxtar Respublikası | 433,0 |
| Aran iqtisadi rayonu | 303,7 |
| Göyçay rayonu | 264,5 |
| Beyləqan rayonu | 269,6 |
| Ağcabədi rayonu | 261,2 |
| Bərdə rayonu | 268,0 |
| Neftçala rayonu | 303,6 |
| Biləsuvar rayonu | 298,7 |
| Salyan rayonu | 363,9 |
| Yevlax şəhəri | 300,6 |
| Mingəçevir şəhəri | 316,3 |
| Ağdaş rayonu | 263,0 |
| Ucar rayonu | 279,7 |
| Zərdab rayonu | 260,2 |
| Kürdəmir rayonu | 267,5 |
| İmişli rayonu | 328,0 |
| Saatlı rayonu | 284,4 |
| Sabirabad rayonu | 275,3 |
| Hacıqabul rayonu | 334,3 |
| Şirvan şəhəri | 455,2 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 294,6 |
| Cəbrayıl rayonu | 324,7 |
| Füzuli rayonu | 287,2 |
| Ağdam rayonu | 278,3 |
| Tərtər rayonu | 269,5 |
| Xocalı rayonu | 331,8 |
| Şuşa rayonu | 486,4 |
| Xocavənd rayonu | 290,4 |
| Xankəndi şəhəri | - |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 331,4 |
| Kəlbəcər rayonu | 325,8 |
| Laçın rayonu | 314,1 |
| Qubadlı rayonu | 376,4 |
| Zəngilan rayonu | 347,3 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 306,8 |
| Qobustan rayonu | 316,5 |
| İsmayıllı rayonu | 292,3 |
| Ağsu rayonu | 295,2 |
| Şamaxı rayonu | 327,4 |

# QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az